

**"Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcəkdir."**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

*Elmi-praktiki jurnal*

*Yanvar - Mart (2019-cu il)*

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmişdir.

Çapa imzalanmışdır: 15.04.2019
60x84 1/8 formatda 126 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2019

# MÜNDƏRİCAT

## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**16** Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib

**20** Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib

**24** Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**25** Prezident İlham Əliyev Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşündə iştirak edib

**30** Prezident İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib

**31** Prezident İlham Əliyev 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

**32** Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun açılışında iştirak edib

**38** Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak edib

**40** Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb

**40** Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**41** Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**42** Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

**44** Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

**50** Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib

## RƏSMİ TƏDBİRLƏR

**53** Baş prokuror Zakir Qaralovun yanında əməliyyat müşavirəsi keçirilib

**57** Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

**63** Hərbi Prokurorluqda kollegiya iclası keçirilib

**68** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

**71** Bakı şəhər prokurorluğunda əməliyyat müşavirəsi keçirilib

**72** Azərbaycan Prokurorluğunun kollektivi Şəhidlər xiyabanını ziyarət edib

**73** Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında əməkdaşlıq haqqında Saziş imzalanıb

**77** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

**80** Baş Prokurorluqda könüllülərlə görüş keçirilib

## İCTİMAİYYƏTƏ HESABAT

**82** Xarici İşlər Nazirliyi və Baş Prokurorluğun Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanatı

**84** Ali təhsil müəssisələrində hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr prokurorluq orqanlarının fəaliyyətinə ictimai köməkçi qismində cəlb ediləcəklər

**85** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2018-ci il ərzində görülmüş işlərə dair hesabatla çıxış edib

**90** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçiləri müxtəlif təlim və digər tədbirlərdə səmərəli iştirak ediblər

**92** Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə təlim və seminarlar təşkil olunub

**95** Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqət qanunvericiliyin izahı və profilaktiki tədbirlərə yönəldilib

**96** Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələrinin görüşü keçirilib

**98** Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

## BEYNƏLXALQ ƏLAQƏLƏR

**100** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçiləri beynəlxalq tədbirlərdə Azərbaycan Prokurorluğunu uğurla təmsil edirlər

**103** Belarus Respublikasının İstintaq Komitəsinin nümayəndə heyəti ölkəmizdə səfərdə olub

## HÜQUQİ AKTLAR

**104** Qanunvericiliyə dəyişikliklər

**117** Konstitusiya Məhkəməsi Plenumunun qərarı

**120** Prokurorluq üzrə normativ aktlar

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Prezident İlham Əliyev:**
**“Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir.”**

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.

## Prezident İlham Əliyevin giriş nitqi



– Bu gün biz Nazirlər Kabinetinin iclasında 2018-ci ilin əsas yekunlarını müzakirə edəcəyik, eyni zamanda, bu il görüləcək işlər haqqında danışacağıq.

2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək.

Keçən il regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatdı. Bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri var. Bu il biz regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Demək olar ki, proqramın əsas hissəsi hazırdır.



Keçən il mən Azərbaycanın bölgələrinə 24 səfər etmişəm. Bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək onları narahat edən problemlərin həlli istiqamətində əlavə göstərişlər verilir. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanmışdır. Bu sərəncamlar bölgələrimizdə çox böyük əks-səda verir və böyük nəticələrə gətirib çıxarır. Dediyim kimi, bölgələrə səfərlərim həm vətəndaşlarla təmasda olmaq, həm görülən işlərə nəzarət etmək, həm də gələcəkdə görüləcək işlərlə bağlı düzgün addımların atılması üçün gözəl imkan yaradır. Mən Azərbaycanın hər bir rayonunda dəfələrlə olmuşam, ən azı hər bir rayonda 5 dəfə, elə rayon var ki, 10 dəfədən çox olmuşam və bu müntəzəm səfərlərin çox böyük əhəmiyyəti var.

Ölkəmizdə, ümumiyyətlə, daxili vəziyyət – həm ictimai-siyasi, həm iqtisadi-sosial məsələlərlə bağlı vəziyyət sabitdir. Yəni deyə bilərəm ki, 2018-ci il əvvəlki illərdən çox da fərqlənməyib, ölkəmiz dinamik inkişaf yolu ilə gedib.

Həmçinin hesab edirəm ki, keçən il xarici siyasət sahəsində də uğurlu olubdur. Mən keçən il xarici ölkələrə 16 səfər etmişəm və Azərbaycana 16 dövlət və hökumət başçısı səfər edib. Bu, bir daha onu göstərir ki, bizim xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Əlbəttə, hesab edirəm ki, biz, ilk növbədə, qonşularımızla əlaqələrimizi daha yüksək pilləyə qaldıra bilmişik. Keçən il qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim çoxsaylı görüşlərim olub və bu görüşlərdə praktiki məsələlər həll edilib. Hər bir ölkə üçün onun qonşuları ilə yaxşı münasibətlərin qurulması çox vacib amildir. Azərbaycan o ölkələrdəndir ki, Ermənistandan başqa bütün qonşularımızla çox düşünülmüş siyasət apararaq gözəl münasibətləri qura bilib və ölkəmiz bu münasibətlərdən faydalanır. Həm regional təhlükəsizliyin inkişafı, eyni zamanda, nəqliyyat, energetika, ticarət məsələlərinin uğurla həlli, o cümlədən qonşularımızla münasibətlərdən asılıdır. Bir sözlə, qonşu ölkələrlə əlaqələrimiz çox müsbətdir və əminəm ki, bu il də bu istiqamətdə yeni müsbət addımlar atılacaqdır.

Bildiyiniz kimi, Azərbaycan müsəlman aləmində çox böyük hörmət, nüfuz qazanıb. Bizim İslam həmrəyliyi ilə bağlı atdığımız addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir. Yəni, bizim apardığımız siyasət İslam aləmində həmrəyliyi, əməkdaşlığı möhkəmləndirir.

Həm ölkə daxilində, həm xaricdə bu istiqamətdə keçirdiyimiz tədbirlər İslam birliyini daha da möhkəmləndirir. Təsadüfi deyil ki, keçən il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir və Naxçıvan şəhəri bu şərəfli adı çox böyük uğurla daşımışdır. Biz bu il də müsəlman ölkələri ilə əlaqələrimizi müxtəlif istiqamətlərdə inkişaf etdirəcəyik və beləliklə, müsəlman aləmində bizim nüfuzumuz, çəkimiz, rolumuz daha da artacaqdır.

Bildiyiniz kimi, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığın prioritetləri adlı mühüm sənəd imzalanmışdır. Bu sənəddə bir çox məsələlər öz əksini tapır. Xüsusilə onu vurğulamalıyam ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə aparılan işlər arasında bu sənədin xüsusi yeri vardır. Beləliklə, Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz fikrini birmənalı şəkildə ortaya qoyur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə də qəbul edilmiş yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapmışdır.

Biz ötən il Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirmişik. Bildiyiniz kimi, bu il Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcək. Əlbəttə ki, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək bizim nüfuzumuzu daha da artıracaq, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi idi. İmzalanmış Konvensiya bu məsələnin həlli üçün çox böyük əhəmiyyət daşıyır. Şadıq ki, bizim uzun illər ərzində müdafiə etdiyimiz mövqe bu Konvensiyada tam öz əksini tapmışdır. Bu sənədin imzalanması bir daha göstərir ki, Xəzər dənizi sülh, əməkdaşlıq, təhlükəsizlik dənizidir. Bu Konvensiyanın çox böyük əhəmiyyəti var. Hesab edirəm ki, bu sənədin imzalanması hər bir Xəzəryanı ölkənin böyük diplomatik və siyasi uğurudur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz bu ifadələr öz əksini tapıbdır. Danışıqların davam etdirilməsi prosesi başlanmışdır, baxmayaraq ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi. Hətta belə bir fikirlər səslənirdi ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Biz dərhal belə cəhdləri rədd etdik. Əlbəttə ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və öz fikirlərini bildiriblər. Nəticə etibarilə danışıqlar prosesi bərpa edildi. Xarici işlər nazirləri artıq bir neçə dəfə görüşmüşlər və danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Danışıqlar prosesi üçün yalnız bu format məqbuldur.

Bildiyiniz kimi, keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. İyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu da təbiidir və bu, kriminal rejimin məntiqi acı sonudur. Bu məsələdə əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni, əhalinin azalması prosesi geniş vüsət alıbdır. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı.

Biz dəfələrlə demişdik ki, Ermənistanda iyirmi il ərzində kriminal, qaniçən xunta rejimi hökm sürür. Ancaq əfsuslar olsun ki, bəzi beynəlxalq təşkilatlar buna göz yumurlar. İndi sual olunur, necə ola bilər ki, son illərdə Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə beynəlxalq təşkilatlar müsbət rəy verirlər. Axı, son parlament seçkiləri göstərdi ki, hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş dəstə 5 faiz də səs yığa bilməyib. Bunu hər kəs etiraf edir. Ancaq əvvəlki illərdə özlərinə 50 faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qınaq obyektinə çevrilməmişdir?! Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermə-

nistanda bütün seçkilər saxtalaşdırılıb? Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir? Çox yaxşı bilirdilər, amma göz yumurdular. Nəyə görə? İkili standartlara görə. Nəyə görə? Çox güman ki, burada hansısa təmənna ilə bağlı başqa məsələlər olub. Heç kimə sirr deyil ki, Ermənistan beynəlxalq arenada konyak diplomatiyasını işə salıb və bir çox siyasətçiləri satın alıb. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amili birinci yerdə idi.

Ona görə mən hesab edirəm ki, bu məsələ müvafiq beynəlxalq orqanlar tərəfindən çox ciddi araşdırılmalıdır və kriminal rejimə iyirmi il ərzində dəstək verən, onun cinayətlərinə göz yuman, onun əlindən orden, medal alan dırnaqarası siyasətçilər məsuliyyətə cəlb olunmalıdırlar. Bizim tələbimiz bundan ibarətdir. Əgər bu, olmasa, demək heç nə dəyişilmir. Əgər bu, olmasa, onda bu gün bəzi beynəlxalq təşkilatlar tərəfindən səslənən ədalət, insan haqları haqqında cəfəng bəyanatlar elə cəfəng bəyanatlar kimi qalacaq. Sarkisyan rejiminə, onun əməllərinə dəstək verən, göz yuman beynəlxalq təşkilatlar əgər öz günahını yumaq istəyirlərsə, qoy, etiraf etsinlər ki, onlar iyirmi il ərzində cinayətkarlarla əlbir olublar və beləliklə, bu cinayətlərdə onların da əli, onların da payı var.

Mən dəfələrlə demişəm ki, Ermənistanı kriminal rejim idarə edir. İndi bunu erməni xalqı deyir. Onların keçmiş rəhbərləri cinayətkardır, bu, sübut olunub. Onların qəhrəmanları qorxaqdır, onların generalları oğrudur. Bax, budur, Ermənistanın indiki vəziyyəti. Müstəqilliyi cəmi 27 ilə bərabər olan bir ölkəni əgər 20 il ərzində cinayətkarlar idarə ediblərsə, onda bu ölkə haqqında təsəvvür yaratmaq o qədər də çətin deyil.

Mən dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var – Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Eyni zamanda, biz keçən il əlbəttə ki, hərbi potensialımıza böyük diqqət göstərmişik və bu sahədə böyük nailiyyətlər var. Bizim ordumuzun döyüş qabiliyyəti artır və Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut edib. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik. Bu, çox uğurlu əməliyyat idi. Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır. Yəni, bu hadisə – Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək. Sadəcə, danışıqlara ümid olduğu üçün biz danışıqlar yolunu hələ ki, əsas vasitə kimi görürük. Ancaq, eyni zamanda, hərbi gücümüzü də artırırıq. Döyüş qabiliyyətimizlə bağlı keçən il aparılan işlər əlbəttə ki, çox yüksək qiymətə layiqdir. Uğurlu Naxçıvan əməliyyatında fərqlənən hərbçilərə dövlət tərəfindən müvafiq mükafatlar verilmişdir.

Biz keçən il ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı çox böyük işlər gördük. İki dəfə keçirilən hərbi paradda biz texnikamızın bir hissəsini nümayiş etdirdik. Mən onların arasında əlbəttə ki, xüsusilə uzaqmənzilli “Polonez” və “LORA” raket sistemlərini qeyd etmək istərdim. Qarşı tərəfin bu sistemlərə qarşı heç bir müdafiə imkanı yoxdur. Bu sistemlər 300 kilometr və ondan çox məsafəni qət edərək çox yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvə ilə istənilən hərbi hədəfi məhv edə bilər. Mən bir daha demək istəyirəm, düşmənin elə bir hərbi hədəfi yoxdur ki, biz onu dəqiqliklə məhv edə bilməyək.

Bu sistemlərin əldə edilməsi əlbəttə ki, bizim hərbi gücümüzü daha da artırır. Eyni zamanda, keçən il yeni pilotsuz döyüş uçuş aparatlarının əldə edilməsi bizim hərbi gücümüzü daha da artırır. Əlbəttə ki, son illər ərzində hava hücumuna, raket hücumuna qarşı aldığımız sistemlər müdafiə potensialımızı gücləndirir və digər sistemlər bizim hücum gücümüzü artırır. Bunu hər kəs bilir. Hərbi sahədə baş verən hadisələr heç kim üçün sirr deyil. Qarşı tərəf də – düşmən də bilir və bilməlidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və bu il bu istiqamətdə əlavə addımlar atılacaqdır.

Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb. Keçən il 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilibdir. Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Bu il daha da çox mənzil veriləcək, o cümlədən məcburi köçkünlər üçün yeni şəhərciklər tikiləcək. Yəni, bu məsələ daim diqqət mərkəzindədir. Biz hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin problemlərinin həlli üçün bu il də böyük vəsait nəzərdə tutmuşuq. Biz bu məsələləri həll edəcəyik.

Əlbəttə, bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və biz bunu yaradırıq. Bu gün

Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək. Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb. İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir. Deyə bilərəm ki, beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları Azərbaycanda gedən prosesləri çox böyük maraqla izləyirlər və bizim işimizə çox yüksək qiymət verirlər. Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir.

Bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir. Mən bəzi göstəriciləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Ümumi daxili məhsul, yəni, iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olmuşdur. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Əlbəttə ki, bizim arzularımızı tam əks etdirmir. Ancaq, eyni zamanda, dünyada gedən proseslərə baxdıqda hesab edirəm ki, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. Bu, onu göstərir ki, sənayeləşmə siyasətimiz öz gözəl nəticələrini verir.

İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıb. Görürsünüz ki, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Əgər biz 2017-ci ilə nəzər salsaq görərik ki, inflyasiya 12 faizdən çox idi, indi isə 2,3 faizdir. Manatın məzənnəsi sabitdir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Hesab edirəm ki, bu da yaxşı göstəricidir. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni, bu, onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaqdır.

Biz keçən il valyuta ehtiyatlarımızı artırmışıq. Baxmayaraq ki, xərclərimiz də az olmayıb, eyni zamanda, biz valyuta ehtiyatlarımızı 3 milyard dollar məbləğində artıra bildik. Beləliklə, bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Xarici borc 22,8 faizdən 19 faizə düşüb və bu da çox müsbət haldır. Yəni, indi Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Qarşıya vəzifə qoyulub ki, biz bu borcu yaxın illərdə daha da azaldaq. Bu məsələ ilə bağlı indi müvafiq proqram hazırlanıb. Mən hesab edirəm ki, biz borcu tədricən azalda-azalda getməliyik. Düzdür, 19 faiz də indi dünya miqyasında çox gözəl göstəricidir. Elə ölkələr var ki, xüsusilə inkişaf etmiş ölkələr orada xarici borc ümumi daxili məhsulun 100-120 faizini təşkil edir. Əgər hansısa ölkədə 50 faiz təşkil edirsə, o ölkə sabit, iqtisadi cəhətdən sabit ölkə kimi tanına bilər. Bizdə isə 19 faizdir, mən hələ bunu çox görürəm. Hesab edirəm ki, bu, daha da düşməlidir və düşəcəkdir. Əlbəttə, əgər xarici borcumuzu valyuta ehtiyatlarımızla müqayisə etsək görərik ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, istənilən vaxtda biz xarici borcu tam ödəyə bilərik. Bu, bizim siyasətimizi əks etdirir, onu göstərir ki, biz baxmayaraq ki, bir çox kreditlər ala bilirik, ancaq mən göstəriş vermişəm, kreditlərin alınması məhdudlaşdırılsın, buna indi ehtiyac yoxdur. Biz ancaq texnoloji tutumlu layihələrə bəzi hallarda, istisna hal kimi müəyyən məbləğdə kredit ala bilərik. Çünki buna ehtiyac yoxdur, öz pulumuz da var və valyuta ehtiyatlarımız da artır.

Keçən il 118 min daimi iş yeri yaradılmışdır. İşsizliyin aşağı səviyyədə saxlanması üçün bu, çox əhəmiyyətli məsələdir. İxracla bağlı yaxşı göstəricilər var. İxrac 36 faiz artıb. Ümumi rəqəmi götürsək, ixracımız 19 milyard dollara çatıb. Xarici ticarət balansında müsbət saldo – yəni, ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir. Əgər ölkələrə biz nəzər salsaq görərik ki, bu da dünya miqyasında nadir hallarda müşahidə olunan mənzərədir. Ölkələrin əksəriyyətində idxal ixracı üstələyir. Azərbaycanda isə biz bunun əksini görürük. Özü də biz ölkəyə ixracla bağlı daha çox – 8,6 milyard dollar pul gətirmişik, nəinki xərcləmişik. Əgər biz buraya xarici turistlərdən gələn vəsaiti əlavə etsək, onda görərik ki, rəqəm daha da artacaq. Onu da bildirməliyəm ki, keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib. Bu, 6 faiz artım deməkdir. Aparılan hesablamalara görə, bu xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər. Turizmin inkişafı ilə bağlı apardığımız siyasət, görürsünüz ki, ilk

növbədə, maliyyə sahəsində özünü büruzə verir. Həm ölkəmizi tanıtdırırıq, həm də pul qazanırıq.

Beləliklə, iqtisadi göstəricilərimiz elədir ki, dünyanın istənilən ölkəsi bu göstəriciləri böyük qəhrəmanlıq kimi qəbul edə bilər, bizim üçün isə bu, adi haldır. Çünki bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir. Ümumiyyətlə, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir. Bu dəstək keçən il prezident seçkilərində bir daha özünü göstərdi. Azərbaycan xalqı mənə bir daha çox böyük etimad göstərmişdir. Bildiyiniz kimi, seçkilər ərəfəsində keçirilmiş rəy sorğuları, seçkilər günü keçirilmiş exit-pollar rəsmi nəticələrlə tam üst-üstə düşüb. Bu, bir daha onu göstərir ki, seçkilərin nəticələrində Azərbaycan xalqının iradəsi tam öz əksini tapıb. Bu, görülən işlərə verilən yüksək qiymətdir. Görülən işlər isə göz qabağındadır.

Keçən ilin önəmli hadisələrini sadalamaq üçün bir neçə saat vaxt lazımdır. Mən bir neçə önəmli hadisəni qeyd etmək istərdim. Biz keçən il üçüncü peyki orbitə buraxdıq və Azərbaycan kosmik dövlət kimi öz mövqelərini daha da möhkəmləndirdi. Keçən il Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, sözün əsl mənasında, tarixi hadisədir. Çünki bu hadisə bundan sonra onilliklər ərzində Azərbaycana böyük xeyir, həm siyasi, həm də iqtisadi və maliyyə mənfəəti gətirəcək. Keçən il Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP layihəsi də işə düşdü və artıq fəaliyyətdədir. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü reallaşdı. Bu, bizim böyük uğurumuzdur, tarixi uğurumuzdur. Ölkəmizi nəqliyyat mərkəzinə çevirmək üçün keçən il çox önəmli hadisə baş vermişdir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı öz işinə başlamışdır. Beləliklə, Azərbaycan tranzit ölkə kimi artıq özünü dünyada təsdiqlədi.

Bir daha demək istəyirəm, keçən il bir çox hadisələr olub ki, onların haqqında danışmaq olar. Ancaq hesab edirəm ki, mən Azərbaycan xalqını keçən il görülmüş əsas işlər haqqında müəyyən dərəcədə yığcam formada məlumatlandırıram. Nazirlər Kabinetinin toplantıları, əlbəttə, o cümlədən xalqa verilən hesabatdır. Mən müxtəlif tədbirlərdə, müxtəlif görüşlərdə xalqa müntəzəm olaraq hesabatlar verirəm. Eyni zamanda, görülmüş işlər haqqında hesabatın bu formatda da verilməsi hesab edirəm ki, düzgün addımdır.

Bu gün biz bu il görüləcək işlər haqqında danışacağıq. Müvafiq tapşırıqlar veriləcək ki, 2019-cu il də ölkəmiz üçün uğurlu il olsun.

***

Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxış etdilər.

***

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi

– Mən əminəm ki, biz 2019-cu ildə də qarşımıza qoyduğumuz bütün vəzifələri icra edəcəyik. Bu il də ölkəmiz üçün uğurlu il olacaqdır. Mən giriş sözümdə qeyd etdim ki, keçən il dərin islahatlar ili olmuşdur. Bu islahatlar cəmi il ərzində özünü göstərdi, əlbəttə ki, gələcək illərdə özünü daha böyük həcmdə göstərəcək. Xüsusilə vergi və gömrük sahələrində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Bu sahələrdə sağlamlaşdırma prosesi gözəl nəticələr verir. Bizim maliyyə imkanlarımız genişlənir. Görülmüş işlər, yəni, artıq apardığımız islahatlar bu il də özünü böyük dərəcədə göstərəcək.

Burada qeyd olundu ki, gömrük sahəsində aparılan islahatlar nəticəsində biz büdcəmizi böyük dərəcədə artıra bilmişik. Hətta keçən il dürüstləşmə apararaq büdcəmizi artırmışıq ki, əlavə işləri görə bilək. Həm sosial sahəyə, həm də infrastruktur layihələrinin icrası ilə bağlı əlavə vəsait ayrıldı. Bütün bunlar nəyə görə mümkün olmuşdur? Ona görə ki, həm vergi, həm də gömrük sahələrində artıq yeni yanaşma mövcuddur. Yeni icraçılar vəzifəyə gətirildi, rəhbərlikdə dəyişikliklər edildi və hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyan bu qurumlar indi çox yaxşı işləyir, şəffaflıq, dürüstlük təmin edilir. Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır və aparılacaqdır. Bu işlərdə əli olan adamlar məsuliyyətə cəlb olunur, vəzifədən kənarlaşdırılır. Yəni, tam sağlamlaşdırma prosesi gedir və artıq keçən ilin timsalında biz gözəl nəticələri görə bilmişik.

Vergi sahəsində də çox dərin islahatlar aparılıb. Hesab edirəm ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Çünki əvvəlki rəhbərlik tərəfindən buraxılmış kobud səhvlər ona gətirib çıxarmışdı ki, gələn illərin vergiləri yığılırdı, beləliklə, bir piramida yaradılırdı, sahibkarlar



incidilirdi, onlara qarşı əsassız tələblər irəli sürülürdü. Vergi sahəsində özbaşınalıq hökm sürürdü, bir çox xoşagəlməz əməllər müşahidə olunurdu. Bütün bunlara son qoyulmalı idi və son qoyuldu. Keçən ilin təcrübəsi onu göstərir ki, həm vergi, həm gömrük sahəsində yeni rəhbərlik mənim göstərişlərimi yaxşı yerinə yetirir. Biz bu sahələrdə aparılan islahatların nəticələrini bundan sonrakı illərdə də görəcəyik. Bu sahələrdə tam şəffaflıq və dürüstlük olmalıdır. Bu sahələrdə işləyən insanlara da xəbərdarlıq edildi ki, əvvəlki qayda ilə işləmək mümkün olmayacaq və onlar özləri də bu nəticəni çıxarsınlar. Kim ki nəticə çıxarmır, onlara qarşı tədbirlər görülür, o cümlədən bir çox adamlar cinayət məsuliyyətinə də cəlb olunurlar.

Mən tam əminəm ki, aparılan islahatlar nəticəsində həm bizim gəlirlərimiz artacaq, – artıq artıb, gömrük 1 milyard manat əlavə vəsait toplayıb, – eyni zamanda, biz kölgə iqtisadiyyatına böyük zərbə vurmuş olarıq. Bu, böyük bəladır və biz bu bəla ilə bağlı çox ciddi mübarizə aparırıq. Azərbaycanda kölgə iqtisadiyyatı olmamalıdır. Düzdür, elə bir ölkə yoxdur ki, orada kölgə iqtisadiyyatı olmasın. Biz kölgə iqtisadiyyatına qarşı həm inzibati, həm də institusional yollarla, o cümlədən islahat yolu ilə mübarizə aparırıq və aparacağıq. Vergi sahəsində aparılan islahatlar qanunsuz məşğulluğa son qoymalıdır. Hesab edirəm ki, icbari tibbi sığortanın tam işə düşməsi nəticəsində qanunsuz məşğulluq bir amil kimi, ümumiyyətlə, aradan qaldırılacaq. Kölgə iqtisadiyyatına qarşı mübarizə metodları kifayət qədər çoxşaxəlidir. Biz onların hamısından istifadə edirik və edəcəyik. Hər kəs başa düşməlidir ki, Azərbaycanda bütün işlər qanun çərçivəsində aparılmalıdır. Heç bir qanunsuzluğa yol verilməyəcək və hər kəs nəticə çıxarsın. Ona görə bu il də islahatların dərinləşməsi istiqamətində çox ciddi addımlar atılacaq. Bu, təkcə vergi və gömrük sahələrinə aid deyil. Eyni zamanda, sosial sahədə çox ciddi islahatlar aparılır. Bu gün onların bir hissəsi səsləndirildi. Bu sahədə də vaxtilə çox böyük pozuntular, ədalətsizliklər olub. Bütün bunlar indi aradan qaldırılır və bu sistem də vətəndaşlara tam ədalətli xidmət edəcək.

Bu il infrastrukturla bağlı bir çox önəmli layihələr icra ediləcək. Biz son illər ərzində infrastrukturun yaradılması ilə çox ciddi məşğul olmuşuq. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə qabaqcıl yerlərdədir, 30-cu yerdədir. Ancaq hələ ki, görüləsi işlər var və bu istiqamətdə işlər aparılacaq. Bu il "Şimal-2" yeni böyük elektrik stansiyasının istifadəyə verilməsi gözlənilir. Bu stansiya 400 meqavat enerji istehsal edəcək. İndi biz özümüzü elektrik enerjisi ilə tam təmin edirik, hətta böyük həcmdə ixrac da edirik. Ancaq biz yeni güclər yaratmalıyıq. Çünki tələbat artır, sənaye artır, əhali artır və ixrac imkanlarımız genişlənir.

Ona görə 400 meqavat gücündə "Şimal-2" elektrik stansiyasının işə salınması mühüm hadisə olacaqdır. Bununla bərabər, keçən ilin ikinci yarısından başlayaraq – o qəza baş verəndən sonra bizim enerji sistemimiz çox ciddi təftiş olunur. Bu sahədə də çox böyük pozuntular aşkarlanıb. Məhz bu pozuntular nəticəsində biz yay mövsümündə gözlənilməz bir qəza ilə üzləşmişdik. Ona görə bütün çatışmazlıqlar operativ qaydada aradan qaldırılır və eyni zamanda, mövcud enerji bloklarımızın reabilitasiyası, yenidən qurulması prosesinə start verilib. Bu məqsədlər üçün keçən il vəsait ayrılıb. Ancaq mövcud enerji qurğularımızı təmir edərək, onlara düzgün xidmət göstərərək biz yeni stansiyalar tikmədən enerji istehsalını ən azı 500 meqavat artıra bilərik. Bu, çox böyük rəqəmdir. Gücü 400 meqavat olan "Şimal-2" stansiyasının işə salınması ilə biz bu il 1000 meqavata yaxın yeni generasiya gücünə malik ola bilərik. Bu, əlbəttə ki, ixrac imkanlarımızı böyük dərəcədə artıracaq. Çünki keçən il biz elektrik enerjisinin ixracından 10 milyonlarla dollar pul əldə etmişik, bu vəsait xəzinəyə daxil olubdur.

Keçənilki qəzadan sonra aydın oldu ki, bizim strateji obyektlərimiz bu fövqəladə vəziyyətə hazır deyil və bu, böyük təəssüf hissi yaradır. Əlbəttə ki, bu strateji obyektlərə rəhbərlik edən şəxslər də tənbeh olundu. İndi isə görülən və görüləcək işlər nəticəsində bütün strateji obyektlərdə müasir generator sistemi quraşdırılacaq, bu məqsədlər üçün vəsait ayrıldı. İlk növbədə, metro stansiyalarında generatorlar quraşdırılacaq. Artıq kontraktlar da imzalandı və bu il biz bunu tam şəkildə təmin edəcəyik. Bu, bizə imkan verəcək ki, əgər hər hansı bir qəza olarsa, metro tunelində heç bir qatar qalmasın. Yəni, bu generatorlar imkan verəcək ki, qatarlar stansiyaya qədər gəlsin və vətəndaşlar stansiyaya həm rahat düşə bilsinlər, həm də eskalatorlarla qalxa bilsinlər. Metroda quraşdırılan generatorların əsas funksiyası bundan ibarətdir. Bizim bütün strateji səhiyyə obyektlərində də təftiş aparıldı və bütün obyektlərdə bu sahədə tam təminat təşkil ediləcəkdir.

Söz verdiyimiz kimi, keçən il Azərbaycanda qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb və hesab edirəm ki, bu, ən yüksək göstəricidir. Dünyada nadir ölkələr tapılar ki, bu dərəcədə qazlaşdırma aparılsın. Hesab edirəm ki, bu proses bu il də davam etdirilməlidir. Hələ ki, bir çox kəndlərdə qaz yoxdur və o kəndlərin qazlaşdırılması gündəlikdə duran məsələdir.

İçməli su ilə bağlı aparılan işlər nəticəsində 38 şəhərin su məsələsi tam şəkildə öz həllini tapıb. Hazırda 12 şəhərdə işlər gedir və yaxın gələcəkdə o şəhərlərin də içməli su ilə tam təminatı təşkil ediləcəkdir. Bu il beş şəhərdə işlər başa çatacaq. Bu sahədə görülən işlər daim diqqət mərkəzindədir. İçməli su layihələrinin icrası insanların sağlamlığına verilən böyük töhfədir.

Keçən il 2 min kilometr avtomobil yolu salınmışdır. Bu, rekord göstəricidir. Ümumilikdə isə 2004-cü ildən bu günə qədər 15 min kilometr avtomobil yolu salınıb. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarında yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Biz inkişaf etmiş bir çox ölkələri də qabaqlayırıq və bu proses davam etdiriləcək. Keçən il 920 kəndin yol infrastrukturu yaxşılaşıb, yeni yollar salınıb. Bu yaşayış məntəqələrində 2,2 milyon insan yaşayır. Yəni, 2,2 milyon insanın yol problemi həll olunub. Bildiyiniz kimi, bu, eyni zamanda, iqtisadi amildir. Çünki yol olan yerdə kənd təsərrüfatının inkişafı da sürətlənir, yol olan yerdə sosial məsələlər də öz həllini tapır, o cümlədən xəstəxanalara insanlar daha da tez çata bilirlər. Yəni, bunun çox böyük əhəmiyyəti var. Bu il investisiya proqramında yol tikintisi üçün kifayət qədər vəsait nəzərdə tutulub. Bu il ən azı, hələlik ən azı 1000 kilometr yeni yol salınacaqdır. Onların arasında əlbəttə ki, yüzlərlə kənd yolları var, eyni zamanda, magistral yolların tikintisinin davam etdirilməsi layihələri var, o cümlədən Astara-İran sərhədi yolu. Çünki biz Bakıdan Astaraya qədər yeni yol salmışıq. Çox gözəl yoldur və məsafəni də təqribən 40 kilometr qısaldır. Eyni zamanda, bu magistral yol şəhərlərə girmədən gedir və hər bir şəhərə ayrıca giriş nəzərdə tutulubdur. Ancaq Astara şəhərindən İran sərhədinə qədər yol yoxdur, yol şəhərin içindən keçir. Ona görə biz bu layihəni də icra edəcəyik. Plana görə, bu ilin sonunadək Astaradan İran sərhədinə qədər yeni dördzolaqlı yol çəkiləcək və beləliklə, yük maşınları Astara şəhərinə girmədən, vətəndaşları narahat etmədən sərhədə qədər gedə biləcək.

Biz bu il yeni Sumqayıt-Rusiya sərhədi yolunun tikintisi üçün də böyük vəsait nəzərdə tutmuşuq. Bu, sahil boyu ilə Rusiya sərhədinə gedən tamamilə yeni bir yoldur. Beləliklə, həm Rusiya sərhədinə gedən ikinci yolumuz olacaq, eyni zamanda, çox keyfiyyətli yol olacaq. Bununla yanaşı, bu günə qədər boş qalan torpaqlarda canlanma olacaqdır. Çünki bu ərazilər istifadəsiz qalmışdı. İndi o ərazilərdə

kənd təsərrüfatının inkişafı üçün müxtəlif layihələr icra edilir. O cümlədən Taxtakörpü su anbarı və Ceyranbatana qədər gələn kanal da əlbəttə ki, o torpaqlara suyun verilməsini təmin edir. Sumqayıt-Rusiya sərhədi yolunun böyük hissəsi bu il icra edilməlidir. Natamam qalmış Bakı-Gürcüstan sərhədi yolu. Gəncə şəhərinə qədər dördzolaqlı yol salınıb və Gəncədən Gürcüstan sərhədinə qədər ikizolaqlı yolu biz dörd zolağa genişləndirməliyik. Bu məqsədlər üçün də vəsait nəzərdə tutulub. Şəhərlərarası, şəhərlərdaxili və kənd yolları tikiləcək.

Keçən il biz meliorativ tədbirlər görməklə 100 min hektar torpağa su verilməsini təmin etdik. Onlardan 60 min hektara su verilirdi, ancaq çox zəif verilirdi. Yəni, keçən il o torpaqlara suyun verilməsi yaxşılaşdırıldı, 40 min hektara isə heç vaxt su verilmirdi, bu da əkin dövriyyəsinə cəlb edilmiş suvarılan yeni torpaqlar olacaqdır. Yəni, həm 2017-ci ildə 100 min hektara, həm də keçən il 100 min hektara suyun verilməsi kənd təsərrüfatına çox böyük dəstəkdir. Bu il artıq verilən təkliflərə görə ən azı 80 min hektara suyun verilməsi nəzərdə tutulur. Bundan əlavə, 300 subartezian quyusu qazılacaq. Biz onu hər il edirik, keçən il də, əvvəlki illərdə də. Üç yüz subartezian quyusunun qazılması kəndlərdə həm içməli suya olan tələbatı ödəyir, həm də ki, kənd təsərrüfatına xidmət göstərir.

Bu il sosial infrastrukturla bağlı işlər görüləcək. Mən giriş sözümdə qeyd etdiyim kimi, məcburi köçkünlərin məişət problemlərinin həlli təmin ediləcəkdir. Bu il 5800 ailəyə yeni mənzillər verildi. Onu da qeyd etməliyəm ki, bu mənzillərdən 1000-i "Qobu Park" yaşayış kompleksində özəl şirkət tərəfindən inşa edilmiş və köçkünlərə təmənnasız verilmişdir. Bu, çox müsbət təşəbbüsdür, mən bunu çox alqışlayıram. Bizim böyük biznes qurumlarımız sosial sahələrdə də fəal olmalıdırlar. Elə birinci təcrübə çox təqdirəlayiqdir. Bildiyimə görə, bu proses bu il də davam etdiriləcək. İlkin hesablamalara görə, bu il təqribən 5000 köçkün ailəsi üçün yeni mənzillər tikilib istifadəyə veriləcək. Hələlik biz bu rəqəm üzərində dayanırıq, amma il ərzində baxarıq, əgər imkan olarsa, bunu daha da artıra bilərik. Nə qədər çox etsək, bir o qədər də yaxşıdır. Ancaq hamımız bilməliyik ki, bu, böyük vəsait tələb edən layihələrdir və biz bu məsələləri imkan daxilində həll edirik. Bu günə qədər 300 min məcburi köçkün yeni evlərlə təmin edilibdir.

Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə evlərin verilməsi prosesi davam etdiriləcək. Əgər keçən il 626 mənzil verilibsə, bu il ən azı 800 mənzil veriləcək. Hesab edirəm ki, bu, çox düzgün addımdır. Çünki bu ailələr buna layiqdirlər. Biz həmişə onların problemlərini diqqət mərkəzində saxlayırıq. Altı mindən çox ailə artıq dövlət tərəfindən evlərlə təmin edilib. Mən bilmirəm və eşitməmişəm ki, hansısa başqa ölkədə belə təcrübə var. Ancaq bizim üçün əsas o deyil, əsas odur və biz hesab edirik ki, bu, düzgündür. Bu vətəndaşlara mənzil hədiyyə etmək hesab edirəm ki, bizim borcumuzdur. Biz bunu edirik və edəcəyik. Bu proses davam edəcək. Bütün şəhid ailələrinin nümayəndələri evlərlə təmin olunacaqlar.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar,- mənim Sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Artıq vəsaitin verilməsi prosesi başlanmışdır. Bu günə qədər siyahıda 10 minə yaxın vərəsə var. Onların hamısına 11 min manat veriləcəkdir. Eyni zamanda, siyahılara baxılır, dəqiqləşdirilir və bu məsələ ilə bağlı təkliflər də irəli sürülür. Mən artıq bu barədə sözümü demişəm. Burada əlbəttə ki, sosial ədalət prinsipi əsas olmalıdır. Qanun və ədalət. Əminəm ki, biz bu istiqamətdə də istədiyimizə nail olacağıq. Yəni, bu təşəbbüs, bu addım bir məqsədi güdürdü ki, vaxtilə o vəsaiti almayan ailələr o vəsaiti alsınlar. Bunu da biz təmin edirik. Yenə də demək istəyirəm ki, siyahılar dəqiqləşdirilir və bu məsələ ilə bağlı bundan sonra da açıqlamalar veriləcəkdir.

Keçən il 140-dan çox məktəb tikilib. Bu il 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur. Qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsi hesab edirəm ki, maksimum iki il çəkə bilər. Bu il və gələn il biz bu proqramı başa çatdırmalıyıq.

Bu il mərkəzi rayon xəstəxanalarının tikintisi davam etdiriləcək. Bu il 10-a yaxın mərkəzi rayon xəstəxanasının açılışı gözlənilir. Keçən il də bir çox yerlərdə xəstəxanalar açılmışdır. Bu il üç Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. Beş "ASAN xidmət" mərkəzi açılmalıdır.

Onu da bildirməliyəm ki, keçən il 5 milyondan çox insan pulsuz olaraq tibbi müayinədən keçmişdir.

Özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il ən azı yeddi min ailə bu proqramdan faydalanacaq. Bu gün onların arasında əlbəttə ki, ünvanlı sosial yardım alanlar da var. Beləliklə, o kateqoriyadan olan insanlar dövlətin dəstəyi ilə artıq özləri pul qazanacaqlar, öz ailə büdcələrini quracaqlar. Özünüməşğulluq proqramının çox böyük sosial və iqtisadi faydası var.

Mən giriş sözümdə qeyd etdim ki, biz hərbi potensialımızın möhkəmləndirilməsi istiqamətində

çox böyük işlər görmüşük. Bu il də istisna olmayacaq. Artıq yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ölkəmizə müasir silahlar, texnikalar gətirilir. Yəni, bu məqsədlər üçün biz nə qədər lazımdırsa, o qədər də vəsait ayıracağıq. Bununla paralel olaraq, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması, məişət problemlərinin həlli istiqamətində işlər gedir. Keçən il 400-ə yaxın hərbçiyə mənzil verilmişdir. Artıq hərbi xidməti uğurla, qüsursuz başa vuran hərbçilərə bu il də mənzillərin verilməsi nəzərdə tutulur. Hərbçilərin məişət problemlərinin həlli də təmin edilir. Bizim hərbi hissələrimizin mütləq əksəriyyəti indi tam təmirlidir. Təmirsiz olan hissələrdə də təmir işləri nəzərdə tutulur.

Bu il sahibkarlığın inkişafı ilə bağlı əlavə addımlar atılacaq. Bildirməliyəm ki, əvvəlki illərdə sahibkarlara 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilmişdir, keçən il isə 160 milyon manat. Sevindirici haldır ki, verilən kreditlər əvvəlcə verilmiş və sonra qaytarılan kreditlər hesabına verilir. Yəni, büdcə bu məsələyə pul xərcləmir. Artıq bu vəsait akkumulyasiya olunub. Biz sahibkarlara hər il bu cür dəstək göstəririk və göstərəcəyik. Sahibkarlara daha böyük kömək göstərmək üçün indi bir çox ölkələrə ixrac missiyaları təşkil olunur. Biz kömək edirik, bu işlərə büdcədən vəsait ayırırıq. Biz sərgilərdə, xüsusilə ərzaq məhsullarının təbliği ilə bağlı sərgilərdə dövlət hesabına iştirak edirik. Sahibkarları oraya cəlb edirik ki, onlar öz məhsullarını xaricə daha rahat sata bilsinlər. Ticarət evləri yaradılır. Artıq Belarusda, Çində, Ukraynada, Latviyada, Polşada Azərbaycan Ticarət evləri açılıb. Bu da bizim təşəbbüsümüzdür. Onu da bildirməliyəm ki, bizim Ticarət evlərimizə çox böyük maraq var. Bu Ticarət evlərinin açılması nəticəsində həmin ölkələrə bizim ixracımız da artır. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Sənaye potensialımızın inkişafı ilə bağlı keçən ilin göstəriciləri çox müsbətdir. Sənayenin qeyri-neft sektorunda istehsal 9,1 faiz artıb. Bütün bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Sənaye zonalarının, sənaye məhəllələrinin, sənaye parklarının yaradılması geniş vüsət alıb. Nəinki Sumqayıtda, indi Gəncədə, Mingəçevirdə və digər şəhərlərdə də bu proses gedir. Bu günə qədər bizim sənaye parklarımızda 67 rezident var. Onlardan 40 rezident artıq fəaliyyətdədir. Sənaye parklarında həyata keçirilən layihələrə nəzərdə tutulan sərmayə 5 milyard manatdan çoxdur. Bu layihələr nəticəsində 11 min yeni iş yeri yaradılıb. Bu proses davam etdiriləcək. Bu il də sənaye zonalarının yaradılması nəzərdə tutulur.

İnvestisiya təşviqi mexanizminin işə düşməsi də çox ciddi islahat idi. Bu proqram 333 layihəni əhatə edir. Onlardan 107-si 2018-ci ildə icra edilib. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. Bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılıb. İndi baxın, əgər biz bu mexanizmə keçməsəydik, bunu tətbiq etməsəydik, ölkə iqtisadiyyatına 2,8 milyard manat qoyulmayacaqdı.

Bu, islahatların nə qədər vacib olduğunu bir daha göstərir. Bəzi hallarda artıq o sözə sadəcə öyrəşirlər. Amma islahat çox böyük məna daşıyır. İslahat nəticəsində dünya inkişaf edir, ölkələr inkişaf edir, yeni imkanlar yaranır. Ona görə islahat məqsədyönlü olmalıdır. Biz elə islahatlar aparırıq ki, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna, vətəndaşların rifahına, onların rahat yaşamasına xidmət edir, o cümlədən bax, bu sahibkarlıqla bağlı aparılan islahatlar. Görün, nəticələr nə qədər təsirlidir.

Biz bir neçə il bundan əvvəl ənənəvi sahəmiz olan xalçaçılığı sürətlə inkişaf etdirməyə başlamışıq və nəticələr də var. İyirmi xalça fabriki tikilərək istifadəyə verilib. Bu il 11 xalça fabrikinin istifadəyə verilməsi nəzərdə tutulur. Bu fabriklər tam gücü ilə fəaliyyətə başlayandan sonra 5 minə yaxın insan, – onların mütləq əksəriyyəti qadınlardır, - işləyəcək. Həm iş yerləri, gözəl müəssisələr yaradılır, bizim tarixi milli sənətimiz yaşayır və yaşayacaqdır, gənclər cəlb olunur, həm də ki, xalçaçılığın böyük iqtisadi tərəfi də var. Bu, ixracyönümlü məhsuldur.

Qeyd etdiyim kimi, kənd təsərrüfatı sahəsində 4,6 faiz artım yaxşı göstəricidir. Ancaq bu sahədə də çox ciddi islahatlar aparılır. Kənd Təsərrüfatı Nazirliyinin yeni rəhbərliyi bir çox önəmli təşəbbüslər irəli sürüb. Mən onları bəyənmişəm, dəstəkləmişəm. İndi onların icrası başlanılır. Mən əminəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatı istehsalı böyük dərəcədə artacaq, o cümlədən ixrac artacaq, daxili tələbat daha çox yerli məhsullar hesabına təmin ediləcəkdir. Özümüzü təminetmə əmsalı artacaq, qeyd etdiyim kimi, ixrac imkanlarımız genişləndiriləcək, biz yeni bazarlara çıxış əldə edəcəyik.

Elektron kənd təsərrüfatı sisteminin tam işə düşməsi gündəlikdə duran vacib məsələlərdən biridir. Subsidiyalarla bağlı təkliflər imkan verəcək ki, bu sahədə də müsbətə doğru çox ciddi dönüş yaransın. Çünki subsidiyaların verilməsində də böyük pozuntular olmuşdur. Bəzi hallarda subsidi-

yalar ünvana çatmırdı, bəzi hallarda çox kortəbii şəkildə verilirdi. Dövlət tərəfindən güzəştli şərtlərlə alınması nəzərdə tutulan gübrələr də bir çox hallarda keyfiyyətsiz idi. İndi gübrə təminatında dövlət 70 faiz yükü öz üzərinə götürür. Amma bəzi hallarda keyfiyyətsiz, müddəti keçmiş gübrələr gətirilirdi və o, kənd təsərrüfatına xeyirdən çox ziyan verirdi. Digər pozuntular da olub. Ona görə bütün pozuntular aradan qaldırılmalıdır. Kənddə işləyən vətəndaş daim hiss etməlidir ki, dövlət hər zaman onun yanındadır.

Biz kənd təsərrüfatını stimullaşdırmaq üçün çox böyük işlər görmüşük. Texnikanın alınması. Təkcə keçən il 5800 texnika alınıb. Əvvəlki illərdə bəzən 9 min, 8 min texnika alınıb. Biz texnika parkımızı böyük dərəcədə təzələmişik. Ən qabaqcıl şirkətlərin texnikası alınır, istər taxılçılıqda, istər pambıqçılıqda və digər sahələrdə. Ona görə biz bu sahədə işlərimizi davam etdirəcəyik. Biz kəndliləri torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad etmişik. Mən bilmirəm bu qədər dəstək göstərən ikinci belə ölkə varmı? Gübrə 70 faiz, yanacaq 50 faiz dövlətin hesabına, texnika dövlət tərəfindən alınaraq güzəştli şərtlərlə verilir, subsidiyalar, infrastruktur layihələri. İndi 100 min hektar torpağın dövriyyəyə cəlb olunması, suvarma suyu ilə təmin edilməsi, yolların çəkilməsi – bütün bunlar güzəştli kreditlər hesabınadır. Sahibkarlığın inkişafına yönələn kreditlərin əksəriyyəti kənd təsərrüfatına gedir. Amma biz daha böyük nəticələr gözləyirik. Yəni, verilən dövlət dəstəyi real nəticələrdə öz əksini tapmır. O dəstək müqabilində daha da böyük istehsal, daha da inkişaf etmiş kənd təsərrüfatı olmalı idi.

Bilirsiniz, mən əldə edilmiş uğurlar haqqında həmişə danışmağa hazıram və fəxr ediləsi məsələlər kifayət qədər çoxdur. Ancaq mən həmişə, necə deyərlər, narazı oluram. Çünki mən istəyirəm ki, daha yaxşı olsun. İstəyirəm ki, bu pozuntular olmasın. Harada ki mümkündür, biz maksimum dərəcədə öz imkanlarımızdan istifadə edək ki, işlər daha da yaxşı getsin. Ona görə kadr islahatı da bu məqsədi daşıyır. İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır – daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib. İndi dünyada əks proses gedir - idarəetmə daha yığcam, çevik, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər.

Kənd təsərrüfatı çox ciddi, çox böyük sahədir. Əhalinin demək olar ki, yarısı kəndlərdə yaşayır. Ona görə bu sahə daim diqqət mərkəzindədir. İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr var. Proqrama görə, bizdə, ümumiyyətlə 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır. Ümumiyyətlə isə bütün aqroparkların əhatə etdiyi sahə təqribən 200 min hektara yaxın olacaqdır. İndi 31 aqroparkın yaradılmasına 2,2 milyard manat vəsait nəzərdə tutulur. Onların istehsal edəcəyi məhsullar, indi təxmini hesablamalar göstərir ki, təqribən 800 milyon-1 milyard manata yaxın olacaqdır.

Turizm sahəsində gözəl nəticələr var. Qeyd etdiyim kimi, keçən il də 6 faiz artım olub və ölkəmizə 2 milyon 850 min xarici qonaq gəlib. Bizdə turizm sənayesi yaradılmalıdır. Azərbaycanda olan bütün amillər turizmin sürətli inkişafını şərtləndirir. Təhlükəsizlik, qonaqpərvərlik, tarixi abidələrimiz, gözəl iqlimimiz, 9 iqlim tipi, dəniz turizmi, dağxizək turizmi, müalicəvi turizm bizdə çox sürətlə inkişaf edə bilər. Gözəl mətbəx, müasir infrastruktur, otellər, yollar, nəqliyyat infrastrukturu, 6 beynəlxalq aeroport. Bütün bu amillər turizmin sürətli inkişafını təmin etməlidir. Bu sahədə də islahatlar aparılıb, o cümlədən struktur islahatları, Turizm Agentliyi yaradılıbdır. Görülmüş işlərlə bağlı mənə bu yaxınlarda məruzə edildi. Mən görüləcək işlərlə bağlı öz tövsiyələrimi verdim ki, biz ümumilikdə turizm sənayesini necə yaradacağıq və müxtəlif fərdi layihələr icra edilməlidir və edilir.

Bizim tarixi yerlərimizin yenidən qurulması, bərpası istiqamətində çox böyük işlər görülür. Deyə bilərəm ki, bu il böyük turist kütləsini cəlb edən Yanardağ qoruğu yenidən fəaliyyətə başlayacaq. Çünki mən keçən il orada olarkən acınacaqlı mənzərədən dəhşətə gəldim. Mən Yanardağda sovet vaxtında olmuşam. O vaxtdan bu günə qədər heç nə dəyişilməyib – həmin o dağılmış binalar, eybəcər budkalar. Adam baxanda dəhşətə gəlir, bura Bakıdır, Azərbaycandır, yoxsa, haradır? Sözün düzü, mənim oraya yolum düşmürdü. Əlbəttə, mən orada olarkən dərhal göstəriş verdim ki, o tarixi yer yenidən qurulsun və bu il biz artıq buna nail olacağıq. Həm Azərbaycan vətəndaşları, həm də turistlər orada tam yeni bir mənzərə ilə üzləşəcəklər. Orada yeni

istirahət zonaları, ictimai zonalar, kafe yaradılacaq. Yəni, bu yer bizim inkişafımıza uyğun şəkildə yenidən qurulacaq.

Bizim tarixi kəndlərimiz var. Onlardan biri Lahıc kəndidir. Bildiyiniz kimi, Şamaxıdan Lahıca daha rahat, daha təhlükəsiz, Bakıdan gələndə daha qısa yeni yol çəkildi, qaz çəkildi, yeni məktəb tikildi. Yəni, bu, bizim çox qiymətli, tarixi yerimizdir və əlbəttə ki, həm turistləri cəlb edir, həm də Lahıcda olan özünəməxsus ab-hava Azərbaycan dövlətinin nə qədər qədim və zəngin dövlət olduğunu göstərir.

Mənim Sərəncamımla tarixi Basqal kəndini abadlaşdırmaq və turistləri cəlb etmək üçün çox böyük layihələrin icra olunması məqsədilə xüsusi proqram hazırlanır. Çünki Basqal da qədim tarixi kənddir, qədim yaşayış yeridir, yaşayış məskənidir. Həm Basqalda yaşayan vətəndaşlar üçün, həm də turistləri oraya cəlb etmək üçün çox gözəl şərait yaradılacaq. Digər tarixi şəhərlərlə bağlı göstərişlər verilib ki, bu şəhərlərin, xüsusilə turistləri daha çox cəlb edən şəhərlərin məsələləri öz həllini tapsın. Qusar rayonunda yerləşən “Şahdağ” xizək kurortunda yeni xizək zolaqları yaradılır, ümumiyyətlə, yeni yanaşma tətbiq olunur və əminəm ki, bu gözəl kurort turistləri daha çox cəlb edəcək.

Biz keçən il nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə etmişik. Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün bir çox ikitərəfli təmaslar olub, razılaşmalar əldə edilib. Mənim keçən il Türkmənistana dövlət səfərim çərçivəsində 21 sənəd imzalanmışdır. Onlardan 9-u məhz nəqliyyat sektoruna aiddir. Türkmənistanla əldə edilmiş razılaşma imkan verəcək ki, digər Orta Asiya ölkələri, Əfqanıstan öz yüklərini Türkmənistandan keçməklə Azərbaycan ərazisindən Şərq-Qərb dəhlizi ilə dünya bazarlarına çıxara bilsinlər. Ələt Dəniz Ticarət Limanında xüsusi şərait yaradırıq. Müvafiq orqanlar həm tarif siyasətini, həm də tranzit imkanlarını dövlətlərarası səviyyədə tənzimləyiblər. Yəni, bu, bizim üçün yeni böyük nəqliyyat imkanları yaradır. Onu da bildirməliyəm ki, nəinki Orta Asiya ölkələri ilə, eyni zamanda, Əfqanıstanla danışıqlar aparılıb və aparılacaq. Biz Əfqanıstanın “Lapis-Lazuli” layihəsini Bakı-Tbilisi-Qars layihəsi ilə birləşdiririk. Artıq Əfqanıstandan da birinci yüklər Türkmənistan ərazisindən Azərbaycana, ondan sonra da Qərb istiqamətinə getməyə başlamışdır. Ona görə bizim hədəfimiz odur ki, Orta Asiyanın yüklərinin böyük hissəsini biz bu istiqamətə cəlb edək. Artıq bu proses başlanmışdır. Təbii ki, Türkmənistan bu imkanlardan istifadə edir, Tacikistan yükləri bu marşrutla gəlir, Əfqanıstan bu yolla yükləri göndərməyə başlayıb. Biz yaxın gələcəkdə Özbəkistanla da danışıqlar aparacağıq. Təbii ki, Qazaxıstanla bizim bu sahədə ənənəvi əməkdaşlığımız var və Qırğızıstan tərəfinə də biz öz təkliflərimizi göndərmişik. Ona görə çox böyük bir inkişaf olacaqdır. Biz isə keçən il Ələt Dəniz Ticarət Limanını işə saldıq, dəmir yolu da hazırdır, ona görə bütün infrastruktur var.

Keçən il Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Biz Azərbaycanın daxilində dəmir yolunun yenidən qurulması prosesinə başlamışıq. Bu il Bakı-Yalama dəmir yolunun yenidən qurulması davam etdiriləcək. Bakı-Astara dəmir yolunun yenidən qurulması üçün bu ilin investisiya proqramında da vəsait nəzərdə tutulub. Bunlar Şimal-Cənub dəhlizi üçün çox önəmli layihələrdir. Düzdür, bu dəmir yolu var, ancaq sürət aşağıdır. Biz keçən ilin sonunda Bakı-Gəncə sürət qatarını istifadəyə verdik, indi vaxt nə qədər qısalıbdır. Sürət qatarları həm sərnişinlər, həm də yüklər üçün daha yaxşıdır. Bakı-Yalama yolunun yenidən qurulması prosesi başlayandan sonra və buna paralel olaraq biz “Şahdağ” kurortuna da dəmir yolunun çəkilişini təmin edəcəyik. Biz indi Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlamışıq. Bu da həm Tufandağa, həm də Qəbələyə turistlərin gəlişi üçün daha yaxşı şərait yaradacaqdır.

Onu da bildirməliyəm ki, keçən il Bakı və Sumqayıt dəmir yolu vağzalları yenidən quruldu. Bakı-Sumqayıt sürət qatarı işləyir və sərnişinlər bu qatardan çox razıdırlar. Müasir vaqonlar alınır. Ümumiyyətlə biz şəhər nəqliyyatı üçün əlavə tədbirlər görəcəyik. Bu il Bakıya 300 müasir avtobusun gətirilməsi nəzərdə tutulur, keçən il imzalanmış kontraktlara əsasən 300 avtobus da əlavə. Yəni, bu il Bakıya 600 avtobus gətiriləcək. Beləliklə, həm vətəndaşların rahatlığı təmin ediləcək, həm də təhlükəsizlik baxımından əlbəttə ki, bunun böyük faydası var.

Əlbəttə, bu il görüləcək işlər çoxdur. Hamısını bir iclasda qeyd etmək mümkün deyil. Amma əsas məsələlər bunlardan ibarətdir.

İclasın sonunda bildirməliyəm ki, mən keçən il noyabr ayında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışam. Bu il biz İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edəcəyik. Keçən il Bakıda və şairin doğulduğu Şamaxı şəhərində Nəsimi günləri, Nəsimi festivalı keçirilmişdir. Bütün bunları və Nəsiminin 650 illik yubileyini nəzərə alaraq, mən 2019-cu ili “Nəsimi ili” elan edirəm. Sağ olun.

# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib

**Azərbaycanın azadlığı uğrunda canından keçən şəhidlərin qəhrəmanlıqları unudulmur**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.

Qara Yanvar hadisələrindən 29 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 29 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları




həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, erməniпərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq



eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

Azərbaycanın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, əzizləri də hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin



olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

***

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

***

Baş prokuror Zakir Qaralov, digər dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

***

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak etdilər.

# Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib

**Prezident İlham Əliyev: “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizdə güclü iradə, güclü sosial siyasət var.”**

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı



– İlin birinci ayının sosial-iqtisadi göstəriciləri deməyə əsas verir ki, aparılan islahatlar öz gözəl nəticələrini verir. 2018-ci il dərin iqtisadi islahatlar ili olmuşdur, xüsusilə prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verilmişdir. 2017-ci il isə iqtisadi sabitləşmə ili idi. Biz 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atmışıq. Bu, bizə imkan verdi ki, 2018-ci ildə çox ciddi islahatlara başlayaq və islahatlar özünü göstərir. Əgər bu ilin yanvar ayının yekunlarına nəzər salsaq görərik ki, iqtisadi artım, yəni, ümumi daxili məhsulun artımı təxminən 3 faiz təşkil edir. Son 2-3 il ərzində bu, ən yüksək göstəricidir və onu göstərir ki, 2019-cu ildə Azərbaycanda iqtisadi



artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcək.

Eyni zamanda, son illər ərzində apardığımız uğurlu sənayeləşmə siyasəti öz nəticələrini göstərir. Bu ilin birinci ayında qeyri-neft sektorunda sənaye istehsalı təxminən 14 faiz artmışdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir, bəlkə də birincisidir və onu göstərir ki, sənaye istehsalı sahəsində aparılan işlər, qəbul edilmiş qərarlar bu gün real nəticələrə gətirib çıxarır.

İqtisadi, makroiqtisadi vəziyyət sabitdir, manatın məzənnəsi bir ildən çoxdur ki, sabit olaraq qalır, inflyasiya ən aşağı səviyyədədir. Yəni, bütün bunlar görülmüş işlər nəticəsində mümkün olub və bir daha onu göstərir ki, sosial və iqtisadi islahatlara alternativ yoxdur. 2019-cu ilin sonrakı aylarında da çox ciddi islahatlar aparılacaq və dərinləşdiriləcək ki, ölkəmizin hər bir sahəsində inkişaf, tərəqqi olsun, vətəndaşlar daha da yaxşı yaşasınlar.

Yanvar ayında Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində apardığım danışıqlar, görüşlər bir daha onu göstərir ki, ölkə iqtisadiyyatına böyük biznes tərəfindən çox böyük maraq var. Azərbaycan ilə əməkdaşlıq etmək istəyən, investisiya qoymaq istəyən şirkətlərin sayı artır və növbəti illər üçün xarici sərmayəni qeyri-neft sektoruna cəlbetmə məsələləri prioritet təşkil edəcəkdir. Eyni zamanda, Davosda aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə də görüşlərim onu göstərir ki, Azərbaycanda aparılan islahatlara çox böyük maraq var və bu islahatlara çox yüksək qiymət verilir. Biz dünyanın aparıcı beynəlxalq maliyyə qurumları – Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı ilə çox səmərəli, işgüzar əməkdaşlıq aparırıq. Dünyanın bu aparıcı maliyyə qurumlarının yüksək vəzifəli nümayəndələri bu yaxınlarda Bakıda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısında iştirak etmişlər və əminəm ki, bizim bu qurumlarla əməkdaşlığımız gələcəkdə də çox uğurlu olacaqdır.

Yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramı qəbul edildi, üçüncü

proqrama yekun vuruldu. Üçüncü proqram artıqlaması ilə icra edilmişdir. Qarşımızda duran bütün vəzifələr icra olunmuşdur. Beləliklə, son 5 il ərzində, xüsusilə bölgələrdə və Bakı şəhərində böyük infrastruktur layihələri icra edilmişdir. Beş ilə hesablanan dördüncü proqram bizə imkan verəcək ki, bu günə qədər görə bilmədiyimiz işləri, layihələri yerinə yetirək və bu gün icra olunan layihələri başa çatdıraq.

Aparılan ciddi iqtisadi islahatlar, şəffaflıqla bağlı görülən işlər büdcə daxilolmalarına da müsbət təsir göstərmişdir. Bildirməliyəm ki, təkcə ilin birinci ayında daxilolmalar kəskin artmışdır. Vergi orqanları plandan əlavə 80 milyon manatdan çox vəsait toplamışlar. Gömrük orqanları isə plandan əlavə 20 milyon manatdan çox vəsait toplamışlar və ümumi daxilolmalar 105 milyon manat artmışdır, təkcə bir ay ərzində. Bu, nəyi göstərir? Onu göstərir ki, bu sahədə aparılan islahatlar, şəffaflıqla bağlı atılan addımlar öz nəticəsini verir. Bu gün islahatların dərinləşməsi üçün çox gözəl şərait yaradılıbdır.

Onu da bildirməliyəm ki, bu ilin birinci ayında Dövlət Neft Fondunun gəlirləri də əhəmiyyətli dərəcədə artıb. Yəni, bizim maliyyə vəziyyətimiz yaxşılaşır, sabit olaraq qalır və bu, əlbəttə, bizə imkan verir ki, əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldək. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Hələ keçən ilin sonunda bildirmişəm və bu ilin əvvəlində demişəm ki, biz əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Çünki bu, bizim üçün prioritet məsələdir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifəmizdir. Bu istiqamətdə artıq bir çox ciddi addımlar atılıb və atılacaq. Ümumiyyətlə, bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır.

Hələ keçən ilin dekabr ayında hərbçilər üçün inşa edilmiş yeni binanın açılışı zamanı bildirmişdim ki, şəhid ailələrinin sosial məsələləri öz həllini tapacaq. Bildiyiniz kimi, prezident seçkilərindən sonra imzaladığım ilk Fərman şəhidlərin vərəsələrinə veriləcək 11 min manat ödənişlə bağlı idi. Siyahılar dəqiqləşdirilirdi və ilkin təhlil onu göstərmişdir ki, təqribən 9500 şəhid ailəsinə ödəmələr veriləcəkdir. Ancaq sonra dəqiqləşmə aparıldı. Dekabr ayında mən bildirdim ki, dəqiqləşmə nəticəsində bu rəqəm artacaq və artdı. Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaqdır. Bununla paralel olaraq, şəhid ailələri ilə görüşdə onlar məsələ qaldırdılar ki, müavinətlər də artsın. Dərhal Fərman imzalandı və bu müavinət 242 manatdan 300 manata artırıldı. Maddi imkanlarımız artdıqca, əlbəttə ki, daim bu məsələ diqqət mərkəzində olacaqdır. Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinət də bu yaxınlarda artırılmış, 220 manatdan 300 manata qaldırılmışdır. Bu da ədalətli yanaşmadır. Bir sözlə, bütün bu məsələlərlə bağlı biz ardıcıl olaraq öz siyasətimizi aparırıq. Maddi imkanlarımız artdıqca, ilk növbədə, bu məsələləri həll edirik.

Məcburi köçkünlərlə bağlı bu il çox geniş inşaat proqramları icra ediləcək. Əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 6 mindən 7 minə qədər köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Müvafiq göstərişlər verildi. Həm bölgələrdə, həm Bakı şəhərində, Sumqayıt şəhərində bu proqram icra ediləcəkdir.

Şəhid ailələri üçün bu il 800 mənzil alınıb onlara veriləcək. Keçən il 626 mənzil verilmişdir. Yəni, iki il ərzində 1400-dən çox mənzil şəhid ailələrinə veriləcək. Bu günə qədər mənzil almayan bütün şəhid ailələri əminəm ki, növbəti illər ərzində, yaxın gələcəkdə mənzillərlə təmin ediləcəklər. Onu da bildirməliyəm ki, bu günə qədər 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilmişdir.

Bu il biz minimum əməkhaqqını əhəmiyyətli dərəcədə artırdıq - 38 faiz. Bu, böyük artımdır, 130 manatdan 180 manata qalxıbdır. Bu, 600 min insanı əhatə edir. Ancaq o da həqiqətdir ki, bu rəqəm bizi heç də razı sala bilməz. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əmək haqqının gələcək artımı ilə bağlı təkliflər hazırlansın. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Əlbəttə ki, gələcəkdə minimum əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq.

Minimum pensiyalarla bağlı çox ciddi qərar qəbul edildi. Minimum pensiyaların məbləği də təxminən 38 faiz, bir qədər çox artmışdır - 116 manatdan 160 manata qədər. Bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB

məkanında ikinci yerdədir. Ancaq onu da bilməliyik ki, bu, son hədd deyil. Əlbəttə ki, əməkhaqlarının, pensiyaların artırılması gündəlikdə duran əsas məsələlərdən biridir. Minimum pensiyanın artırılması 223 min insanın pensiya təminatını yaxşılaşdıracaqdır.

Uzun illər ərzində vətəndaşları narahat edən problemlərdən biri də vaxtilə tikilmiş və hansısa səbəblərə görə rəsmi olaraq qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsi idi. Biz bu məsələyə də son qoyduq. İmzaladığım Fərman əsasında artıq bu məsələ həll olunmuş hesab edilməlidir. Yaxın gələcəkdə müvafiq dövlət orqanları bütün sənədləşmə işlərini apararaq məsələnin həllini təmin edəcəklər. Dörd yüz çoxmənzilli binada təxminən 60 minə yaxın ailə yaşayır. O vətəndaşların ailə tərkibləri təqribən toplam 300-400 min arasıdır. Yəni, bu da çox ciddi addım idi. Biz bunu da həll etdik.

Tələbələrin təqaüdləri artırıldı. Təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu da çox ciddi sosial addımdır. Gələcəkdə yenə də artım nəzərdə tutulur.

Vətəndaşları narahat edən məsələlərdən biri də problemli kreditlərlə bağlıdır. Bu məsələ artıq neçə vaxtdır ki, müzakirə olunur. Hökumət üzvlərinə müvafiq göstərişlər verilmişdir. Keçən ildən başlayaraq çox fəal iş aparılır, təkliflər paketi hazırlanır. Bilirəm ki, Milli Məclisdə də bu məsələ müzakirə olunur. Müxtəlif təkliflər səsləndirilir. Əlbəttə, biz istəyirdik ki, bu məsələ ciddi ictimai diskussiyalara da səbəb olsun və buna nail olduq. Ancaq deyə bilərəm ki, bu məsələ ilə son mərhələdə işçi qrupu çox ciddi məşğuldur. İki aydan çoxdur ki, təkliflər üzərində iş aparılır. Bu, o qədər də sadə məsələ deyil. Biz bu məsələni həll etməklə əsas vəzifəni vətəndaşların rifah halının yaxşılaşmasında, onların maliyyə yükünün azaldılmasında görürük. Bu, ilk növbədə, ciddi sosial təşəbbüs kimi qəbul edilməlidir.

Deyə bilərəm ki, bir neçə ay ərzində aparılan çox ciddi müzakirələr artıq nəticəyə gəlməyə şərait yaradır. Ümid edirəm ki, biz bu təhlilin son mərhələsindəyik. Ümid edirəm ki, yaxın gələcəkdə bu məsələ də öz həllini tapacaq və Azərbaycan bu məsələnin həlli ilə bağlı da öz liderliyini göstərəcək və çox ciddi nümunə göstərəcək. Çünki biz bilirik ki, buna oxşar addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilmişdir, ancaq onlar icra edilməmişdir. Yəni, burada xoş niyyətin olması əsas şərt deyil. Burada, əlbəttə ki, düzgün təhlilin aparılması və vətəndaşlar üçün ən məqbul variantın seçilməsidir. Əlbəttə ki, bizim buna maliyyə imkanlarımızın çatması məsələsi də ön plandadır. Bu gün, sadəcə olaraq, anons vermək istəyirəm ki, bu məsələ artıq yekunlaşmaq üzrədir.

Bir məsələni də qeyd etmək istəyirəm. Artıq bir neçə aydır ki, ciddi sosial paket üzərində iş aparılır. Bu sosial paketin ilk təzahürləri haqqında mən artıq bildirdim, minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi bütün böyük sosial paketin tərkib hissəsidir. Eyni zamanda, sosial müavinətlərlə bağlı olan məsələ də öz həllini tapacaq. Sosial müavinətlər çox əhəmiyyətli dərəcədə artırılacaq.

Yəni, bütün bunlar – bu çox böyük proqram 500 mindən çox əhalini əhatə edəcək. Sadaladığım bütün bu təşəbbüsləri əgər biz təhlil etsək, o cümlədən problemli kreditlərdən əziyyət çəkən vətəndaşların da sayını müəyyən etsək, təqribən 2 milyon 200 min əhali dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq.

Bu, çox ciddi sosial paketdir. Bir daha demək istəyirəm ki, bu paketin reallaşması, ilk növbədə, bizim güclü siyasi iradəmizə söykənir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Eyni zamanda, bizim maliyyə imkanlarımız buna imkan verir. Maliyyə imkanlarımızı biz əldə etmişik, biz yaratmışıq. Məhz aparılan islahatlar nəticəsində bizim gəlirlərimiz, büdcə gəlirlərimiz artır, artacaq və artmalıdır. Ona görə bir daha demək istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət var. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar bizə imkan verir ki, əlavə maliyyə resurslarını məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək. Əminəm ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaqdır. Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcəkdir.

***

Sonra müşavirədə müzakirələr aparılıb.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında

Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu qanlı faciədən 27 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçmiş, bütün beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarını pozaraq oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

“Xocalıya ədalət!” kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməmişdir.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir.

Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Xocalı faciəsinin iyirmi yeddinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 fevral 2019-cu il.

# Prezident İlham Əliyev Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşündə iştirak edib

**Prezident İlham Əliyev: "Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır."**



Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırada Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı



qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında “Dünya Xocalı soyqırımını tanımalıdır!”, “Xocalıya ədalət!”, “Xocalını unutmayın!”, “Rədd olsun erməni faşizmi!”, “Xocalı – XX əsrin soyqırımı”, “Cinayətkarlar cəzasız qalmayacaqlar!”, “Xocalı soyqırımı – 27 il”, "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir”, “Xocalı, sözün bitdiyi yer”, “Viran edilən Xocalı yenidən dirçələcək” və s. şüarlar nümayiş etdirilirdi.

Ümumxalq yürüşü iştirakçılarının hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 27 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerləyeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

***

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva abidənin önünə tər güllər qoydular.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.



***

Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edirdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Rusiyadan gələn nümayəndə heyəti ilə görüşüb söhbət etdilər.

Heyətə Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq əlaqələr üzrə komitəsinin sədr müavini, dünya şöhrətli idmançı İrina Rodnina, Dövlət Dumasının təhlükəsizlik və korrupsiya əleyhinə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev, Dövlət Duması Federal Məclisinin ailə, qadın və uşaq məsələləri üzrə komitəsinin sədr müavini Oksana Puşkina, Dövlət Dumasının dövlət əhəmiyyətli tikinti və qanunvericilik üzrə komitəsi sədrinin birinci müavini Mixail Yemelyanov, Dövlət Dumasının deputatları Tatyana Sibizova, Denis Parfenov və Aleksey Juravlev, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndirisici, tanınmış politoloq Sergey Markov və həmin institutun MDB ölkələri departamentinin rəhbəri Aleksey Bıçkov, hərbi ekspert, “Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı yazıçı, rejissor Aleksandr Rusnak, Rusiya Hökuməti yanında Maliyyə Universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı Aleksandr Şatilov daxildir.

Sonra Prezident İlham Əliyev Rusiyanın “Rossiya-24” kanalına müsahibə verdi.

***

Tarixi faktlar göstərir ki, azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, əzəli torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. “Böyük Ermənistan” xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı




həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdəbiri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi. Bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı oldu. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə müharibədən əvvəl 7 min insan yaşayırdı. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Bu müdhiş soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi, Xocalıdakı faciəvi

hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını sadəcə azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, hətta uşaqları belə qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə keçirilən mitinqlər, anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda növbəti ümumxalq yürüşü dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu 2016-cı il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən 2016-cı ilin Aprel döyüşləri və ötən ilin mayında Naxçıvan əməliyyatı sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

# Prezident İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib

**Prezident İlham Əliyev: "Xocalı soyqırımı xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımdır, ötən əsrin ən böyük cinayətidir."**




Fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.

**Müxbir:** Azərbaycan xalqının dərdinə şərikik. Həlak olanların ailələrinə, doğmalarına başsağlığı veririk. Bu gün Siz insanlara, Azərbaycan sakinlərinə, bu dərdi bölüşənlərə hansı sözlərlə müraciət edirsiniz?

**Prezident İlham Əliyev:** Çox sağ olun ki, gəlmisiniz. Azərbaycan xalqının tarixindəki bu faciəli hadisəyə münasibətinizi bildirirsiniz. Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir. Yalnız Azərbaycan millətinə mənsub olduqlarına görə günahsız insanlar – qocalar, qadınlar və uşaqlar həlak olmuş, zərər çəkmişlər. Azərbaycan xalqı heç vaxt bu faciəni unutmayacaq, həmişə xatırlayacaq. Bu, bizim yaddaşımızda həmişəlik qalacaq. Əsas odur ki, belə faciələr daha heç vaxt təkrar olunmasın. Daha heç vaxt heç bir xalqa qarşı belə dəhşətli soyqırımı hadisəsi, milli əlamətə görə qırğın törədilməsin. Azərbaycan dövləti, xalqı həlak olanların xatirəsini əziz tutur, yad edir və onların xatirəsi bizim üçün müqəddəsdir. Həmin faciəli gecədə xilas olanlar həmişə bizim üçün fiziki zədələr, mənəvi yaralar alan, həmin qətliamı yaşayan insanlar kimi qalacaqlar. Biz bu adamların aqibətini yüngülləşdirmək üçün əlimizdən gələni edirik, dövlət onlara kömək edir və edəcək. Bir daha demək istəyirəm, biz hamımız çalışmalıyıq ki, belə faciələr bəşəriyyət tarixində bir daha olmasın.

**Müxbir:** Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Müxbir:** Çox sağ olun. Dərdinizə şərikik.

# Prezident İlham Əliyev 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

**8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik**

Hörmətli xanımlar!

Sizi – bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında milliliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır.

Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Əminəm ki, siz Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 mart 2019-cu il.

# Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun açılışında iştirak edib

**Azərbaycan səmərəli tərəfdaşlığın uğurlu platforması, qlobal təhlükəsizliyə töhvə verən regional liderdir**




Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı Qlobal Forumun iştirakçıları ilə görüşdü.

Sonra birgə foto çəkdirildi.

Martın 16-dək davam edəcək VII Qlobal Bakı Forumunun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. “Dünyanın yeni xarici siyasəti” mövzusunda keçirilən Foruma hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıblar. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Bu mövzular arasında “Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu”, “Davamlı inkişaf çağırışları”, “Təhlükəsizlik naminə orta Şərq əməkdaşlığı”, “Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu” və digərləri var. Forumun əsas panel iclaslarından biri də gənc liderlərin qlobal siyasətdə roluna həsr olunacaq.

Yeddinci Qlobal Bakı Forumunu Nizami Gəncəvi

Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açaraq dedi:

– Zati-aliləri, xanımlar və cənablar.

Mənim adım İsmail Serageldindir. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədriyəm. Artıq dünyanın aparıcı tədbirləri sırasında öz yerini tutan VII Qlobal Bakı Forumunda sizi salamlamaqdan məmnunam.

Bu tədbirə bir çox mütəxəssislər və təcrübəli şəxslər toplanıb.

Builki Forumun mövzusu sanki dünyanın tektonik hərəkətinə bənzər bir mövzudur.

Nəticə olaraq insanların taleyində bir axın var ki, onları ən aşağı səviyyədən ən yüksəyə qaldıra bilər.

Bu fürsəti qaçırsanız həyatda uğursuzluqlara düçar olacaqsınız.

Hazırda durğun dənizin üzərindəyik.

Lazımi anda bu fürsətdən istifadə etməliyik, yoxsa uğur bizdən yan keçəcək.

Biz bu fürsəti qaçırmamalıyıq, çünki buraya açıq zehin və sağlam iradə ilə gəlmişik.

Növbəti günlərdəki müzakirələrə başlamazdan əvvəl istəyirəm ki, qürur hissi ilə sözü bu günün ilk natiqi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin himayədarı, ev sahibi Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vermək istəyirəm.

Azərbaycan Prezidenti İlham Əliyev Forumda nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi




– Əziz xanımlar və cənablar.

Əziz qonaqlar.

Əziz dostlar.

Azərbaycana xoş gəlmisiniz. Sizin hamınızı görməyimə çox şadam. Bu mühüm beynəlxalq tədbirdə bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edirəm. Mən, ilk növbədə, Nizami Mərkəzinin qlobal beynəlxalq instituta çevrilməsinə verdikləri əhəmiyyətli töhfəyə görə dünən görüş keçirdiyim Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri – xanım Vike-Freyberqaya, cənab Serageldinə və İdarə Heyətinin üzvlərinə təşəkkürümü bildirmək istərdim.

Qlobal Bakı Forumu qlobal gündəlikdə duran

aktual məsələlərlə məşğul olan ən mühüm beynəlxalq platformalardan biridir. Əvvəlki forumların mövzuları qlobal məsələlərin bugünkü gündəliyini əks etdirir. Düşünürəm ki, bu, xarici siyasətlə bağlı məsələlərlə, – bu, yeni xarici siyasət adlandırılır, – məşğul olmaq üçün çox yaxşı seçimdir. Çünki son forumdan bəri, xüsusilə ölkələr arasında münasibətlərdə, dünyada təhlükəsizlik və proqnozlaşdırılabilmə ilə bağlı məsələlərdə çox şey dəyişib. Mən çox şadam ki, forumun çoxsaylı iştirakçısı var. Forumda 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. Qonaqlarımızın arasında 5 hazırkı prezident, 1 hazırkı baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət və hökumət başçısı, görkəmli siyasətçilər, vətəndaş cəmiyyətinin təmsilçiləri, jurnalistlər, alimlər, gənc liderlər var.

Bu gün bu zalda böyük intellektual potensial var, bu da, əslində, Forumun əhəmiyyətini əks etdirir. Qlobal gündəlikdə çox sayda beynəlxalq tədbir, konfrans var. Lakin keyfiyyət iştirakçıların siyahısına, onların təcrübəsinə və intellektual potensialına görə ölçülür. Bu səbəbdən, mən düşünürəm ki, Qlobal Bakı Forumunun dünya xəritəsində nadir yeri var. Əminəm ki, qarşıdakı günlərdə müzakirə olunacaq məsələlər beynəlxalq münasibətlərin gələcəyi, dünyanın gələcəyi ilə bağlı qərar verənlərin diqqətini cəlb edəcək.

Azərbaycanın xarici siyasəti barədə danışarkən, mən deyərdim ki, o, çox dəyişməyib. Biz Azərbaycanın yeni xarici siyasəti barədə danışa bilmərik. Lakin sözsüz ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq. Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O, bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Ona görə də Azərbaycan sonuncu Forumdan bəri xarici siyasət istiqamətləri ilə bağlı təşəbbüslərini davam etdirib. Düşünürəm ki, biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq. Əlbəttə ki, istənilən ölkə, o cümlədən Azərbaycan üçün qonşularla münasibətlərin qurulması əsas prioritetdir. Bu mənada, sonuncu Forumdan bəri bizim əlaqələrimiz güclənib. Biz qonşularımızla qarşılıqlı maraqlara, qarşılıqlı hörmətə əsaslanan çox məhsuldar işçi münasibətlər qurmuşuq. Bu, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və investisiya sahələrində daha çox körpü qurmağa kömək edir. Bu səbəbdən, bizim qonşu ölkələrlə ənənəvi əlaqələrimiz regional təhlükəsizliyi təmin edir.

Regional təhlükəsizlikdən söhbət açarkən, biz, əlbəttə ki, Ermənistanla Azərbaycan arasındakı münaqişədən danışmalıyıq. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edir. Bu işğal nəticəsində Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ və ölkəmizin digər 7 rayonu işğal altındadır, bir milyondan çox qaçqın və məcburi köçkün işğaldan əziyyət çəkir. Xalqımız etnik təmizləməyə məruz qalıb. İşğal olunmuş ərazilərdəki bütün tarixi abidələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və bu, işğal olunmuş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərmiş ATƏT-in hesabatında öz əksini tapıb. Azərbaycan torpaqlarının işğalı beynəlxalq hüququn, əsas beynəlxalq təşkilatların müvafiq qətnamələrinin və qərarlarının kobud şəkildə pozulmasıdır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib və onlar Ermənistan tərəfindən yerinə yetirilmir. BMT Baş Assambleyası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı və digər təşkilatlar oxşar qətnamə və qərarlar qəbul ediblər. Onlar beynəlxalq hüquqa, ədalətə əsaslanır və münaqişənin sülh yolu ilə həlli üçün hüquqi baza yaradır. Status-kvo qəbuledilməzdir. Danışıqları təşkil etmək üçün mandata sahib olan ATƏT-in Minsk qrupu ölkələrinin prezidentləri dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və biz bunu tam dəstəkləyirik. Status-kvo dəyişməlidir və bunu etmək üçün Ermənistan öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa başlamalı, qaçqın və məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan yaratmalıdır.

Ermənistan hökuməti danışıqların formatını dəyişmək üçün cəhdlər edib və biz hələ də bu

cəhdləri görürük. Bu, tamamilə qəbuledilməz və qeyri-effektivdir. Biz bunu danışıqlar prosesini əngəlləmək cəhdi hesab edirik. Bu cür düşünən tək biz deyilik. Şadıq ki, beynəlxalq təşkilatlar bu fikri paylaşır. Bir qədər əvvəl ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yaydılar və faktiki olaraq Ermənistana açıq mesaj göndərdilər ki, onların danışıqlar formatını dəyişdirmək cəhdləri qəbuledilməzdir. Ondan bir neçə gün əvvəl Avropa İttifaqının yüksək rütbəli rəsmiləri eyni bəyanatla çıxış etdilər. Danışıqlar formatı uzun illər ərzində işlənib hazırlanıb və onu dəyişmək üçün birtərəfli qaydada edilən istənilən cəhd danışıqlar prosesini əngəlləmək cəhdi kimi qiymətləndirilir və bütün məsuliyyət bunu etməyə çalışan tərəfin üzərinə düşür. Bu səbəbdən, birincisi, danışıqlar formatı dəyişdirilə bilməz və ikincisi, danışıqlar nəticəyönümlü olmalıdır, sadəcə, danışıqlar xatirinə olmamalıdır. Azərbaycan bu prosesi davam etdirməyə hazırdır və danışıqların nəticəsi olaraq bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. Ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə arasındakı balans BMT-nin Nizamnaməsində, Helsinki Yekun Aktında çox aydın şəkildə izah olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Ona görə də, münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Bizim xarici siyasət prioritetlərimiz, həmçinin beynəlxalq təşkilatlarla əlaqələri əhatə edir. Biz müxtəlif beynəlxalq təşkilatlar arasında körpülər yaradan müxtəlif təşəbbüslərdə fəal şəkildə iştirak edirik. İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan az sayda ölkələrdən biri olaraq biz bu iki təşkilat arasında daha çox tərəfdaşlıq qurmaq üçün bu imkandan istifadə edirik. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında İslam həmrəyliyinin gücləndirilməsi, bəzi üzv ölkələr arasında gərginliyin azaldılmasında mühüm rol oynayır. Biz səylərimizin nümayişi olaraq iki il bundan əvvəl IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirdik. Ondan iki il əvvəl Azərbaycan birinci Avropa Oyunlarını keçirən ölkə oldu. Təsəvvür edirsinizmi, biz iki il ərzində eyni şəhərdə həm Avropa Oyunlarını, həm də İslam Həmrəyliyi Oyunlarını keçirdik. Bu, əslində, bizim beynəlxalq arenadakı rolumuzu, ölkələri və sivilizasiyaları yaxınlaşdırmaq istiqamətində səylərimizi əks etdirir. Biz Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıqla bağlı bəyannamələr və razılaşmalar imzalamışıq və qəbul etmişik. Bu, üzv ölkələrin üçdəbiridir və həmçinin bizim Avropa ölkələri ilə fəal əməkdaşlığımızı nümayiş etdirir. Biz ötən il Avropa İttifaqı ilə əməkdaşlığımızın bütün əsas sahələrini əhatə edən, tərəfdaşlıq prioritetləri adlanan çox mühüm bir sənədi parafladıq. Bu sənəddə, xüsusilə, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli ilə bağlı məqam aydın əksini tapıb. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına tam dəstək ifadə olunur. Ona görə də, Ermənistanla münaqişəyə gəlincə, bir daha deməliyəm ki, bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin həllini bu prinsiplər əsasında görür. Münaqişənin həllinin yeganə yolu Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Azərbaycan müxtəlif ölkələrlə yaxın əməkdaşlıq imkanından istifadə edərək Bakı prosesinə start verdi. Ötən il biz Bakı prosesinin 10-cu ildönümünü qeyd etdik. Bu, bizim İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərini birgə toplantıya dəvət etməyimizlə başladı. Bu, çox uğurlu oldu və beləliklə, növbəti il biz daha bir görüş keçirdik və sonra, BMT tərəfindən dəstəklənən bu format Bakı prosesi adlandırıldı. Bu, 100-dən çox ölkəni əhatə edən həmin iki böyük beynəlxalq təşkilat arasında qarşılıqlı əlaqə və müzakirələrin yeganə formatıdır.

Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər

təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur. Azərbaycan nisbətən gənc müstəqil ölkədir. Lakin, biz beynəlxalq ictimaiyyətdən çox güclü dəstək alırıq. Bunun sübutu olaraq, mən bir neçə il əvvəl Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini qeyd edərdim. Bu, onu göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı var. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi biz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində çox mühüm rol oynadıq. Biz, həmçinin qlobal təhlükəsizlik sahəsində rol oynayırıq. Biz sülhməramlı əməliyyatlarda iştirak edirik. Bu yaxınlarda biz Əfqanıstanda təhlükəsizliyi təmin edən hərbçilərimizin sayını artırdıq. Biz, həmçinin koalisiya qüvvələrini çox mühüm nəqliyyat və logistika dəstəyi ilə təmin edirik. Azərbaycanın üzvü olduğu Şimal paylaşdırma şəbəkəsi çox etibarlı təchizat marşrutudur. Bu, həm də müasir infrastruktura, xüsusilə nəqliyyata investisiyaların yatırılması sayəsində mümkün olub. Sonuncu Qlobal Forumdan sonra keçən dövrdə biz Xəzər dənizinin Azərbaycan sahilində böyük dəniz ticarət limanının açılışını etdik. Bu dəniz limanı böyük həcmdə - ilkin mərhələdə 15 milyon tondan 25 milyon tonadək yükləri nəql etmək qabiliyyətinə malikdir və ölkələri yaxınlaşdırmaq baxımından çox mühüm rol oynayır.

Xarici siyasətdən danışarkən, əlbəttə ki, bizim bu siyasətin mahiyyətinə ehtiyacımız var. Xarici siyasətimiz, siyasi səylərimiz olmadan Azərbaycanın artıq sahib olduğu güclü nəqliyyat əlaqələrini qurmaq mümkün olmazdı. Bizim ölkəmizi regional nəqliyyat mərkəzinə çevirməklə bağlı bir neçə il bundan əvvəlki hədəflərimiz artıq öz nəticələrini verir. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. 2017-ci ildə biz Gürcüstandan keçməklə Azərbaycan və Türkiyə arasında dəmir yolu xəttinin açılışını etməklə, Avropa dəmir yolu ilə Asiya dəmir yolunu birləşdirdik. Ötən il dəniz limanının açılışı bu nəqliyyat şəbəkəsinin daha bir elementidir. Biz artıq Asiya ölkələrindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik. Biz bu yaxınlarda artıq Əfqanıstanın təbliğ etdiyi Lapis-Lazuli dəmir yolu və Şərq-Qərb dəhlizi ilə fiziki əlaqə əldə etdik. Biz artıq yeni mənbələrdən yüklər qəbul edirik. Bu, təkcə iqtisadi mənfəət deyil, həm də ölkələr arasında əlaqə, qarşılıqlı bağlılıq və yaxın əməkdaşlıq deməkdir. Beləliklə, nəqliyyat sahəsi beynəlxalq əlaqələrin mühüm sektorudur və o, çox yaxşı tərəfdaşlıq ruhu yaradır.

Qlobal təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən daha bir sahə enerji sektorudur. Azərbaycan enerji təhlükəsizliyinə çox investisiya yatırır. Aparıcı enerji şirkətləri ilə bizim birgə layihələrimiz həm xalqımıza, ölkəmizə fayda verir, həm də Azərbaycanda, qonşu ölkələrdə on minlərlə iş yeri yaradır və onlar beynəlxalq tərəfdaşlığa gətirib çıxarır. Azərbaycan neft kəməri ilə Qara dənizi və Xəzər dənizini, dünyada ilk dəfə olaraq neft kəməri ilə Aralıq dənizi ilə Xəzər dənizini birləşdirdi. Hazırda, biz Cənub Qaz Dəhlizi adlanan böyük layihə üzərində işləyirik. O, Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşmiş kəmər sistemi vasitəsilə əlaqələndirir. Kəmərin uzunluğu 3500 kilometrdir və yekun mərhələdədir. Ötən ilin mayında biz Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdik. Ötən ilin iyununda isə onun mühüm hissələrindən biri olan TANAP-ın-Trans-Anadolu Boru Kəmərinin açılışı oldu. Azərbaycan qazı artıq bu kəmər vasitəsilə nəql olunur və ümidvaram ki, gələn il layihə tam yekunlaşacaq. Bu, regionda ən böyük infrastruktur layihələrindən biridir. Qaz istehsalı və nəqlinə yatırılmış investisiyaların ümumi həcmi 40 milyard dollara yaxındır. Beynəlxalq maliyyə institutları bizə güclü dəstək verir və əlbəttə ki, korporativ vəsaitdən də istifadə olunur. Bu, enerji təhlükəsizliyi, enerji əməkdaşlığı və ölkələr arasında əməkdaşlıq layihəsidir. Bizim planlarımız bugünkü formatın hüdudlarından kənara çıxır. Biz artıq Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro kimi Balkan ölkələri ilə Anlaşma Memorandumu imzalamışıq. Ümidvaram ki, növbəti mərhələdə biz bu ölkələrlə həm də fəal əməkdaşlığa başlayacağıq. Cənub Qaz Dəhlizi layihəsinə bu və

ya digər yolla qoşulmağı planlaşdıran ölkələrin coğrafiyası genişlənir. Bu, enerji və nəqliyyat təşəbbüslərinin geniş beynəlxalq əməkdaşlığa yol açdığını əyani şəkildə göstərir. Düşünürəm ki, biz enerji və nəqliyyat sektorlarında Asiya, Qafqaz, Avropa ölkələrini və Avropa İttifaqına üzv ölkələri əhatə edən beynəlxalq əməkdaşlığın yeni geniş formatını yaratmışıq. Bu, həqiqətən də qiymətli töhfədir və biz hələ bu prosesin başlanğıcındayıq. Çünki biz hələ icra mərhələsindəyik. Bütün bu layihələr həyata keçiriləndən sonra iqtisadi stimul, iqtisadi fayda olacaq, bu ölkələrdə on minlərlə iş yeri açılacaq və bu, ölkələri yaxınlaşdıracaq.

Çıxışımın əvvəlində qeyd etdim ki, Azərbaycanın xarici siyasəti müstəqildir və milli maraqlara əsaslanır. Bunun əsasında təkcə bizim siyasi iradəmiz deyil, həm də iqtisadi inkişafımız dayanır. Son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb. Biz Azərbaycanın əsas infrastruktur layihələrini tamamlamağa, maliyyə vəziyyətimizi əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa müvəffəq olduq. Xarici borcumuzun səviyyəsi çox aşağıdır, ümumi daxili məhsulun təxminən 19 faizinə bərabərdir və ehtiyatlarımız borcumuzdan 4-5 dəfə çoxdur. Beləliklə, Azərbaycanın maliyyə sabitliyi, iqtisadi inkişafı ölkəmiz üçün imkanlar yaratmaqla yanaşı, qonşu ölkələrə investisiya yatırmağa və daha çox körpü qurmağa imkan verir.

Düşünürəm ki, Forumun gündəliyi çox məharətlə seçilib. Siz bu gün narahatlığa səbəb olan ən mühüm və aktual məsələlərə toxunacaqsınız. Mən tam əminəm ki, məhsuldar müzakirələriniz və tövsiyələriniz tərəfdaşlığın güclənməsinə və gərginliklərin azalmasına yol açacaq. Foruma uğurlar arzulayıram. Təşəkkür edirəm.

***

Forumda Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Albaniya Prezidenti İlir Meta, Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Şefik Caferoviç, Moldova Prezidenti İqor Dodon, Monteneqro Prezidenti Milo Cukanoviç, Bolqarıstanın Baş naziri Boyko Borisov, İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari çıxış etdilər.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri xanım Karol Krofts Birləşmiş Krallığın Baş naziri Tereza Meyin müraciətini, BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Baş katibi Antonio Quterreşin müraciətini oxudular.

***

Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirildi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike–Freyberqa dedi:

– Mən istərdim İsmail Serageldini dəvət edim ki, o da təqdimat mərasimində iştirak etsin. İlk mükafat Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə verilir. O, beynəlxalq sülhə verdiyi töhfəyə görə mükafatlandırılır.

Mükafat Prezident Əşrəf Qaniyə təqdim olundu.

Prezident Məhəmməd Əşrəf Qani dedi: Mən uşaq ikən Nizami Gəncəvinin şeirlərini əzbər bilirdim. Demək istəyirəm ki, mən bundan böyük mükafat gözləmirdim.

Vayra Vike-Freyberqa: İkinci namizədimiz Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennedidir. Bu mükafat Kerri Kennediyə onun rəhbərlik etdiyi Fondun insan hüquqlarına, gənc liderlərin təhsilinə, həssas uşaqlara hörmətlə yanaşmasına görə verilir.

Mükafat Kerri Kennediyə təqdim olundu.

Kerri Kennedi dedi: Təşəkkür edirəm. Sizin qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir. Mən Bakıya dünən gecə gəlmişəm. Nizami Gəncəvinin adını daşıyan bu mükafatı almaqdan çox məmnunam. Nizami deyirdi ki, hər bir yeni ölkəyə gedəndə o ölkənin mədəniyyətini öyrənin. Bu, elə bir yanaşmadır ki, insanı nəticə etibarilə müdrikliyə gətirib çıxarır. Digər mədəniyyətlərlə tanış olmaq insanın müdrikliyinin rəmzidir. Burada müxtəlif ölkələrin, müxtəlif mədəniyyətlərin nümayəndələri iştirak edirlər. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi kimi bir təşkilat bizi bir araya gətirib. Bu təşkilat daha yaxşı gələcəyin qurulması üçün öz səylərini əsirgəmir. Bu fürsətdən faydalanaraq özümü çox qürurlu hesab edirəm.

***

Forum işini panel iclasları ilə davam etdirdi.

# Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak edib

**Prezident İlham Əliyev: "Qlobal Bakı Forumu dünya intellektuallarının beynəlxalq təşkilatına çevrilib."**



VII Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

Dövlətimizin başçısı ziyafətdə iştirak edən yüksək səviyyəli qonaqlarla görüşdü.

Ziyafətdə bir sıra ölkələrin dövlət və hökumət başçıları, eləcə də sabiq dövlət və hökumət başçıları, tanınmış siyasi və ictimai xadimlər iştirak ediblər.

Əvvəlcə xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu artıq yeddinci dəfədir baş tutur. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən budəfəki Forumda qlobal siyasətin dəyişməsində böyük güclərin rolu, davamlı inkişaf çağırışları, təhlükəsizlik naminə orta Şərq əməkdaşlığı, müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu və digər mühüm məsələlər müzakirə edilir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa ziyafətdə çıxış edərək dedi:

– Zati-aliləri, cənab Prezident.

Prezidentin qonaqları, Zati-aliləri xanımlar və cənablar.

Biz VII Bakı Qlobal Forumuna yüksək notda başladıq. Bu Forum cənab Prezidentin himayədarlığı ilə keçirilir. Bugünkü Forumda cənab Prezidentin nitq söyləməsi bizə böyük şərəf vermişdir. Hesab edirəm ki, hamımız Azərbaycanda bizə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycanda əvvəllər heç vaxt olmayan sizlərin bir çoxu bunu böyük məmnunluqla kəşf etmisiniz. Lakin bu gün Bakı Forumunda yenidən iştirak etmək üçün



Azərbaycana gələn çoxlu dostlarımız var. Prezident İlham Əliyevə cansağlığı, xoşbəxtlik, xalqının lideri kimi davamlı uğurlar arzu edirik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin komandası adından xüsusi minnətdarlıq əlaməti olaraq biz Prezidentə çox xüsusi bir hədiyyəni təqdim etmək istəyirik. Ukraynalı rəssam sizin də sevdiyiniz dahi şair Nizami Gəncəvinin "Xəmsə"sindən bir əsər yaratmışdır. İstərdik ki, bu hədiyyəni bizim bütün komandamız adından Sizə təqdim edək.

Hədiyyə dövlətimizin başçısına təqdim edildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək dedi:

– Belə dəyərli hədiyyəyə görə çox sağ olun xanım Prezident, cənab Serageldin. Bir daha verdiyi töhfələrə görə həmsədrlərə, bizim inanılmaz həmsədrlərə, xanım Prezident Vike-Freyberqaya və cənab İsmayil Serageldinə təşəkkürümü bildirmək istəyirəm. Bu səhər bunun haqqında danışdım və hər gün bunun haqqında danışa bilərəm, çünki bu, həqiqətdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bir çox marağa səbəb olan, bir çox intellektualları cəlb edən aparıcı qlobal beynəlxalq təşkilata necə çevrilməsini görmək möhtəşəmdir. Bizim Forumumuzun intellektual səviyyəsi ildən-ilə artır. Bu tədbirdə lap əvvəldən iştirak edən insanlar kimi, biz əlbəttə ki, bunu söyləyə bilərik. Bu gün bu Forumun dünya xəritəsində çox mühüm yeri var və Forum hələ də inkişaf prosesini yaşayır. Bir neçə gün bundan əvvəl İdarə Heyətinin üzvləri ilə müzakirə etdiyimiz kimi, bu Forumun daha da genişlənmək potensialı var. Bu Forumun dinamizmi var, bu Forumun enerjisi var. Bu gün bizim aramızda olan gənc liderlər bu Foruma əlavə enerji verirlər. Bu zala daxil olmadan öncə dostlarımızla bu Forumun xüsusi özəlliyinin nədən ibarət olduğunu müzakirə edirdik. Mən dedim ki, Forumu həqiqətən cəlbedici və məhsuldar edən panellərdə çox qızğın diskussiyaların aparılmasına, fikirlərin toqquşmasına, fikir ayrılıqlarına baxmayaraq, biz, eyni zamanda, birliyi də görürük. Biz kollektiv işi görürük. Forumda müntəzəm iştirak edən insanlar, dövlət başçıları, sabiq dövlət başçıları var. Eyni zamanda, Azərbaycana ilk dəfə səfər edən yeni dostlarımız var. Hesab edirəm ki, bu birlik ruhu Forumumuzun ən əsas özəlliklərindən biridir. Əminəm ki, Azərbaycana ilk dəfə səfər edənlər ölkəmizə yenidən qayıtmağı qərarlaşdıracaqlar. Biz həmişə yeni dostları görməyə və köhnə dostlarımızı qarşılamağa şadıq. Beləliklə, hamınıza uğurlar arzulayıram. Bizimlə bir arada olduğunuz üçün çox sağ olun. Forum həmişə bizim hamımız üçün dinamik, intellektual bir platforma olacaq. Çox sağ olun.

Yeddinci Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə Azərbaycanın incəsənət ustalarının ifasında konsert proqramı təqdim olundu.

Xatırladaq ki, Qlobal Bakı Forumu artıq ənənəvi mötəbər tədbirə çevrilib. Bir çox mühüm beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübə toplayan Azərbaycan Qlobal Bakı Forumuna da uğurla ev sahibliyi edir. Bu cür tədbirlər ölkəmizin beynəlxalq birliyə təqdim olunması baxımından da vacib əhəmiyyət daşıyır.

# Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb

Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.

Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxıldığı, məhkumların şəxsiyyətinin, səhhətinin, ailə vəziyyətinin, cəza çəkdikləri müddətdə davranışlarının nəzərə alınaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib.

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 399 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərdən birinin cəzası 25, iki nəfərinki isə 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunan və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər cəzadan azad olunub. Eləcə də azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş bir nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Üç nəfər islah işləri cəzasından, bir nəfər ictimai işlər cəzasından, 12 nəfər isə cərimə cəzasından azad edilib.

*İxtisarla*

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, İnsan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

...

**2.** ... cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilsin.

**3.** Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslərin cəzası 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilsin:

...

**4.** ... cəzadan azad edilsin.

**5.** Azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad edilsinlər:

...

**6.** ... cəzasının çəkilməmiş hissəsindən azad edilsin.

**7.** İslah işləri cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

...

**8.** ... cəzadan azad edilsin.

**9.** Cərimə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad edilsinlər:

...

**10.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 mart 2019-cu il.

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz bayram günlərində hamınıza bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır. Təbiətlə insanın vəhdətinə dair təsəvvürləri yaşadan rəngarəng Novruz mərasimlərində xalqımızın dolğun həyat fəlsəfəsi və zəngin düşüncə dünyası parlaq təcəssümünü tapmışdır.

Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir.

Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur. Qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir. Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir.

Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır. Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir. Qoy bu bayram hər evə xoş ovqat gətirsin və hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 mart 2019-cu il.

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

## Azərbaycan televiziyası vasitəsi ilə təbrik



Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı xalqımızın sevimli bayramıdır. Əsrlər boyu Azərbaycan xalqı Novruz bayramını qeyd edir. Bu bayramı biz yaxşı nəticələrlə qarşılayırıq. Azərbaycan uğurla və hərtərəfli inkişaf edir. Qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan dövləti dərin milli-mənəvi köklər üzərində qurulubdur. Novruz bayramı bizim milli sərvətimizdir.

Keçən Novruz bayramından ötən dövr ərzində bir çox önəmli hadisələr baş vermişdir. Aprel ayında prezident seçkiləri keçirilmişdir və Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir, böyük dəstək göstərmişdir. Bu dəstəyə və inama görə doğma xalqıma minnətdaram. Mən bu dəstəyi son illər ərzində görülmüş işlərə verilən qiymət kimi qəbul edirəm, eyni zamanda, prezident seçkiləri ərəfəsində elan edilmiş islahatların yeni mərhələsinə göstərilən dəstək kimi qəbul edirəm. Prezident seçkilərindən sonra genişmiqyaslı islahatlar aparılmağa başlanmışdır. Bu islahatların nəticələrini Azərbaycan xalqı artıq görür və bundan sonra da görəcəkdir.

Novruz bayramından iki ay sonra ölkəmizin həyatında çox önəmli hadisə baş vermişdir. May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, tarixi layihədir. Bu layihənin icrası ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcək, bizim siyasi və iqtisadi maraqlarımızı qoruyacaq. May ayında digər böyük layihə istifadəyə verildi, biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd etdik. Bu limanın və 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətə başlaması Azərbaycanı Avrasiya məkanında önəmli beynəlxalq nəqliyyat mərkəzinə çevirib. Biz bu gün uğurla Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəaliyyətinə təkan veririk. Azərbaycan hər iki layihədə uğurla fəaliyyət göstərir. Deyə bilərəm ki, bu layihələrdə 10-dan çox ölkə iştirak edir, ancaq yalnız bir ölkə - Azərbaycan həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edir və bir çox təşəbbüslərin müəllifi olmuşdur.

İyun ayında digər tarixi hadisə baş vermişdir – TANAP qaz kəmərinin açılışı mərasimi keçirilmişdir. Bu layihənin həyata keçirilməsi bütövlükdə Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması üçün əsas şərtdir. Biz bu tarixi hadisəni uğurla qeyd etdik və bu gün Azərbaycan qazının əlavə həcmi TANAP xətti ilə dünya bazarlarına nəql edilir.

Biz keçən il üçüncü peyki orbitə buraxdıq və bir daha göstərdik ki, texnoloji baxımdan Azərbaycan çox uğurla, sürətlə inkişaf edir. Kosmik sənayenin inkişafı bizim prioritetlərimizdən biridir.

Keçən il biz regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrasını təmin etdik. Proqram artıqlaması ilə icra edildi və üç proqramın icrası böyük dəyişikliklərə gətirib çıxardı. Biz demək olar ki, bütün infrastruktur layihələrimizi yenidən qurduq. Azərbaycan infrastruktur baxımından çox sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, biz üç proqram çərçivəsində elektrik enerjisini ixrac etməyə başlamışıq, ölkə daxilində təminat tam təşkil edilir. Baxmayaraq ki, əvvəlki illərdə biz idxaldan asılı idik. Biz qazlaşdırmanı 95 faizə çat-

dırmışıq və bu, dünya miqyasında ən böyük, ən yüksək göstəricilərdən biridir. Şəhərlərimizin əksəriyyətinə təmiz içməli su xətləri çəkildi və bu proses davam etdirilir. On beş min kilometr yeni yol çəkildi və Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə yol infrastrukturunun səviyyəsi, keyfiyyəti baxımından Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Sosial infrastruktur obyektləri inşa olundu, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikildi və ya yenidən quruldu. İki milyondan çox yeni iş yeri yaradılmışdır. Əhali isə 1,6 milyon artmışdır.

Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Azərbaycan bu gün bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlər qurub. Bir çox hallarda Azərbaycan çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarıdır. Qonşu dövlətlərlə əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Hər bir ölkə üçün qonşularla münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Çox şadam ki, biz qonşu ölkələrlə səmərəli, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik. Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. İslam həmrəyliyinə verdiyimiz töhfə bütün müsəlman aləmində yüksək qiymətləndirilir.

Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub. Bu, əlbəttə ki, çox önəmli məsələdir, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti var.

Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqlar formatının dəyişdirilməsi ilə bağlı məsələlər qaldırıb. Ancaq təbii ki, Azərbaycan bunu qəbul edə bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri - Amerika, Fransa, Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır. Həmçinin Avropa İttifaqının yüksək vəzifəli şəxsləri oxşar bəyanatla çıxış etmişlər. Yəni, bu, Ermənistana birmənalı ciddi siqnaldır, eyni zamanda, onu göstərir ki, Azərbaycanın mövqeyi daha da böyük dəstək qazanır.

Münaqişənin həlli regionda sülhün, sabitliyin təmin olunmasına gətirib çıxaracaq. Əlbəttə, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz bununla bərabər, əlbəttə ki, öz hərbi gücümüzü artırırıq. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya nümayiş etdirib. Bu il və bundan sonrakı illərdə biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik. Bizim hərbi hissələrimizin demək olar ki, mütləq əksəriyyəti yenidən qurulub. Azərbaycan Ordusu ən müasir texnika ilə təchiz edilir və döyüş qabiliyyətimiz gündən-günə artır. Bu gün Novruz bayramını, o cümlədən Cocuq Mərcanlıda qeyd edirlər. Cocuq Mərcanlının qurulması, bərpası, yenidən oraya həyatın qayıtması bizim tarixi nailiyyətimizdir. Cocuq Mərcanlı bu gün Azərbaycan xalqının əyilməz ruhunun təzahürüdür.

Bildiyiniz kimi, bu gün Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır. Bu, bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur. Bildiyiniz kimi, minimum əməkhaqqı və minimum pensiya təxminin 40 faiz artmışdır. Sosial müavinətlər təqribən orta hesabla iki dəfə artmışdır. Köçkünlərə verilən müavinət 50 faiz artmışdır. Tələbələrin təqaüdləri, şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər artıb. Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı müvafiq Fərman imzalanıb. Problemli kreditlərin həlli ilə bağlı çox ciddi Fərman imzalanıb. Onu deyə bilərəm ki, bu Fərmanın dünyada bənzəri yoxdur və bu Fərman 800 min insanı əhatə edir. Yəni, Azərbaycan dövləti bir daha göstərir ki, öz vətəndaşının yanındadır.

Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır. Bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son illər ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,6 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Ancaq ən böyük artım qeyri-neft sektorunda sənaye istehsalına aiddir. Burada artım 15,5 faizdir. Hesab edirəm ki, bu, dünya rekordudur və son illər ərzində aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir.

İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir.

Mən tam əminəm ki, bu ili biz uğurla başa vuracağıq. Bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaq.

Əziz həmvətənlər, sizi bu gözəl Bahar bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun.

Bakı şəhəri, 20 mart 2019-cu il.

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

**Xalq Prezidenti ilə Novruz bayramını keçirib**




Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.

Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsi və milli ruhunu özündə əks etdirir. Novruz xalqın milli təfəkkür tərzini, onun həyat və məişətini, adət və ənənələrini özündə yaşadan əsl el mərasimidir. Odur ki, xalqımız durduqca Novruz adət-ənənələri, onun yaratdığı mədəni sərvətlər də bizimlə olacaq. Çünki Novruz bayramı dərin milli köklərə, zəngin adət-ənənələrə malik olmaqla xalqımızın ictimai və mənəvi həyatında əhəmiyyətli hadisədir. Novruz həm də xalqımızın milli həmrəyliyinin rəmzidir. Ona görə də Novruzun timsalında ölkəmizdə malik olduğumuz milli mədəniyyət nümunələrinin qorunub saxlanmasının özü belə, bir mədəniyyət və bəşər əhəmiyyətli hadisədir. Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyu Novruz bayramını əziz tutub. Elə bu



səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi.

Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi milli məsələ də var idi. Çünki məhz ümummilli liderimiz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi şəkildə qeyd olunmağa başladı. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlətimizin başçısının hər il xalqa ünvanladığı təbriklər onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Dövlətimizin başçısı və xanımı Bakının Fəvvarələr meydanına gəldilər.

Bayram şənliyinin iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sakinlərlə söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salam. Bayramınız mübarək!

**Sakinlər:** Çox sağ olun. Mehriban xanım, təbrik edirik. Bayramınız mübarək.

**Birinci xanım Mehriban Əliyeva:** Bayramınız mübarək olsun.

Novruz şənliyinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada “Torpaq əlimdə, bahar ürəyimdə” xeyriyyə yarmarkası ilə tanış oldular.

**Sakinlər:** Cənab Prezident, Mehriban xanım, bayramınız mübarək. Var olsun Prezidentimiz. Cənab Prezident, Sizin gördüyünüz işləri xatırlatmağa ehtiyac yoxdur. Hamısı göz qabağındadır. Məhz



buna görə Mehriban xanımı da, Sizi də hamı sevir. Allah Sizi qorusun. Sizə və ailənizə cansağlığı diləyirik. Bayramınızı bir daha təbrik edirik.

**Prezident İlham Əliyev:** Çox sağ olun, sizin də bayramınız mübarək olsun.

Dövlətimizin başçısı və birinci xanım gənc rəssamların əsərlərinin sərgisinə baxdılar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları aşıqların ifasını dinlədilər.

**Aşıq Samirə:** Cənab Prezident, saza, sözə diqqətə görə çox sağ olun. Bütün Azərbaycan aşıqları adından təşəkkür edirik. Bayramınız mübarək.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

Sonra Prezident İlham Əliyev Novruz şənliyində iştirak edən xarici ölkələrin vətəndaşları ilə görüşüb söhbət etdi.

Daha sonra dövlətimizin başçısı və xanımı İçərişəhərə gələrək burada "Bahar qalası" festivalı ilə tanış oldular.

İçərişəhərin qala divarları üstündə qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verdi, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayaraq dedi:

– Xoş gəlmisiniz, gəlişiniz bərəkətdir, ruzidir. Elimizdən, obamızdan heç vaxt ruzi-bərəkət əskik olmasın. Uca dağlarımız yıxılmasın, kölgəli ağaclarımız kəsilməsin, gur-gur axan təmiz sularımız qurumasın, çapa-çapda ağ-boz atlarımız büdrəməsin, çarpışanda qılıncımız kütləşməsin, evimizdə çırağımız daim yansın. Qoy, üçrəngli bayrağımız zirvələrdə dalğalansın, düşmənlərimiz xar, dostlarımız var olsun. Heç kəs düşmənə möhtac olmasın. Bayramınız mübarək olsun.

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun.

Bahar qızı dövlətimizin başçısına bayram xonçası təqdim etdi.

Novruz bayramının əsas personajları olan Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər.

**Kosa:** Cənab Prezident, Mehriban xanım xoş gəlmisiniz. Cənab Prezidentin təkcə bu il qurub-yaratdıqlarını danışsan gələn Novruza qədər bitməz. Bax, indi təkcə birini deyəcəyəm. Cənab Prezident, min illərdir mən xurcunumu, xonçalarımı doldura




bilmirəm ki, bu Keçəlin toyunu edim. Sizin bayram qabağı verdiyiniz sərəncamlardan sonra xurcunlarımız da doldu, xonçalarımız da. Odur ki, bu Keçəlin toyunu rahat edə bilərəm.

**Keçəl:** Cənab Prezident, təşəkkür edirəm, gəlin, adət-ənənələrimizə uyğun olaraq bu il də yumurta döyüşdürək ki, elimiz-obamız daha da bərəkətli olsun. Qoy bu il də Azərbaycanımızın sorağı eldən-elə, dildən-dilə dolaşaraq hey ucalsın. Bayramınız mübarək olsun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm, bayramınız mübarək olsun.

Kosa və Keçəl dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bahar qalası" festivalı çərçivəsində İçərişəhərdə təşkil edilən yarmarka ilə tanış oldular.

Miniatür Kitab Muzeyinin yaradıcısı və təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahova Prezident İlham Əliyevə miniatür kitablar hədiyyə etdi.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları göstərdiyi diqqət və qayğıya görə Prezidentə təşəkkür edərək dedilər: Çox hörmətli cənab Prezident, əziz Mehriban xanım, səməni ətirli, torpaq təravətli, bahar sevincli bu gözəl bayramda Sizi ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, ölkəmizin ərazi bütövlüyü, inkişafı naminə gördüyünüz böyük və məsuliyyətli işlərdə uğurlar arzu edirik. Cənab Prezident, gələn il bizim teatrın 110 ili tamam olur. Xoşbəxtik ki, bu yubileyi Sizin imzaladığınız Sərəncamla, akademik teatr statusu ilə qeyd edəcəyik. Biz bilirik ki, Azərbaycan Dövlət Akademik Musiqili Teatrına Sizin səmimi münasibətiniz illər öncədən başlayır. Bizim əzizlərimiz, Tanrı sizi qorusun. Bayramınız mübarək olsun!

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun.

Dövlətimizin başçısı və xanımı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.

Azərbaycan Prezidenti və xanımı Müasir İncəsənət Mərkəzində oldular. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müasir Azərbaycan rəssamlarının rəsmlərinə baxdılar.



Anam doğma Vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan.

**Birinci xanım Mehriban Əliyeva:** Afərin.

**Prezident İlham Əliyev:** Nə gözəl, nə yaxşı uşaqdır.

**Paytaxt sakini:** Çox sağ olun, minnətdaram. Bayramınız bir daha mübarək. Allah Sizi qorusun. Mehriban xanım, Sizin də bayramınızı təbrik edirik, cansağlığı arzulayırıq. Neçə belə illərə çıxasınız.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə sakinlərlə çay süfrəsi arxasında söhbət etdilər.

İçərişəhərə göstərilən daimi diqqət və qayğı Prezident İlham Əliyevin ölkəmizin milli-mədəni irsinin qorunması sahəsində uğurlu dövlət siyasətinin tərkib hissəsidir. Həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da ölkəmizin mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi memarlıq irsinin qorunması və dünyada təşviqində böyük rolu var. İçərişəhər sakinləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıq etdilər.

Sonda dövlətimizin başçısı və xanımı Karvansarayda İçərişəhər sənətkarlarının əl işlərindən ibarət sərgi ilə tanış oldular.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hədiyyələr təqdim olundu, xatirə şəkli çəkdirildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənətkarlarla söhbət etdilər.

**Prezident İlham Əliyev:** Sizə uğurlar, cansağlığı arzu edirəm. Bayramınız mübarək olsun.

**İranlı turistlər:** Bayramınız mübarək. Biz İrandan gəlmişik.

**Prezident İlham Əliyev:** Çox sağ olun, sizin də bayramınız mübarək.

**Paytaxt sakini:** Salam, bayramınız mübarək. Mehriban xanım, bayramınız mübarək.

**Birinci xanım Mehriban Əliyeva:** Bayramınız mübarək.

**Paytaxt sakini:** Oğlum, get, babaya şeir de.

**Uşaq:** El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.

**Prezident İlham Əliyev:** İçərişəhər bizim tarixi yerimizdir. Bilirsiniz, bir neçə ildir ki, İçərişəhərin xüsusi statusu var, burada xüsusi idarəetmə yaradılıbdır. Bizim tariximiz qorunur, tarixi abidələr bərpa olunur və İçərişəhər öz gözəl simasını saxlayır. Dünyada belə böyük şəhərlər o qədər də çox deyil. Bir neçə ölkədə belə qədim yaşayış yerləri bizdəki kimi dövlət tərəfindən qorunur. O cümlədən Avropa və Asiya ölkələrində bu cür şəhərlər var. Amma İçərişəhərin xüsusi aurası, xüsusi cəlbedici gücü var. Adam buraya gələndə getmək istəmir. Çox şadam ki, son illər ərzində burada abadlıq işləri aparılır. Amma əsas odur ki, bu tarixi sima qorunur. Demək olar ki, indi buraya hər gün turistlər gəlir.

**Sakin:** Mən yetmiş ildir ki, burada yaşayıram. Biz İçərişəhərin necə pis gündə olduğunu görmüşük. Küçələr daşlı idi, gəzmək olmurdu. İndi qısa müddətdə Sizin köməyinizlə İçərişəhər çox gözəl, çox rahat olub.

**Prezident İlham Əliyev:** Burada həm yaşamaq üçün şərait yaradılıb, həm də ki, ictimai yerlər. Bu

gözəl şərait turistləri cəlb edir. İçərişəhərdə tarixi binalar təmir olundu. Onların bir çoxu köhnəlmişdi, sıradan çıxmışdı. İçərişəhər dünya miqyasında nadir bir yerdir.

**Sakin:** Bir vaxt deyirdilər ki, İçərişəhərdən camaatın hamısını köçürsünlər. Amma Siz qoymadınız.

**Prezident İlham Əliyev:** Düzdür, belə təkliflər var idi. Bu barədə mənə deyəndə qətiyyən bunun əleyhinə oldum. Çünki İçərişəhəri yaşadan burada yaşayan insanlardır. Yəni, bu, muzey deyil, bu, yaşayış yeridir. İçərişəhərlilər, onlara xas olan həyat tərzi, mədəniyyət – bunlar bizim böyük sərvətimizdir. İçərişəhərin üstünlüyü ondadır ki, qədim dövrlərdən burada insanlar yaşayır, nəsillər gəlir, gedir. Eyni zamanda, bu, açıq səma altında bir muzeydir. Bəzi ölkələrdə belə qədim yerlər, sadəcə olaraq, görüntü naminə saxlanılır, turistlər gəlirlər, gəzirlər, çay, qəhvə içib gedirlər. Amma İçərişəhərdə insanlar yaşayır. Əlbəttə ki, burada yaşayan insanlar üçün yaxşı şərait yaradılıb.

**Sakinlər:** Hara getsək bu yer bizi cəlb edir, hara getsək, birinci bura yadımıza düşür. Cənab Prezident, bizim muzeylərimiz də inkişaf edir. Keçən ilin dekabr ayında Nazirlər Kabinetinin qərarı ilə bir neçə muzey – Qız Qalası, Şirvanşahlar Sarayı, "Qala" Dövlət Etnoqrafik Qoruğu muzey birləşməsi oldu. İçərişəhər muzeylər mərkəzidir. Bildiyiniz kimi, Şirvanşahlar muzeyi ən aparıcı muzeylərdən biridir. Bizə qədim Şirvanşahlar dövlətindən qalan yeganə belə bir saraydır ki, çox böyük marağa səbəb olur. Buraya çoxlu turistlər gəlirlər. Bu, çox yüksək göstəricidir.

**Prezident İlham Əliyev:** Turistlər daha da çoxalacaq. 2016-cı ildən başlayaraq turistlərin sayı hər il artır. Əsas artım 2016-cı ildə başladı. Həmin il 22 faiz artım oldu. Ondan sonra daha 20 faiz artdı. Keçən il isə artım təqribən 5 faiz olub.

Sonra "Səma" uşaq rəqs ansamblının çıxışını izləyən dövlətimizin başçısı və xanımı ansamblın üzvləri ilə xatirə şəkli çəkdirdilər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev Qız qalasının qarşısındakı meydanda Novruz tonqalını alovlandırdı.



Qeyd edək ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürüdür. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, nəcib insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

# Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib

**Prezident İlham Əliyev: "Biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik."**

Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

Dövlət başçısı müşavirədə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Martın 26-da ticarət mərkəzlərinin birində yanğın baş vermişdir. Xoşbəxtlikdən insan itkisi olmamışdır. Ancaq o ticarət mərkəzində çalışan insanlara maddi ziyan dəymişdir. Yanğının səbəbləri araşdırılır, bu gün ilkin məlumat veriləcəkdir və əminəm ki, tam araşdırılacaqdır. Eyni zamanda, biz sahibkarların problemlərini həll etməliyik. Onlar öz iş yerlərini, öz əmlakını itiriblər. Onlara maddi ziyan dəyib. Bəziləri borc alıb və orada malları satışa çıxarıblar. Ona görə, əlbəttə ki, biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik.

Dünən Nizami Rayon İcra Hakimiyyətində sahibkarlarla görüş keçirilib. Bu gün səhər ikinci görüş keçirilib və onlara deyilib ki, dövlət onlara dəstək və yardım göstərəcəkdir. Belə hadisələr baş verir. Əlbəttə ki, səbəblər tam araşdırılmalıdır və operativ olaraq dövlət sahibkarlara öz maddi yardımını göstərməlidir. İqtisadiyyat Nazirliyi ticarət mərkəzində çalışan sahibkarlarla bir-bir görüşməlidir, onların problemlərini dinləməlidir və onlara dəstək göstərməlidir. Maliyyə Nazirliyi operativ olaraq, ilkin maliyyə vəsaiti ayırmalıdır ki, sahibkarlara bu vəsaitin verilməsi təmin edilsin. Bununla bərabər, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi yanmış malların qiymətini sahibkarlarla birlikdə araşdırmalıdır, aydınlaşdırmalıdır və bizdə bu məsələ ilə bağlı dəqiq məlumat olmalıdır.

Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük. Misal üçün, bu yaxınlarda Şamaxı, İsmayıllı, Ağsu rayonlarında baş vermiş zəlzələ nəticəsində minlərlə evə ziyan dəyib və heç bir ev sığortalanmayıb. Təbii ki, dövlət öz dəstəyini göstərir və göstərməlidir. Artıq evlərin tikintisi başlamışdır və bu ayın əvvəlində birinci evlərin vətəndaşlara təqdimetmə mərasimi keçirilmişdir. Bütövlükdə, sahibkarlara məsləhət görülür ki, onlar öz əmlakını sığortalatsınlar. Belə olan halda tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə onların əmlakı batmayacaq.



Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bildiyiniz kimi, bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət - zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu, bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə, baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik.

Məsələni tam araşdırıb təklifləri vermək üçün komissiya yaradılacaq. Əlbəttə ki, komissiya bir müddət işləyəcək. Ancaq biz operativ olaraq sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərməliyik ki, onlar bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq. O ki qaldı, ticarət mərkəzinin sahibkarlarının fəaliyyətinə, əlbəttə ki, onlar dövlət tərəfindən sahibkarlara veriləcək məbləğin ödənilməsini tam təmin etməlidirlər və edəcəklər. Ancaq nəzərə alsaq ki, biz istəyirik məsələ tezliklə öz həllini tapsın, bu məqsədlə, yenə də dediyim kimi, dövlət dərhal öz dəstəyini göstərməlidir.

***

Sonra fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanğının başvermə səbəbləri, əhatə dairəsi və həyata keçirilən təxirəsalınmaz tədbirlər barədə Prezident İlham Əliyevə məlumat verdi. Nazir bildirdi ki, hadisədən dərhal sonra operativ olaraq yanğınsöndürənlər hadisə yerinə yaxınlaşıb və ilkin tədbirlər həyata keçirilib.

Yanğının mənbəyinin ticarət mərkəzindən kənarda yerləşən və qanunsuz inşa olunan dönərxanadan başladığını deyən Kəmaləddin Heydərov qeyd etdi ki, yanğının başvermə anı Daxili İşlər Nazirliyinin müşahidə kameralarında da əks olunub. Yanğının söndürülməsinə 35 yanğınsöndürən maşının və 3 helikopterin cəlb olunduğunu deyən nazir bildirdi ki, ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydalarına indiyədək əməl olunmayıb. Kəmaləddin Heydərov dedi ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən 2015-ci ildən başlayaraq ticarət mərkəzinə və rayon icra hakimiyyətinə müvafiq müraciətlərin olunmasına baxmayaraq, burada yanğın təhlükəsizliyi və digər təhlükəsizlik tədbirləri görülməyib və bu məqsədlə tələb olunan hidrantlar qoyulmayıb. Malların anbarlarda düzgün yerləşdirilməməsi və binanın alkaponla üzlənməsi yanğının daha da şiddətlənməsinə səbəb olub.

Nazir hadisənin fəsadlarının aradan qaldırılması və yanğının ətraf binalara keçməməsi üçün bütün lazımi tədbirlərin operativ görüldüyünü vurğuladı. O, hadisənin başvermə səbəblərinin araşdırılması məqsədilə qanunvericiliyə uyğun olaraq zəruri tədbirlərin görüləcəyini və əldə edilən ilkin materialların komissiyaya təqdim ediləcəyini bildirdi.

Baş prokuror Zakir Qaralov hadisə baş verən andan müvafiq qurumların birgə səyləri nəticəsində vəziyyətin nəzarətə alındığını, insanların həmin ərazidən təxliyə edildiyini bildirdi. Baş prokuror hadisə ilə bağlı Cinayət Məcəlləsinin 225-ci maddəsi üzrə cinayət işinin qaldırıldığını, yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizalarının təyin olunduğunu dedi, qısa vaxtda yaranmış istintaq-əməliyyat qrupu tərəfindən bu ekspertizaların həyata keçiriləcəyini vurğuladı. Zakir Qaralov hadisə ilə bağlı sahibkarların dindirilməsi və ilkin ifadələrinin alınması istiqamətində işlərin görüləcəyini qeyd etdi, istintaqın gedişi ilə bağlı vaxtaşırı dövlətimizin başçısına məlumat veriləcəyini bildirdi.

Daxili işlər naziri Ramil Usubov məlumat verərək dedi ki, yanğın baş verdikdən dərhal sonra Daxili İşlər Nazirliyinin və Baş Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti hadisə yerinə gedib və qarşıda duran vəzifələrlə bağlı operativ tədbirlər görüblər. Belə ki, yol polisi əməkdaşları yanğınsöndürənlərin hadisə yerinə vaxtında və maneəsiz çatmaları üçün lazımi şərait yaradıb, 400 nəfərdən çox polis əməkdaşı hadisə yerində təhlükəsizlik tədbirlərinin təmin olunmasına cəlb edilib, əhalinin oradan uzaqlaşdırılması, nəqliyyatın hərəkətinin məhdudlaşdırılması ilə bağlı zəruri tədbirlər görülüb. Ramil Usubov yanğının baş verməsi ilə bağlı müşahidə kameralarının qeydlərinin müvafiq qurumlara təqdim olunduğunu bildirdi. Dövlətimizin başçısının tapşırığı ilə yaradılan komissiyanın tərkibində Daxili İşlər Nazirliyi əməkdaşlarının da təmsil olunacağını vurğulayan nazir tapşırıqların yüksək səviyyədə həyata keçiriləcəyini qeyd etdi.

İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq bir sıra addımların atılacağını bildirdi. Nazir ticarət mərkəzində icarədə olan sahibkarlara dəyən ziyanın müəyyənləşdirilməsi ilə bağlı görüşlərin keçirildiyini və ziyanla əlaqədar ilkin məlumatların alındığını diqqətə çatdırdı. O, sahibkarlara bir neçə istiqamətdə ilkin dövlət dəstəyinin göstəriləcəyini, müəyyən halda güzəştli kreditlərdən istifadə ilə bağlı mexanizm üzərində də işlənildiyini, sahibkarların yeni ticarət mərkəzi tikilənə qədər digər ticarət mərkəzlərində yerləşdirilməsi istiqamətində işlərin aparıldığını vurğuladı.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov yanğınla əlaqədar yerli icra hakimiyyəti tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, dünən və bu gün sahibkarlarla operativ görüşdüklərini, dəyən ziyanın aradan qaldırılması məqsədilə dövlət tərəfindən ilkin maliyyə dəstəyinin göstərilməsi ilə bağlı Prezidentin tapşırıqlarını onlara çatdırdıqlarını dedi və sahibkarların bu xəbəri yüksək minnətdarlıq hissi ilə qarşıladıqlarını vurğuladı.

***

Müşavirəyə yekun vuran Prezident İlham Əliyev dedi:

– Bir daha demək istəyirəm ki, ilk növbədə, yanğının səbəbləri tam araşdırılmalıdır. İlkin versiyalar var. Kamera müşahidəsi də deməyə əsas verir ki, yanğın haradan başlayıb. Bunu nəzərə alaraq yekun rəy əlbəttə ki, təqdim olunacaq. Eyni zamanda, bütün ticarət mərkəzlərində ciddi təftiş işləri aparılmalıdır, təhlükəsizlik tədbirləri gücləndirilməlidir. Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti qurumlar, Bakı Şəhər İcra Hakimiyyəti, rayon, şəhər icra hakimiyyətləri bu işlərlə çox ciddi məşğul olmalıdırlar. Təhlükəsizliklə bağlı olan bütün məsələlər ən yüksək standartlarda təmin edilməlidir.

Sahibkarlara gəldikdə, bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq. Onlara artıq bu məlumat verildi. Maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və müvafiq göstəriş verilib. Eyni zamanda, burada da qeyd olunduğu kimi, onlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar.

Beləliklə, hesab edirəm, görülmüş və görüləcək tədbirlər nəticəsində sahibkarlar bir daha görəcəklər ki, dövlət hər zaman onları dəstəkləyir. Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Azərbaycanda indi sahibkarlar sinfi yaradılıb. Sahibkarlar müxtəlif sahələrdə - həm istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir. Bildiyiniz kimi, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaqdır.

Qeyd etdiyim kimi, komissiya tezliklə fəaliyyətə başlamalıdır, bütün bu məsələləri araşdırmalıdır və yekun rəy təqdim etməlidir. Sağ olun.

# Baş prokuror Zakir Qaralovun yanında əməliyyat müşavirəsi keçirilib

**Azərbaycanın prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirib**



Yanvarın 4-də Baş Prokurorluqda 2018-ci ildə prokurorluğun mərkəzi aparatı tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, 2018-ci il xalqımız üçün çox uğurlu il olmaqla, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu siyasət nəticəsində ölkə həyatının bütün sahələrində böyük nailiyyətlərə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuş, hüquqi və demokratik dövlət quruculuğu prosesləri yeni müstəviyə qaldırılmaqla, dünya birliyinə inteqrasiya prosesləri dönməz xarakter almışdır. Dövlət başçısının Azərbaycan xalqına ünvanlanmış bayram təbrikində də ötən ilin ölkəmiz üçün əlamətdar olduğu və qarşıya qoyulmuş bütün vəzifələrin müvəffəqiyyətlə icra edildiyi, iqtisadiyyatın, əha-

linin pul gəlirlərinin əhəmiyyətli artımına nail olunduğu, mühüm infrastruktur layihələrinin reallaşdırıldığı, ölkəmizin dünya dövlətləri üzrə reytinqinin yüksəlməsi və nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən hərtərəfli dəstəklənməsi ilə nəticələnən makroiqtisadi göstəricilərə nail olunduğu xüsusi vurğulanmışdır.

Bildirilmişdir ki, yola saldığımız il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə qeyd olunması, aprelin 11-də seçicilərin mütləq əksəriyyətinin Heydər Əliyev siyası kursuna sonsuz inam və etibarının bariz nümunəsi olaraq cənab İlham Əliyevin yenidən dövlət başçısı seçilməsi, şanlı ordumuzun hərbi gücü və qətiyyəti sayəsində Günnüt kəndi və strateji əhəmiyyətli yüksəkliklərin işğaldan azad edilməsi, regionda sabitliyə, xalqlarımızın firavanlığına və iqtisadi inkişafa böyük töhfə verəcək Cənub Qaz Dəhlizinin, onun tərkib hissəsi olan TANAP layihəsinin istifadəyə verilməsi, Azərbaycanın Dünya Bankının "Doing Business 2019" hesabatında 10 ən islahatçı dövlət siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunmaqla 190 ölkə arasında 25-ci yerdə qərarlaşması, üçüncü peykimizin orbitə çıxarılması ilə əlaqədar Azərbaycanın kosmik sənaye ölkələri arasında mövqeyini daha da möhkəmləndirməsi, ölkəmizin mötəbər beynəlxalq tədbirlərə və idman yarışlarına ev sahibliyi etməsi kimi mühüm hadisələrlə tarixin yaddaşına həkk olundu.

Müşavirədə əldə olunan uğurların qazanılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü mötəbər işlər və həyata keçirdiyi layihələrin əhəmiyyəti xüsusi vurğulanmışdır.

Diqqətə çatdırılmışdır ki, 2018-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuşdur. Digər hüquq mühafizə orqanları ilə, ilk növbədə daxili işlər, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli birgə fəaliyyətin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan ötən illərin müsbət göstəriciləri hesabat dövründə də davam etdirilmişdir. Prokurorluq orqanlarının səyləri ilk növbədə Prezident cənab İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitliyin qorunmasına, dövlət maraqlarının müdafiəsinə, mövcud çatışmazlıqlar və neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilmişdir.

Xüsusi vurğulanmışdır ki, Prezident cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq prokurorluq orqanları tərəfindən ötən dövrlərdə olduğu kimi 2018-ci ildə də ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə uğurla davam etdirilmişdir. Baş İdarə tərəfindən digər cinayət işləri ilə yanaşı, qida təhlükəsizliyi, tikinti və şəhərsalma tələblərinin pozulması, həmçinin bank sektorunda yol verilmiş qanunsuzluqlarla əlaqədar bir sıra aktual cinayət işləri üzrə intensiv araşdırmalar aparılır. Qeyd edilmişdir ki, Baş İdarənin səmərəli fəaliyyəti nəticəsində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi mötəbər beynəlxalq təsisatlar tərəfindən verilmiş tövsiyələrin böyük əksəriyyəti uğurla icra edilmişdir.

Hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən respublikada ictimai rezonansa səbəb olmuş bir sıra cinayətlərin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin keyfiyyətli istintaq edilməsi və təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi təmin edilmişdir.

Hesabat dövründə Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun peşəkar əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş tədbirlərlə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində böyük ictimai rezonansa səbəb olan bir sıra cinayət işlərinin istintaqı müvəffəqiyyətlə aparılmışdır. Bu işlər sırasında radikal dindar Yunis Səfərovun iyulun 3-də Gəncə şəhər İcra Hakimiyyətinin başçısına və polis əməkdaşına qarşı məqsədyönlü şəkildə əvvəlcədən planlaşdırılmış terror aktı, həmçinin ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsi, terrorçuluq və sair xüsusilə ağır cinayət əməlləri törətdiklərinə görə istintaq edilən iş üzrə ümumilikdə, mütəşəkkil dəstənin üzvləri olan 18 nəfərin təqsirləndirilən

şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirlərinin seçilməsi təmin edilmiş, həmçinin 11 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində beynəlxalq axtarış elan olunmuşdur. Hazırda cinayətlərin törədilməsinə aidiyyəti olan bütün şəxslərin və cinayət xarakterli bütün xüsusatların müəyyənləşdirilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, Yunis Səfərovun müdafiəsi adı altında radikal dini yönümlü bir qrup şəxs tərəfindən Gəncə şəhər icra hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, xidməti vəzifələrini yerinə yetirən iki polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs qətimkan tədbiri seçilmiş, 1 nəfər barəsində isə həbsli axtarış elan olunmuşdur.

Həmin cinayət işindən 36 şəxs barəsində 4 cinayət işi ayrıca icraata ayrılaraq baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilmiş, hazırda cinayət işi üzrə digər şəxslər barəsində istintaq davam etdirilir.

Cinayətkarlığa qarşı mübarizə sahəsində terrorçuluq, müxtəlif xarakterli ekstremizm təzahürlərinə qarşı həyata keçirilən mübarizə tədbirləri də diqqət mərkəzində saxlanılmaqla yanaşı, cinayəti doğuran səbəb və şəraitin aşkarlanaraq müvafiq qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Müşavirədə Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının etibarlı təminatı sahəsində görülmüş işlər yüksək qiymətləndirilməklə, sərəncamla müəyyən edilmiş vəzifələrin vacibliyi bir daha vurğulanmışdır.

Baş prokuror dövlət ittihamının müdafiəsi zamanı neqativ hallara yol vermiş əməkdaşlar barəsində ciddi tədbirlər görülməsi, eləcə də bu sahədə əsaslı dönüş yaradılmasına dair konkret tapşırıqlar vermişdir.

Hesabat dövründə Dövlət başçısının gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarına işə qəbulun müsabiqə yolu ilə həyata keçirilməsinin prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi istiqamətində əldə edilmiş müsbət işlər diqqətə çatdırılmışdır.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2018-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılmışdır.

Əməliyyat müşavirəsində prokurorluq orqanlarında informasiya kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" İnformasiya proqramlarının tam fəaliyyət göstərməsi, bu sahədə həyata keçirilən işin səmərəliliyinin artırılması barədə konkret tapşırıqlar verilmişdir.

Bildirilmişdir ki, prokurorluğun fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddətlər ərzində aradan qaldırılması üçün konkret tapşırıqlar verilmişdir.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə 2018-ci ilin nəticələrinə görə artım tendensiyası müşahidə edilən cinayətlərin profilaktikası, bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində istintaq və əməliyyat-

axtarış tədbirlərinin kəsərliliyinin artırılması, xüsusilə də itkin düşmüş şəxslərlə bağlı açılmış axtarış işləri üzərində prokuror nəzarətinin daha da gücləndirilməsi istiqamətində daxili işlər orqanları ilə qarşılıqlı və əlaqəli şəkildə zəruri tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Bildirilmişdir ki, hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənmişdir. Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin xarici ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığı nəticəsində ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən şəxslərin tutularaq ölkəmizə ekstradisiyası həyata keçirilmiş, istintaqı aparılan cinayət işləri üzrə hüquqi yardım haqqında istintaq tapşırıqlarının icrası təmin edilmişdir.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi həssaslıqla yanaşılmışdır. Xüsusi vurğulanmışdır ki, Dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq Baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir.

Baş prokurorun birinci müavini Rüstəm Usubov hesabat ilində cinayətkarlığa qarşı mübarizə, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr, Baş prokurorun müavini Namiq Əsgərov 2018-ci ildə Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi ilə əlaqədar görülmüş işlər, Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov Baş Prokurorluğun 2018-ci ilin iş planının icra vəziyyəti və cari ilin birinci yarımili üçün iş planı barədə ətraflı məlumat vermişlər.

Baş Prokurorluğun əlaqədar struktur qurumlarına baş vermə müddətindən asılı olmayaraq əvvəlki illərdə törədilməklə bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması, səlahiyyət dairəsində olan bütün imkanlardan istifadə olunmaqla təqsirkar şəxslərin müəyyən olunmasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsində hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil və ciddi tənqid olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi zamanı yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunmuşdur.

Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələri, habelə digər struktur qurumların rəhbərlərindən tələb edilmişdir ki, əməkdaşların fəaliyyətlərində aşkara çıxarılan neqativ təzahürlərə qarşı mübarizə xətti qətiyyətlə davam etdirilsin, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi məsələlərində prinsipiallıq daha da artırılsın.

Eyni zamanda, 2018-ci il ərzində görülmüş işlərin vəziyyətinin ümumiləşdirilməklə nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində prinsipial müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror ümidvar olduğunu bildirmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2019-cu ildə də öz səlahiyyət hədləri daxilində Prezident cənab İlham Əliyevin rəhbəliyi altında həyata keçirilən müasir məzmunlu tədbirlərin reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkardlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasında zəruri tədbilərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluq**

# Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

**2018-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub**



Fevralın 7-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2018-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, 2018-ci ildə dünyada mövcud olan siyasi, iqtisadi və maliyyə böhranlarına baxmayaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlətçilik siyasəti və səriştəli idarəetmə qabiliyyəti nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuş, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlər yeni müstəviyə qaldırılmışdır.

2018-ci ildə ölkədə sənaye istehsalının, qeyri-neft sektorunun, əhalinin pul gəlirlərinin artması,




ölkə iqtisadiyyatına 17,2 milyard manat sərmayə qoyulmaqla 118 min daimi iş yerlərinin yaradılması xüsusi vurğulanmışdır. Ölkəmizin Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən qlobal rəqabətqabiliyyətliliyinə görə 35-ci yeri, inklüziv inkişaf indeksinə görə isə inkişaf etməkdə olan ölkələr sırasında 3-cü yeri tutması, həmçinin "Doing Business 2019" hesabatında yeni rekorda imza ataraq dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunması, 190 ölkə sırasında 25-ci yerdə qərarlaşması ölkəmizin keçdiyi inkişaf yolunun əyani göstəricisidir.

Uğurla yola saldığımız 2018-ci ilin mühüm əhəmiyyətə malik olan ictimai-siyasi tədbirin - növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin xalqla dövlətin vəhdətinin və birliyinin əyani təsdiqi və bariz nümunəsi olmasını diqqətə çatdıran Baş prokuror, demokratik prinsiplərə və beynəlxalq standartlara uyğun olaraq keçirilmiş seçkidə xalqımızın yekdilliklə ölkədə mövcud əmin amanlığın və həyata keçirilən sosial-iqtisadi siyasətin davamlılığına, xalqın rifahının və gələcəyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının sistemli və ardıcıl olaraq qorunmasına səs verdiyini qeyd etmişdir.

Bildirilmişdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə qeyd olunması, regionda sabitliyə, xalqlarımızın firavanlığına, Avropanın enerji təhlükəsizliyinə töhvə verəcək Cənub Qaz Dəhlizinin, onun tərkib hissəsi olan TANAP layihəsinin, həmçinin Türkiyənin İzmir şəhərində inşa edilmiş STAR neft emalı zavodunun istifadəyə verilməsi, ölkəmizin qlobal nəqliyyat-logistika qovşağına çevrilməsi istiqamətində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı, üçüncü peykimizin orbitə çıxarılması ilə əlaqədar Azərbaycanın kosmik sənaye ölkələri arasında mövqeyini daha da möhkəmləndirməsi, ölkəmizin mötəbər beynəlxalq tədbirlərə və idman yarışlarına ev sahibliyi etməsi dünyada Azərbaycanın geostrateji mövqeyini daha da gücləndirməkdədir.

Xüsusi vurğulanmışdır ki, əldə olunan uğurların qazanılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olmuşdur. Ölkəmizin

ictimai-siyasi, sosial-mədəni həyatında Mehriban xanım Əliyevanın gördüyü mötəbər işlər və həyata keçirtdiyi layihələr xalqımız tərəfindən dəstəklənməklə hər zaman yüksək qiymətləndirilmişdir.

Ötən il Dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində məqsədyönlü xarici siyasət tədbirləri davam etdirilməklə yanaşı, Milli Ordunun gücləndirilməsi, müasir ordu quruculuğu məqsədlərinə xidmət edən zəruri infrastrukturların yaradılması istiqamətində böyük işlər görülmüşdür.

Silahlı qüvvələrimizin təmas xəttində ərazilərimizin bir hissəsinin erməni qəsbkarlarından azad olunması, vətəndaşlarımızın düşmən təhdidlərindən qorunması üçün həyata keçirilmiş uğurlu Naxçıvan (Günnüt) əməliyyatı nəticəsində 11 min hektara yaxın ərazinin işğaldan azad edilməsi və strateji xarakter daşıyan yüksəkliklərin ələ keçirilməklə ordumuza Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmə imkanı yaratması xüsusi vurğulanmışdır.

Baş prokuror diqqətə çatdırmışdır ki, son zamanlar antimilli destruktiv qüvvələrin aktivləşməklə möhkəm özüllər üzərində təməli qoyulan ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönəlmiş hərəkətlərinin, icazəli mitinq keçirmək adı ilə vətəndaşların istirahət hüquqlarını, həmçinin Ümumxalq hüzn günündə şəhidlərimizin ruhuna hörmətsizlik edərək ictimai asayişi kobud şəkildə pozmaq cəhdlərinin, sosial şəbəkələr üzərindən etdikləri təhqir və böhtanlarının, ekstremist çağırışlarının qarşısı polis orqanları tərəfindən qətiyyətlə alınmışdır.

Xalqın dəstəyindən məhrum olan, nüfuzunu, sosial dayaqlarını tamamilə itirmiş, ölkəmizdə İslam dövləti yaratmaq xəyalında olan radikal-terrorçu qüvvələrlə işbirliyi qurmuş, ermənipərəst xarici dairələr tərəfindən idarə olunmaqla qanunsuz maliyyələşən AXCP və digər radikal müxalifət partiyaların ənənəvi inkarçı və qərəzli mövqedən çıxış edərək varlıqlarını sübut etmək naminə diqqəti özlərinə cəlb etməklə gündəmdə qalmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə çalışmaları diqqətə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişafı, xalqımızın rifah halının günü-gündən yaxşılaşması, xalq-iqtidar birliyinin sarsılmazlığından məyus və narahat olan, dövlətçiliyimizə qənim kəsilən, hakimiyyətə yiyələnmək üçün istənilən yola baş vurmağa, təxribatlar törətməyə hazır olan bu insanlar öz fəaliyyətlərini dağıdıcılıq planları üzərində quraraq ictimai-siyasi vəziyyəti süni şəkildə gərginləşdirməyə çalışmaları qeyd edilməklə, antimilli müxalifət düşərgəsinin təmsilçiləri və onların xaricdəki havadarlarının xalqımızı yenidən daxili çəkişmələrə, parçalanmaya və böhrana sürükləməklə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısının bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacağı vurğulanmışdır.

Hesabat məruzəsində qeyd edilmişdir ki, 2018-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuş, daxili işlər və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunmuşdur.

Hesabat dövründə prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə Dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi, yaranmasının 100 illik yubileyi münasibətilə cənab İlham Əliyevin Sərəncamı ilə qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında, korrupsiyaya qarşı mübarizədə, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında yüksək peşəkarlıq göstərdiklərinə, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə prokurorluq orqanlarının 43 əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsi, həmçinin 1 oktyabr tarixində prokurorluq əməkdaşlarına və veteranlara ünvanladığı təbrik müraciətinin kollektivin böyük sevincinə səbəb olduğu qeyd edilmişdir.

Bildirilmişdir ki, yubileylə əlaqədar dövlət başçısının göstərişi ilə Gəncə və Sumqayıt şəhər prokurorluqlarının ən müasir standartlara cavab verən yeni inzibati binaları tikilərək istifadəyə verilmiş, prokurorluğun keçdiyi inkişaf yoluna nəzər salınmaqla aparılan islahatlardan, görülən işlərdən bəhs olunan "Azərbaycan Prokurorluğu – bir əsrlik inkişaf tarixi" adlı kitabın təqdimatı keçirilmiş, həmçinin "Azərbaycan Prokurorluğu" jurnalının xüsusi buraxılışı dərc edilmişdir.

Kollegiya iclasında qeyd edilmişdir ki, Prezident cənab İlham Əliyevin siyasi fəaliyyətinin prioritet

istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı barışmaz mübarizə ötən dövrlərdə olduğu kimi 2018-ci ildə də davam etdirilərək bu sahədə həyata keçirilmiş kompleks tədbirlər ölkəmizə "dünyada ən islahatçı" ölkə imicini qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin etməyə imkan vermişdir.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən yüksək göstəricilərə nail olunmaqla 431 vəzifəli şəxs barəsində 278 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, həmin işlər üzrə 53.3 milyon manat məbləğində maddi ziyanın ödənilməsi təmin edilməklə 34.2 milyon manat dəyərində əmlak üzərinə həbs qoyulmuşdur.

Bildirilmişdir ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi fəaliyyətində respublikanın dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafına xüsusi önəm vermiş, hesabat dövründə Baş İdarə ilə Dövlət Gömrük və Dövlət Şəhərsalma və Arxitektura komitələri, Qida Təhlükəsizliyi Agentliyi, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında aidiyyəti sahələrdə korrupsiyaya qarşı birgə mübarizənin daha effektiv şəkildə təmin edilməsi məqsədilə anlaşma memorandumları imzalanmışdır.

Eyni zamanda, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlar və xarici ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə əməkdaşlıq inkişaf etdirilmiş, Baş İdarənin səmərəli fəaliyyəti nəticəsində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi mötəbər beynəlxalq təsisatlar tərəfindən verilmiş tövsiyələrin böyük əksəriyyəti uğurla icra edilmişdir.

Bundan başqa, dünya prokurorlarını bir qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyasının işində respublikamızın fəal iştirakı və səmərəli təmsilçiliyi nəzərə alınaraq, Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilmiş qurumun 23-cü illik konfransı və ümumi yığıncağında Azərbaycan Respublikasının Prokurorluğu xüsusi mükafatla-Assosiasiyanın Fəxri Sertifikatı ilə təltif edilməklə yanaşı, prokurorluq orqanlarının Assosiasiyanın fəaliyyətinə vermiş olduğu töfhələr və yüksək səviyyəli işgüzar əlaqələr əsas götürələrək Baş prokurorun müavini təşkilatın vitse-prezidenti vəzifəsinə seçilmişdir.

Bildirilmişdir ki, hesabat dövründə Baş Prokurorluğun Daxili İşlər Nazirliyi və digər əməliyyat qurumları ilə həyata keçirdiyi birgə səmərəli istintaq-əməliyyat tədbirləri nəticəsində qeydə alınmış 159 qəsdən adam öldürmə cinayətlərindən 153 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş və əksəriyyəti xüsusilə ağır cinayətlər olan, iki və daha çox şəxsin ölümü ilə nəticələnmiş 69 hadisənin isti izlərlə açılması təmin olunmuşdur. Qeydə alınmış 71 qəsdən adam öldürməyə cəhd cinayətlərindən 70 hadisənin açılması təmin olunmaqla, həmin cinayətlərin açılması 98,6 faiz təşkil etmişdir.

Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində respublikada böyük ictimai rezonansa səbəb olan bir sıra cinayət işlərinin istintaqı müvəffəqiyyətlə aparılması diqqətə çatdırılmışdır. Bu işlər sırasında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı törədilmiş terror aktı, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi, terrorçuluq və sair xüsusilə ağır cinayət əməlləri törətdiklərinə görə istintaq edilən iş üzrə ümumilikdə 29 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirlərinin seçilməsi təmin edilmiş, həmin şəxslərdən 11-i barəsində beynəlxalq axtarış elan olunmaqla hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, radikal dini yönümlü bir qrup şəxs tərəfindən Gəncə şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, 2 polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs qətimkan tədbiri seçilmiş, 1 nəfər barəsində isə həbsli axtarış elan olunmuşdur. Həmin cinayət işinin materiallarından 51 şəxs barəsində 6 cinayət işi ayrıca icraata ayrılaraq aidiyyəti üzrə baxılmaları üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər qurumlarla əlaqəli şəkildə Silahlı Qüvvələrdə cinayətkarlığa və digər hüquq pozuntularına qarşı mübarizə sahəsində səmərəli tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran Baş prokuror bildirmişdir ki, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər daha səmərəli olmuş, 2017-ci illə müqayisədə ötən il törədilmiş hərbi xidmət əleyhinə cinayətlər və qeyri-hərbi cinayətlər əhəmiyyətli dərəcədə azalmışdır.

Xüsusi olaraq, Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat və xüsusi xidmət orqanları ilə məxfi əməkdaşlığa cəlb olunmuş bir qrup hərbi qulluqçu və mülki şəxs barədə Cinayət Məcəlləsinin dövlətə xəyanət və digər maddələri ilə ibtidai istintaqı aparılmış cinayət işi qeyd edilməklə, uğurla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində düşmənin kəşfiyyat və xüsusi xidmət orqanlarının təxribat və terror fəaliyyətinin qarşısının alındığı, cinayət işi üzrə ibtidai istintaqın tamamlanaraq baxılması üçün müvafiq hərbi məhkəməyə göndərildiyi və həmin işlər üzrə cinayət məsuliyyətinə cəlb edilmiş bütün şəxslərin təqsirli bilinərək layiqli cəzalara məhkum edilmələri diqqətə çatdırılmışdır.

2018-ci ildə Bakı şəhər prokurorluğu tərəfindən cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində Bakı şəhər Baş Polis İdarəsi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə səmərəli fəaliyyət nəticəsində müsbət göstəricilər əldə edilmiş, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarət artırılmış, vətəndaşların müraciətlərinə baxılması, onların problemlərinin həll olunması istiqamətində müəyyən irəliləyişlər əldə olunmuşdur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü olan 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamın tələblərinin icrası istiqamətində ədliyyə və məhkəmə orqanları ilə birlikdə kompleks tədbirlər davam etdirilmiş, ötən illə müqayisədə respublika üzrə həbs qətimkan tədbirinin seçilməsində azalma müşahidə edilmişdir.

Kollegiya iclasında Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi tərəfindən məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının qorunmasının, insanların azadlıq hüququnun lüzumsuz məhdudlaşdırılmamasının təmin edilməsi, pozuntulara yol vermiş prokuror, müstəntiq və təhqiqatçılar barədə xüsusi qərarların çıxarılmasında prinsipiallıq nümayiş etdirilməsi əsas vəzifə kimi müəyyənləşdirilməklə qısa zamanda bütün neqativ təzahürlərin qarşısı alınması barədə tapşırıq verilmişdir.

Prezident cənab İlham Əliyevin dövlət gənclər siyasəti çərçivəsində ölkəmizdə həyata keçirilən mütərəqqi tədbirləri diqqətə çatdıran Baş prokuror, 2002-ci ildən başlayaraq prokurorluq orqanlarının vakant vəzifələrinin obyektiv meyarlarla və şəffaf prosedurlar əsasında gənc hüquqşünaslarla komplektləşdirilməsinin təmin edilməsi məqsədilə sağlam mənəviyyatlı, dövlətçiliyə sadiq, qanunun aliliyinə və milli dəyərlərə hörmətlə yanaşan, müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsini qeyd etmiş, indiyədək keçirilmiş 19 müsabiqə üzrə 873 namizədin, o cümlədən 2018-ci ildə 85 nəfərin qulluğa qəbul edilməklə onların prokurorluğun kadr tərkibinin 67 faizini təşkil etdiyini qeyd etmişdir.

Eyni zamanda, Baş Prokurorluq üzrə təsdiq edilmiş "Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında" Təlimata əsasən ali təhsil müəssisələrinin Hüquqşünaslıq ixtisası üzrə təhsilini davam etdirən tələbələrinin könüllü ictimai əsaslarla prokurorluqda işə cəlb edilməsi istiqamətində Kadrlar idarəsi, tabe rayon (şəhər) və ərazi hərbi prokurorları tərəfindən müvafiq tədbirlərin görülməsi istiqamətində müvafiq tapşırıqlar verilmişdir.

Ötən il prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənmiş, dövlət başçılarının səfərləri çərçivəsində Belarus və Tacikistan Respublikalarının prokurorluq orqanları ilə Əməkdaşlıq haqqında sazişlər imzalanmış, bir sıra dövlətlərin nümayəndə heyətləri ölkəmizdə səfərdə olmuşlar.

Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin xarici ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığı nəticəsində Daxili İşlər Nazirliyi ilə birlikdə ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən 30 şəxsin tutularaq ölkəmizə ekstradisiyası həyata keçirilmiş, istintaqı aparılan cinayət işləri üzrə hüquqi yardım haqqında istintaq tapşırıqlarının icrası təmin edilmişdir.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmışdır.

Xüsusi vurğulanmışdır ki, vətəndaşları narahat edən məsələlərin həllinə diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tələbi rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, vətəndaşların mütəmadi olaraq qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılmış, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

Vətəndaş müraciətləri üzrə natamam və qeyri-obyektiv yoxlamalar aparılması, süründürməçilik hallarına yol verilməsi, əsassız qərarlar qəbul edilməsi, vətəndaşlara müraciətləri üzrə formal və səthi cavabların verilməsi, qəbullarının keçirilməsi qaydalarının pozulması kimi çatışmazlıqların hələ də mövcud olduğu nəzərə alınmaqla, bütün struktur qurumların rəhbərləri və tabe prokurorlardan "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" əmrin qeyd-şərtsiz icrası, müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin daha da təkmilləşdirilməsi, bu sahədə bütün neqativ halların təxirəsalınmadan aradan qaldırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə edilməsi tələb olunmuşdur.

Dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq Baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir.

Qeyd edilmişdir ki, çox ciddi tələbkarlıq və prinsipiallıq şəraitinin yaradılmasına baxmayaraq, hesabat dövründə prokurorluq orqanlarında aparılmış xidməti yoxlamalar nəticəsində 31 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 16-na töhmət və şiddətli töhmət elan edilmiş, 1 nəfər aşağı vəzifəyə keçirilmiş, 8 nəfər vəzifədən azad edilmiş, 6 nəfər isə prokurorluq orqanlarından xaric olunmuşdur.

Uzun illər ərzində aparılan islahatlar nəticəsində prokurorluq orqanlarında şəffaflığın təmin edilməsi, neqativ hallara yol vermiş şəxslərin ifşa edilməsi istiqamətində çox mühüm işlər görülməklə prokurorluğun demokratik və hüquqi cəmiyyətdəki rolunun möhkəmləndiyini qeyd edən Baş prokuror, bu işlərin davamı olaraq ötən il prokurorluq işçisinin adına yaraşmayan hərəkətlərə yol verdiklərinə, qanunvericilikdə nəzərdə tutulan səlahiyyətləri çərçivəsindən kənar fəaliyyətlə məşğul olduqlarına, həmçinin formalaşmış nizam-intizam qaydalarının tələblərinə riayət etmədiklərinə görə bir sıra prokurorluq işçiləri barəsində ciddi tədbirlər görüldüyünü, o cümlədən İsmayıllı rayonunun sabiq prokuroru Ü.Abbasov və rayon prokurorunun sabiq böyük köməkçisi F.Quliyevin qabaqcadan əlbir olmaqla 2 sahibkardan külli miqdarda rüşvət alması ilə əlaqədar sonuncuların həbs olunmalarını və müvafiq məhkəmə hökmü ilə azadlıqdan məhrumetmə cəzalarına məhkum edildiklərini bildirmişdir.

Eyni zamanda, hesabat dövründə prokurorluq orqanlarında dövlət qulluqçusu kimi işləyən bəzi şəxslərin onlara həvalə olunmuş vəzifələri layiqincə yerinə yetirməməklə səlahiyyət hüdudlarından kənara çıxmaları və prokurorluğun nüfuzunu aşağı salan qeyri-prosessual münasibətlərə yol vermələri aşkarlanaraq barələrində müvafiq məsuliyyət tədbirləri görülmüşdür.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və bütün tabe prokurorlardan möhkəm nizam-intizam yaradılması məsələlərində prinsipiallığın daha da artırılması tələb olunmaqla, prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması hesabat ilinin əsas vəzifələrindən biri kimi qeyd edilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Baş prokurorun müavini-Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavini-Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Bakı şəhər prokuroru İlqar Abbasov, Gəncə şəhər prokuroru Fazil Həsənəliyev və Xocalı rayon prokuroru Kamran Məmmədovun çıxışlarında 2018-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində müvafiq tabe struktur qurumlar tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlar verilməklə, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətin səmərəliliyinin daha da artırılması, işin müasir məzmunda təkmilləşdirilməsi və mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş konkret təkliflər irəli sürülmüşdür.

Kollegiya iclasına yekun vuran Baş prokuror prokurorluq orqanlarının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcəkdir.

**Baş Prokurorluq**

# Hərbi Prokurorluqda kollegiya iclası keçirilib

**2018-ci ildə hərbi prokurorluq orqanları tərəfindən görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub**



Yanvarın 25-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda mərkəzi aparatın işçilərinin və ərazi hərbi prokurorlarının iştirakı ilə 2018-ci ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti, bununla əlaqədar Respublika Hərbi Prokurorluğunun struktur qurumlarında və ərazi hərbi prokurorluqlarında keçirilmiş əməliyyat müşavirələrinin nəticələri və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev əvvəlcə müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasətini zamanın tələblərinə uyğun olaraq ən yüksək səviyyədə davam etdirən möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə görülmüş nəhəng işlər və möhtəşəm tədbirlər nəticəsində 2018-ci ildə də dövlətimizin daha da qüdrətləndiyini, xalqımızın maddi və sosial rifah halının daha da yaxşılaşdırıldığını, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndiyini diqqətə çatdırmışdır.

Hərbi prokuror bildirmişdir ki, 2018-ci il bir sıra ölkə miqyaslı mühüm hadisələrlə yadda qalmışdır. Həmin hadisələrin ən önəmlilərindən biri «Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında» Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 may 2017-ci il tarixli Sərəncamına uyğun olaraq, şərqdə ilk demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin dövlət səviyyəsində qeyd edilməsi olmuşdur. Prezident cənab İlham Əliyevin 2018-ci ili «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan etməsi və onun «...Bu gün Cümhuriyyətin qurucuları Azərbaycanı görsələr, fəxr edərdilər. Biz də Cümhuriyyətin qurucuları ilə fəxr edirik...» sözləri qədim və zəngin dövlətçilik tariximizə dövlətimizin başçısı tərəfindən bəslənilən böyük ehtiramın növbəti göstəricisi olmuşdur.

Xanlar Vəliyev vurğulamışdır ki, 2018-ci ildə



ölkəmizdə baş verən ən mühüm siyasi hadisə, Azərbaycan xalqının ötən ildə əldə etdiyi ən böyük uğur hesab olunan aprel ayının 11-də demokratik, şəffaf və ədalətli şəkildə keçirilən növbədənkənar prezident seçkilərində zəngin biliyə, yüksək elmi təfəkkürə, möhkəm siyasi iradəyə, sarsılmaz qətiyyətə və mükəmməl rəhbərlik qabiliyyətinə malik şəxsiyyətin – cənab İlham Əliyevin xalqın böyük əksəriyyətinin inam və etimadını qazanaraq 86 faiz səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi olmuşdur.

Qeyd olunmuşdur ki, 2018-ci il həmçinin xalqımızın və dövlətçiliyimizin taleyində müstəsna rolu və misilsiz xidmətləri olan, müasir Azərbaycanın qurucusu və onun müstəqilliyinin memarı, ölkəmizi davamlı inkişaf yoluna çıxarmaqla dünya birliyinə qovuşdurmuş əvəssiz tarixi şəxsiyyət – ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinin Respublikamızda, eləcə də onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd edilməklə, silsilə tədbirlərin keçirilməsi və əbədiyaşar liderimizin xatirəsinin dərin ehtiramla anılması ilə yadda qalmışdır.

Bildirilmişdir ki, ötən ildə baş verən digər mühüm hadisələr 26 iyun və 15 sentyabr 2018-ci il tarixlərdə Azərbaycan Silahlı Qüvvələrinin və Bakı şəhərinin Qafqaz islam ordusu tərəfindən işğaldan azad edilməsinin 100 illiyi münasibətilə Bakı şəhərində təntənəli hərbi paradların keçirilməsi olmuş və həmin paradlarda hərbi potensialımızın bir hissəsinin nümayişi Silahlı Qüvvələrimizin, o cümlədən hərbiçilərimizin qüdrətini, nəyə qadir olduğunu, peşəkarlığını, yüksək döyüş ruhunu, torpaqlarımızı azad etməyə hər an hazır olduğunu bir daha göstərmişdir. 2016-cı ilin şərəfli aprel döyüşlərini xatırladan Hərbi prokuror bildirdi ki, 2018-ci ilin may ayında da atəşkəsi ciddi şəkildə pozaraq öz işğalçı niyyətini davam etdirmək istəyən düşməni növbəti dəfə uğursuzluğa düçar edən rəşadətli ordumuz Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi də daxil olmaqla 11 min hektardan artıq ərazini, düşməndən azad edərək dövlət sərhədi boyunca əlverişli əraziləri öz nəzarətinə götürmüşdür. Xüsusi vurğulandı ki, gələcək qələbələrimizin müjdəsi hesab edilən torpaqlarımızın tədricən işğaldan azad edilməsi-təcavüzkar Ermənistanda böyük rezonans doğurmaqla, torpaqlarımızın tezliklə düşmən tapdağından azad olunacağına xalqımızın ümidlərini artırmış, dövlət və ordu quruculuğu sahəsində Möhtərəm Prezidentimiz tərəfindən həyata keçirilən ardıcıl tədbirlərin səmərəli və əhəmiyyətli olduğunu bir daha təsdiq etmişdir.

Həmçinin 2018-ci ilin oktyabr ayının 1-də, yarandığı vaxtdan bəri bütün fəaliyyəti prosesində Azərbaycan xalqına və dövlətinə sıx bağlılığı, sədaqətli xidməti ilə seçilən, ölkəmizdə ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının qorunmasında əhəmiyyətli rol oynayan Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinin

keçirilməsi də əlamətdar hadisə kimi qeyd olunmuşdur.

Hərbi prokuror xüsusi vurğulamışdır ki, ölkəmizin hərtərəfli və sürətli inkişafında müstəsna rolu olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bütün sahələrə, xüsusən Azərbaycan elminə, mədəniyyətinə, təhsilinə, səhiyyəsinə göstərdiyi qayğı və diqqəti ölçüyəgəlməzdir. Onun, milli-mənəvi dəyərlərin qorunması və dünyada geniş təbliği istiqamətində gördüyü böyük işlər, sadalamaqla bitməyən çoxşaxəli zəngin fəaliyyəti dövlətçiliyimizin qüdrətlənməsinə töhfələr verməkdə davam edir. Mehriban xanım Əliyevanın tükənməz xeyirxah əməlləri, davranışı, mənsub olduğu xalqın milli mənəvi dəyərlərinə sadiqliyi, millətinə, dövlətinə sədaqəti və əsl azərbaycan xanımına xas digər nümunəvi xüsusiyyətləri, eləcə də bəşər mədəniyyətinin inkişafı istiqamətində gördüyü böyük işlər və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər, ona yalnız Azərbaycan xalqının deyil, eləcə də bir sıra ölkələrin vətəndaşlarının sonsuz məhəbbətini qazandırmışdır.

Dövlətimizin hərtərəfli inkişafının Silahlı Qüvvələrin fəaliyyətinə də müsbət təsir etdiyini bildirən Hərbi prokuror xüsusi vurğulamışdır ki, son illər Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuzun maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Bunun nəticəsində ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, şəxsi heyətin nizam-intizamının artırılması istiqamətində uğurlar əldə olunmuşdur. Azərbaycanda ordu quruculuğunun davam etdiyi yeni mərhələdə Hərbi Prokurorluq orqanlarının fəaliyyəti də işin səmərəliliyinin artırılmasına, Silahlı Qüvvələrdə hərbi intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, eyni zamanda ordu quruculuğuna mənfi təsir edə biləcək nöqsanların və qanun pozuntularının vaxtında aşkar edilərək aradan qaldırılmasına, bununla əlaqədar qanunamüvafiq zəruri tədbirlərin görülməsinə yönəldilmişdir.

Xanlar Vəliyev bildirmişdir ki, ötən il Silahlı Qüvvələrdə cinayətkarlığa və digər hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində görülən işlər də səmərəli olmuş, o cümlədən ibtidai istintaqın keyfiyyəti də artırılmışdır. Belə ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də istintaqçıların peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin 99,2 faizi açılmış, 2017-ci illə müqayisədə icraatına xitam verilmiş və icraatı dayandırılmış cinayət işlərinin sayı azalmış, istintaqı tamamlanaraq məhkəmələrə göndərilmiş cinayət işləri üzrə ittiham irəli sürülmüş təqsirləndirilən şəxslərdən bəraət alan olmamış, həmçinin məhkəmə baxışları zamanı təqsirləndirilən şəxslərin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edilmədiyindən, başqa ittiham irəli sürülməsi məsələsinə baxılması üçün CPM-nin 318.2-ci maddəsinin tələblərinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılan cinayət işləri olmamışdır.

Bildirilmişdir ki, 2017-ci illə müqayisədə 2018-ci ildə törədilmiş cinayətlər 12,6%, hərbi xidmət əleyhinə cinayətlər 4%, qeyri-hərbi cinayətlər 34,3%; böyük ictimai təhlükə törətməyən cinayətlər 4,6%, az ağır cinayətlər 2,8%, xüsusilə ağır cinayətlər 48,6%; xəstəlik nəticəsində ölüm halları 40%, düşmən tərəfindən açılan atəş nəticəsində ölüm halları 64,7%; qeydə alınmış korrupsiya xarakterli cinayətlər 24,7%; korrupsiya ilə əlaqədar dələduzluq cinayətləri 43,6%, rüşvət alma və rüşvət vermə cinayətləri 15,5% azalmışdır.

Xüsusi vurğulanmışdır ki, Silahlı Qüvvələrdə baş vermiş səbəbindən asılı olmayaraq istənilən ölüm faktı üzrə cinayət işi başlanılmış, bu qəbildən olan hər bir cinayət işinin istintaqı Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülməklə, iş üzrə hərtərəfli, tam, obyektiv və vaxtında ibtidai araşdırmanın aparılması, təqsirkar şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, eləcə də hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin olunmuşdur. Eyni zamanda hər bir cinayət işi üzrə ibtidai araşdırmanın aparılması zamanı cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait müəyyən edilməklə, müvafiq vəzifəli şəxsin ünvanına belə halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərilərək həmin halların qarşısının alınması, həmçinin iş üzrə əməllərində cinayət tərkibi olmayan, lakin başqa hüquq pozuntusuna yol vermiş şəxslərin digər müvafiq hüquqi məsuliyyətə cəlb edilməsi təmin edilmişdir. Bununla yanaşı, Silahlı Qüvvələrdə ayrı-ayrı, xüsusən də belə xarakterli cinayətlərin qarşısının alınması məqsədilə, hər il olduğu kimi, ötən il də məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək müxtəlif vaxtlarda Respublika Hərbi Prokurorluğunun kollegiya iclaslarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə

müzakirə edilmişdir. Bu kimi cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair kollegiyaların qərarlarına əsasən, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və başqa struktur qurumların rəhbərlərinə məlumat məktubları, silahlı birləşmələrin komandanlıqlarına təqdimatlar, ərazi hərbi prokurorlarına icmal-məktublar göndərilmişdir. Nəticədə 2017-ci illə müqayisədə 2018-ci ildə törədilmiş qəsdən adam öldürmə cinayətləri 61,5%, intihar hadisələri 23,1 % azalmışdır.

Hərbi prokuror bildirmişdir ki, cinayət hadisələrinin sayının azalmasında Hərbi Prokurorluq orqanlarının səmərəli fəaliyyətinin, eləcə də Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlarla yaradılmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin, həmçinin, hələ ilin əvvəlindən planlaşdırılmaqla, il ərzində mütəmadi həyata keçirilmiş müxtəlif xarakterli birgə tədbirlərin çox böyük əhəmiyyəti olmuşdur. Azərbaycan ordusunda və başqa silahlı birləşmələrdə insan hüquq və azadlıqlarına riayət olunmasını, qanunçuluğun və hüquq qaydasının qorunmasını təmin etmək məqsədilə 2018-ci ildə də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və digər hərbi qurumlarla birgə hazırladığı “Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə dair”, “Cinayətkarlığa qarşı mübarizəyə dair”, “Cinayət hadisələrinin qarşısının alınmasına dair”, “Hərbi qulluqçularda vətənpərvərlik hisslərinin gücləndirilməsinə dair” və sair mövzular üzrə tədbirlər planları əsasında adıçəkilən qurumların yüksək vəzifəli əməkdaşlarının iştirakı ilə səmərəli işlər görülmüş, eləcə də, mütəmadi olaraq hərbi qulluqçuların fərdi qəbullarının keçirilməsi təmin olunmuşdur. Eyni zamanda milli və rəsmi dövlət bayramlarında, digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçular və valideynlərinin iştirakı ilə bayram mərasimləri, o cümlədən konsertlər təşkil edilmiş və xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunmuşdur. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Sadalananlarla bərabər, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsini və bununla əlaqədar görülən işlərin səmərəliliyini artırmaq məqsədilə müxtəlif istiqamətlər üzrə bir neçə metodiki tövsiyələr və digər maarifləndirici vəsaitlər hazırlanmış və hərbi qulluqçulara çatdırılmışdır. Belə ki, Hərbi qulluqçuların qəbulu işini daha da təkmilləşdirmək, o cümlədən onların qayğı və problemləri ilə yerində maraqlanmaq, rastlaşdıqları çətinliklər barədə zamanında məlumat əldə etmək, eləcə də müraciətlərin operativliyini artırmaq məqsədi ilə “Ərazi hərbi prokurorluqlarının əməkdaşları tərəfindən hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkili və keçirilməsinə dair”; hərbi hissələrdə intihara meyilli hərbi qulluqçuların, belə şəxslərə mənfi təsir edə biləcək halların, onlarda psixi-emosional gərginlik yaradacaq amillərin vaxtında aşkar edilməsi və baş verə biləcək hadisələrin ən qısa zamanda qarşısının alınması məqsədi ilə preventiv və profilaktik tədbirlərin icrasını nəzərdə tutan “Silahlı Qüvvələrdə suisid hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin həyata keçirilməsinə dair” metodiki tövsiyələr hazırlanmış və istifadə olunması üçün ərazi hərbi prokurorluqlarına, Silahlı Qüvvələrin rəhbər heyətlərinə, birləşmə komandirlərinə, həmçinin briqada və dəstələrin komandir və şəxsi heyətlə iş aparan komandir müavinlərinə, eləcə də digər əlaqədar şəxslərə çatdırılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi də təmin edilmiş, vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, buna əvvəlkindən daha az vaxt sərf olunması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlər görülmüşdür. 2018-ci ildə hərbi prokurorluq orqanlarında vətəndaşların 2185 müraciətinə baxılmış və 1015 vətəndaş mərkəzi aparatda qəbulda olmuşdur.

Kollegiya iclasında qeyd olunmuşdur ki, 2018-ci ildə prokurorluq orqanlarında kadr siyasətinin həyata keçirilməsi istiqamətində məqsədyönlü tədbirlər davam etdirilmiş, o cümlədən kadrların şəffaf və obyektiv meyarlar əsasında seçilib yerləşdirilməsi və vəzifədə irəli çəkilməsi üçün zəruri tədbirlər görülmüşdür.

Bildirilmişdir ki, hesabat dövründə dövlət ittihamının müdafiəsi şöbəsi tərəfindən birinci instansiya hərbi məhkəmələrinin hökm və qərarlarından verilmiş protestlərin 45%-i təmin olunmuş, o cümlədən 2 şəxs barəsində əsassız olaraq çıxarılmış iki bəraət hökmündən verilmiş apellyasiya protestləri də təmin edilərək, ittiham hökmləri çıxarılmışdır.

Xanlar Vəliyev, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində törədilmiş bütün cinayətlərin, o cümlədən sülh və insanlıq əleyhinə olan cinayətlərin, müharibə, terrorçuluq cinayətlərinin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilib mövcud qanunvericiliyə əsasən

cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə Hərbi Prokurorluqda aparılan istintaq barədə müşavirə iştirakçılarına məlumat verərək bildirmişdir ki, həmin cinayət işləri üzrə hazırda intensiv istintaq-əməliyyat tədbirləri yerinə yetirilir. Qeyd olunmuşdur ki, 2018-ci ildə Xüsusi istintaq şöbəsində icraatda olmuş cinayət işləri üzrə bir təqsirləndirilən şəxs K.A.Ğazaryana Azərbaycan Respublikası CM-nin 29,120.2.1; 29,120.2.7; 29,120.2.12; 214.2.1; 214.2.3 və digər maddələri ilə ittiham elan edilmiş və Qazax rayon məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilərək, cinayət işinin istintaqı tamamlanıb, baxılması üçün aidiyyəti üzrə Gəncə Ağır cinayətlər məhəkəməsinə göndərilmişdir.

Qeyd olunmuşdur ki, 2018-ci ildə Memorial Soyqırım Muzeyinin fəaliyyəti ilə bağlı müəyyən işlər görülərək, obyektiv həqiqətlər-Azərbaycan xalqına qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlər, o cümlədən xalqımızın tarixi torpaqlarından zorla çıxarılması üçün həyata keçirilmiş deportasiya siyasəti, azərbaycanlılara qarşı xüsusi amansızlıqla və qəddarlıqla törədilən kütləvi qırğınlar barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və ətraflı məlumatların verilməsi, gənclərin və hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi vətəndaşlarımızda milli ruhun daha da yüksəldilməsi məqsədilə müxtəlif dövlət qurumlarına və ictimai təşkilatlara məktublar göndərilmiş və muzeyi ziyarət edən 4000-dən artıq şəxsin ekskursiyası təmin olunmuşdur. Vurğulanmışdır ki, yarandığı vaxtdan hazıradək muzeyi 20.000 nəfərə yaxın şəxs ziyarət etmişdir.

Kollegiya iclasında görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmuşdur. İbtidai istintaq və təhqiqat üzərində prosessual rəhbərliyin həyata keçirilməsi, baş vermiş cinayət hadisələri nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş maddi ziyanın ödənilməsi, dövlət ittihamının müdafiəsi, müraciətlərə baxılması və vətəndaşların qəbulu ilə əlaqədar işin təşkilində yol verilmiş nöqsanlar və çatışmazlıqlar ciddi tənqid olmuş, onların aradan qaldırılması üçün konkret göstərişlər verilmişdir.

Xanlar Vəliyev Azərbaycan Prezidentinin "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" 2009-cu il 22 iyun tarixli Fərmanında və 2016-cı il 27 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda rüşvətxorluğa və korrupsiyaya qarşı daha da ciddi mübarizə aparılması, ictimai nəzarətin gücləndirilməsi ilə əlaqədar prokurorluq orqanlarının üzərinə çox böyük məsuliyyət qoyulduğunu qeyd edərək bildirilmişdir ki, bu qəbildən olan cinayətlərin aşkarlanması istiqamətində struktur qurumları tərəfindən bir sıra işlər görülsə də, bu sahədə tədbirlərin səmərəliliyi və intensivliyi daha da artırılmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət orqanlarının fəaliyyətinin yaxşılaşdırılması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin daha da təkmilləşdirilməsi barədə tövsiyə və tapşırıqları bir daha müşavirə iştirakçılarının diqqətinə çatdırılaraq onlara əməl edilməsi hər bir əməkdaşdan ciddi tələb edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasında Respublika Hərbi prokurorunun müavinləri Şəfahət İmranov və Rasim Kazımov, Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru Yaşar Həsənov, Silahlı Qüvvələrdə qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin rəisi Toğrul Hüseynov, Bakı hərbi prokuroru İmran Əhmədov, Sumqayıt hərbi prokuroru Zöhrab Kazımov və Qarabağ hərbi prokuroru Fərid Şükürov çıxış edərək hesabat dövründə görülmüş işlərdən danışıb, nöqsanların aradan qaldırılması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığa qarşı səmərəli mübarizənin təmin olunması ilə əlaqədar hərbi prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görüləcək tədbirlər barədə ətraflı məlumat vermişlər.

Sonda Respublika hərbi prokuroru Xanlar Vəliyev Kollegiya iclasına yekun vuraraq bildirmişdir ki, Hərbi Prokurorluq orqanları Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi yüksək qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, Silahlı Qüvvələrdə intizamın daha da möhkəmləndirilməsini, insan və vətəndaş hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, habelə hüquq pozuntularına, o cümlədən cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirlərin görülməsini bundan sonra da davam etdirəcəkdir.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

**2018-ci ildə Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən görülən işlərin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub**



Yanvarın 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2018-ci ildə görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq qeyd etdi ki, ümummilli lider Heydər Əliyev siyasi dühasının bəhrəsi olan və öz inkişaf tarixinin yeni yüksəliş mərhələsini yaşayan respublikamızda ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində ölkəmiz daha da qüdrətlənərək xalqımızın həyat səviyyəsi yüksəlmiş, demokratik dəyərlərin hər tərəfli bərqərar olunması sahəsində böyük uğurlar əldə edilib. 2018-ci ildə keçirilən prezident seçkilərində cənab İlham Əliyevin xalqın böyük etimadını və mütləq əksəriyyətin səsini qazanaraq yenidən ölkə başçısı seçilməsi Azərbaycan xalqının ulu öndər Heydər Əliyev ideyalarına və siyasətinə sadiqliyinin bariz nümunəsidir.

Ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin işğaldan, labüd təhlükələrdən xilas edərək müasir inkişaf yoluna çıxardığı Naxçıvan Muxtar Respublikası bu gün böyük quruculuq proqramlarının əzmlə həyata keçirildiyi diyara çevrilib. Muxtar Respublikanın sürətli və hərtərəfli yüksəlişi müstəqil Azərbaycan dövlətinin tarixi naliyyətlərindən biri, müasir inkişafın real təzahürüdür. 2018-ci ildə Naxçıvan Muxtar Respublikasına növbəti səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin."- dəyərli fikirləri ilə Naxçıvan Muxtar Respublikası rəhbərinin əməyinə yüksək qiymət verməsi bizim hər birimizin üzərinə daha da yaxşı işləmək vəzifəsi qoymuşdur.

27.12.2018-ci il tarixdə keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Naxçıvan Muxtar Resublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarına dair məruzəsində "Əhali arasında hüquq

maarifi və profilaktiki tədbirlərin gücləndirilməsinin nəticəsidir ki, cinayətkarlıq üzrə göstəricilərin aşağı səviyyədə olması qorunub saxlanılmışdır" kimi fikirləri biz prokurorluq işçilərinin üzərinə mühüm vəzifələr qoyub. Muxtar Respublikada cinayətkarlığın aşağı səviyyədə olması prokurorluq orqanlarını arxayınlaşdırmamalı, bundan sonra da cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün işlərini digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə qarşıya qoyulan yüksək tələblər səviyyəsində qurmalıdırlar.

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu və memearı Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

1918-ci il 1 oktyabr tarixindən fəaliyyətə başlamış milli prokurorluq orqanlarının inkişafı, dünya standartlarına uyğun, müasir tələblərə cavab verən prokurorluq sistemi kimi formalaşması ulu öndər Heydər Əliyevin adı və həyata keçirdiyi islahatlarla bağlıdır. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı nəticəsində Muxtar Respublikanın prokurorluq orqanlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb.

2018-ci ilin oktyabr ayında prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyi təntənəli şəkildə qeyd edilib. Dövlətçilik ideyalarına sadiqliyi və xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə Muxtar Respublika pokurorluğunun bir qrup əməkdaşı Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə orden və medallarla təltif edilib.

Muxtar Respublika Prokurorluğu digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, dövlət müstəqilliyimizin, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərib.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 27.07.2015-ci il tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Muxtar Respublikası Prokurorluğunda olan Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələrinə kitabxana fondu, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, ittihamı elanetmə qaydaları və ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında məlumatlar verilib, prokurorluğun fəaliyyət istiqamətləri ilə bağlı slaydlar nümayiş etdirilib.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması məqsədilə prokurorluq orqanlarının əməkdaşları digər müvafiq qurumlarla əlaqəli şəkildə bu sahədə tədbirləri mütəmadi olaraq davam etdirirlər.

Muxtar Respublika ərazisində hesabat dövründə baş verən cinayət hadisələrinin açılması 100 faiz təmin edilib, lakin cinayətlərin baş vermədən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməli, bundan sonra cinayət hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Qeyd olundu ki, peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi baş verməyib. Yetkinlik yaşına çatmayanlar və narkomanlar tərəfindən cinayət hadisələri törədilməsi halları qeydə alınmasa da, əvvəllər məhkum olunanlar və sərxoşlar tərəfindən cinayət hadisələrinin törədilməsi hallarının qeydə alınması bu kateqoriyadan olan şəxslər tərəfindən cinayət hadisəsinin törədilməsinin qarşısının alınması üçün bütün qabaqlayıcı-profilaktik tədbirlərdən səmərəli istifadə edilməsini zəruri edir.

Prokurorluq və daxili işlər orqanları tərəfindən keçmiş illərdə baş verib qapalı qalan 3 cinayət işinin açılması təmin edilsə də, Prokurorluğun müvafiq şöbələri və tabe rayon (şəhər) prokurorları aidiyyəti orqanlarla əlaqəli şəkildə hər bir cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyinin və kəsərliliyinin artırılması üçün konkret tədbirlər görməlidirlər.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət hadisələri hələ də baş verdiyindən Muxtar Respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq rayon (şəhər) prokurorları bu sahəyə diqqəti artırmalı, aşkar oluna biləcək hər bir fakt üzrə narkotik vasitənin əldə edilmə mənbəyi müəyyənləşdirilərək təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələrini təmin etməli, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirməlidirlər.

Qeyd olundu ki, Prokurorluq orqanlarında 8 cinayət işi istintaq olunub, istintaq zamanı müəyyən olunan 253162 manat məbləğşində maddi ziyanın 94873 manatı ibtidai istintaq dövrü ödənilib. Prokurorluq orqanlarına törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatların həlli zamanı müddət və qanun pozuntularına yol verilməyib, qəbul edilən qərarlardan ləğv ediləni olmayıb.

Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən birinci instansiya məhkəmələrində 28 iş üzrə ittiham hökmləri çıxarılıb, 2 iş üzrə isə cinayət işinin icraatına xitam verilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 24 cinayət işinin ilkin baxışı keçirilərək onların barəsində müvafiq qərarlar qəbul olunub. Bundan başqa, şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üzrə 40 işə baxılaraq nəticə verilib.

Naxçıvan Muxtar Respublikasının Daxili işlər orqanlarında 22, Ədliyyə Nazirliyində 3, Dövlət Təhlükəsizlik Xidmətində 3, Dövlət Gömrük Komitəsində isə 12 cinayət işi istintaq olunub.

Cinayət işlərinin istintaqı zamanı prosessual qanunvericiliyin tələblərinə əməl edilib, istintaqı tamamlanan işlərdən məhkəmə və prokurorluq tərəfindən əlavə istintaqa qaytarılanı olmayıb, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə, tutma hallarına yol verilməyib. Müvafiq prokurorlar tərəfindən 25 əməliyyat-qeydiyyat işi öyrənilib.

Muxtar Respublika Prokurorluğu orqanlarının iş planlarında nəzərdə tutulan bütün məsələlər vaxtında və keyfiyyətli icra olunub, iş planlarının icrası zamanı inzibati qanunvericiliyin tələblərinin pozulması halları aşkar edildiyindən yol verilən nöqsanların aradan qaldırılması üçün 4 halda təqdimat verilib.

Qeyd olundu ki, prokurorluq orqanları tərəfindən vətəndaşların müraciətlərinə xüsusi qayğı və diqqətlə yanaşılaraq prokurorluq əməkdaşlarının əhali ilə birbaşa təmasda olma halları artırılıb. Prokurorluq orqanlarına vətəndaşlardan 64 müraciət daxil olub, 341 nəfər müvafiq prokurorlar tərəfindən qəbul edilərək qanuni tədbirlər görülüb.

Muxtar Respublikanın Prokurorluq orqanları tərəfindən qanunvericiliyini zahı, hüquqi maarifləndirmə və profilaktika işi daha da gücləndirilərək cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqət qanuvericiliyin izahı, hüquqi maarifləndirmə və həyata keçirilən profilaktiki tədbirlərin kəsərliliyinin artırılmasına yönəlib. Qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə bağlı 771 halda təbliğat işi aparılıb, kütləvi informasiya vasitələrində 464 dəfə, o cümlədən televiziyada 74 (“Qanunçuluq” proqramında 14), radioda 28, mətbuatda 240, internet səhifələrində isə 122 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilibr. Naxçıvan şəhər, Babək, Şərur və Sədərək rayon prokurorluqları tərəfindən kütləvi informasiya vasitələri ilə əlaqələr daha səmərəli təşkil olunub.

Muxtar Respublikanın müasir inkişafı, tarixi-mədəni irsi haqqında materiallar yerləşdirilərək təbliğat işi aparmaq, Muxtar Respublika əhəmiyyətli tədbirlərin materiallarının və Muxtar Respublika Prokurorluğunun fəaliyyətinin təşkili barədə məlumatların Naxçıvan Muxtar Respublika Prokurorluğunun internet saytında yerləşdirərək veb-saytın texniki imkanlarını və informasiya yükününün artırılması məqsədilə Muxtar Respublika Prokurorluğunun 11 bölmədən ibarət yeni veb-saytı yaradılıb.

Prokurorluğun Hüquqi təminat və informasiya şöbəsi tərəfindən www.prokurorluq.nakhchivan.az və www.naxçıvantv.az saytlarında, və “Nuhçıxan” İnformasiya Agentliyində “Hüquq guşəsi” yaradılıb ki, burada vətəndaşlardan onlayn qaydada daxil olan sualları hüquqi cəhətdən cavablandırılır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun 23.04.2018-ci il tarixli 16/132 №-li icmal məktubunda “Baş Prokurorluq üzrə “Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında” 27 iyun 2005-ci il tarixli 09/62 nömrəli əmrinin icrası ilə əlaqədar 2017-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktub”da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunub.

Prokurorluq orqanları tərəfindən qanunvericiliyin sistemləşdirilməsi sahəsində “Prokurorluq orqanlarında hüquqi təminat və qanunvericiliyin sistemləşdirilməsi işinin əsaslı yaxşılaşdırılması tədbirləri haqqında” 27.02.2001-ci il tarixli 02/45 №-li və “Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılması Qaydaları haqqında” Təlimatın təsdiq edilməsi barədə” 02.04.2004-cü il tarixli 08/19 №-li əmrlərin tələblərinə əməl edilib.

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş və 23.11.2007-ci il tarixli Fərmanı ilə dəyişikliklər edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnaməyə və “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları”na müvafiq olaraq 10.11.2017-ci ildə 9 ştat vahidi üzrə işə qəbulla əlaqədar elan edilən müsabiqə nəticəsində 5 nəfər Muxtar Respublika Prokurorluğu orqanlarına, 3 nəfər isə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna işə qəbul edilib.

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə sədaqətlə xidmət edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənildi.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Bakı şəhər prokurorluğunda əməliyyat müşavirəsi keçirilib

**2018-ci ildə Bakı şəhər prokurorluğunda və Bakı şəhərinin rayon prokurorluqlarında görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub**



Yanvarın 24-də Bakı şəhər prokurorluğunda mərkəzi aparatın və ərazi rayon prokurorluqları işçilərinin iştirakı ilə 2018-ci ildə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov bildirmişdir ki, hesabat dövründə şəhərin prokurorluq orqanları cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində paytaxtın digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək müəyyən nəticələr əldə etmişdir.

Qeyd edilmişdir ki, 2017-ci ildə şəhər ərazisində prokurorluq və polis orqanları üzrə 12122 hadisə qeydə alındığı halda 2018-ci ildə 309 hadisə, yəni 2,5% azalaraq 11813 hadisə olmuş, qeydə alınmış cinayətlərin açılma faizi 0,2% çoxalaraq 80,2%, ağır və ya xüsusilə ağır cinayətlərin sayı isə 582 hadisə və ya 30,8% azalaraq 1308 olmuşdur.

2018-ci ildə qeydə alınmış 66 qəsdən adam öldürmə cinayətinin (2017-ci ildə 59 hadisə) 4-ü istisna olmaqla (3 fakt şəxslərin xəbərsiz itkin düşməsi ilə bağlı olmuşdur), habelə 32 qəsdən adam öldürməyə cəhd cinayətinin (2017-ci ildə 38 hadisə) açılması təmin edilmişdir.

Hesabat dövründə 76 quldurluq hadisəsi əvvəlki illə müqayisədə 8 hadisə çox olmuş, onlardan 8-i, qeydə alınmış ölümlə nəticələnən 212 yol-nəqliyyat hadisəsindən isə 3-ü bağlı qalmışdır.

2018-ci ildə şəhərin prokurorluq və daxili işlər orqanları tərəfindən istintaq edilmiş işlərin təhlili göstərir ki, prokurorluqda icraatda olan 1115 işdən 547-i, daxili işlər orqanlarının istintaq aparatlarının icraatında olan 12390 cinayət işindən 4226-nın istintaqı tamamlanmışdır.

2018-ci ildə baş vermiş cinayətlər nəticəsində prokurorluqda, o cümlədən Bakı şəhər prokurorluğunun İstintaq idarəsində aparılan cinayət işləri üzrə fiziki

və hüquqi şəxslərə vurulmuş 6 milyon 518 min manat maddi ziyandan 4 milyon 386 min manatı (67.3%), polis orqanlarında aparılan işlər üzrə isə vurulmuş 28 milyon 862 min manat maddi ziyandan 25 milyon 80 min manatı (86,9%) istintaq zamanı ödətdirilmişdir.

Nəzərə çatdırılmışdır ki, vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqları rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, mütəmadi olaraq Bakı şəhər, rayon prokurorluqlarında, eləcə də yaşayış yerlərində vətəndaşların qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılmış, şikayətləri yaradan səbəblərin aradan qaldırılmasına, qanunauyğun və ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

Hesabat dövründə şəhər prokurorluğu orqanlarına 15745 müraciət daxil olmuş, həmin müraciətlərdən 4105-i həll edilmiş, o cümlədən 1404 müraciət təmin edilmişdir. 2018-ci il ərzində 5866 vətəndaş qəbul edilmişdir.

Müşavirədə hesabat dövründə əldə edilmiş müsbət nəticələrlə yanaşı yol verilmiş nöqsanlar hər bir rayon prokurorunun diqqətinə çatdırılmışdır. Eyni zamanda qəsdən adam öldürmə, quldurluq və yol nəqliyyat hadisələrindən bağlı qalan cinayət faktlarının, eləcə də bağlı oğurluq hadisələrinin tezliklə açılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi, habelə axtarışda olan, xəbərsiz itkin düşmüş şəxslərin tapılması istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirlərinin aparılmasının, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayət nəticəsində vurulmuş ziyanın istintaq zamanı ödətdirilməsi sahəsində olan nöqsanların aradan qaldırılmasının zəruriliyi vurğulanmışdır. Həmçinin istintaq və təhqiqat fəaliyyətində aşkar edilmiş nöqsanlar, qanun pozuntuları, süründürməçilik halları təhlil edilərək onların aradan qaldırılması tələb edilmişdir.

Əməliyyat müşavirəsində bildirilmişdir ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılmışdır.

2018-ci ildə müxtəlif xətalar törətdiklərinə görə Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmrləri ilə 12 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 3 nəfər tutduğu vəzifədən azad olunmuş, 2 nəfər prokurorluq orqanlarından xaric edilmişdir.

Tələb edilmişdir ki, şəhər prokurorluğunun bütün struktur qurumlarında xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi, tapşırılan işə görə əməkdaşların məsuliyyət hissinin və neqativ təzahürlərə münasibətdə prinsipiallığının artırılması üçün ən qəti tədbirlər görülsün.

Bakı şəhər prokurorunun müavini Azər Əsgərov, Bakı şəhərinin rayon prokurorları hesabat dövründə görülmüş işlər, yol verilmiş nöqsanlar və qarşıda duran vəzifələr barədə müşavirə iştirakçılarına ətraflı məlumat vermişlər.

Yekunda şəhər prokuroru İlqar Abbasov hər bir prokurorluq əməkdaşının prokurorluq orqanlarına dövlət səviyyəsində göstərilən böyük etimadı doğruldacağına, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində öz qulluq və vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə etmişdir.

**Bakı şəhər prokurorluğu**

# Azərbaycan Prokurorluğunun kollektivi Şəhidlər xiyabanını ziyarət edib

### Prokurorluq işçiləri 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər

Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri 20 Yanvar faciəsinin 28-ci il dönümü ilə əlaqədar Ümumxalq Hüzn Günü – yanvarın 20-də Şəhidlər xiyabanına gələrək şəhidlərin xatirəsini dərin ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar, “Əbədi məşəl” abidəsinin önündə baş əyiblər.

**Baş Prokurorluq**

# Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında əməkdaşlıq haqqında Saziş imzalanıb

**Azərbaycan və Belarusun İstintaq orqanları terrorçuluğa qarşı birgə mübarizə aparacaq**



Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Belarus İstintaq Komitəsinin sədri İvan Noskeviçin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir.

Martın 14-də Belarus Respublikasının İstintaq Komitəsinin nümayəndə heyəti Fəxri Xiyabana gələrək Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuşdur. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülmüşdür. Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzmüş, “Əbədi Məşəl” abidəsinin önünə əklil qoymuşlar.

Daha sonra nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilmişdir.

Qonaqları səmimi salamlayan Baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafında Azərbaycan və Belarus dövlətlərinin sınanmış liderləri cənab İlham Əliyev və cənab Aleksandr Lukaşenkonun müstəsna xidmətlərini, ölkə rəhbərlərinin başçılığı ilə nümayəndə heyətlərinin çoxsaylı qarşılıqlı səfərlərinin əhəmiyyətini xüsusi qeyd etmişdir. Məhz bu münasibətlərin ölkələrimizin daha da yaxınlaşması, hər iki respublikanın müxtəlif dövlət təsisatları, o cümlədən prokurorluq və istintaq orqanları arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafı yolunda böyük stimul olduğu bildirilmişdir. Bu əlaqələr çərçivəsində 2018-ci ilin noyabr ayında “Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının Baş Prokurorluğu arasında





əməkdaşlıq haqqında Saziş"in imzalanmasının ölkələrimizin prokurorluq və istintaq orqanları arasında münasibətlərin məzmunca yeni müstəviyə qaldırılmasında mühüm rol oynadığı diqqətə çatdırılmışdır.

Görüşdə Baş prokuror son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat vermişdir.

Belarusun Azərbaycanla hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini deyən İ.Noskeviç iki ölkənin istintaq orqanları arasında münasibətlərin dərinləşməsi üçün böyük perspektivlərin olduğunu bildirərək, qarşılıqlı səmərəli əlaqələrin daha da genişlənməsində maraqlı olduğunu vurğulamışdır.

Görüşdə hər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa, o cümlədən terrorçuluq və ekstremizmə qarşı birgə mübarizə sahəsində geniş fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Müzakirələrin nəticəsi olaraq iki dövlət orqanı arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən "Əməkdaşlıq haqqında saziş" imzalanmışdır.

Saziş cinayətkarlıq və terrorçuluğa qarşı mübarizə, xüsusən də onun mütəşəkkil formaları, korrupsiya, iqtisadiyyat və yüksək texnologiyalar sahəsində cinayətlər və cəmiyyət üçün ciddi təhlükə təşkil edən digər cinayətlərin qarşısının alınmasında birgə əməkdaşlığı, informasiya və təcrübə mübadiləsini, hüquqi yardim və digər sahələri əhaətə edir. Saziş mövcud münasibətlərin yeni səviyyəyə qaldırılması, ölkələrimizin tərəfdar olduğu beynəlxalq əməkdaşlığa dair sənədlərin icra olunmasının ikitərəfli səviyyədə təsdiqlənməsi, tərəflər arasında qarşılıqlı etimadın bir daha bəyan edilməsi və bir-birinin milli qanunvericiliyinə hörmətin ifadə olunması baxımından xüsusi əhəmiyyətə malikdir.



Belarus nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyi, Azərbaycan-Belarus münasibətlərinə həsr olunmuş ekspozisiyalarla tanış olmuş, onlara Azərbaycan dövləti, onun hüquq sistemi, ölkə başçısının rəhbərliyi altında aparılan islahatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən xüsusi hazırlanmış guşə təqdim edilmişdir.

Belarus nümayəndə heyəti daha sonra Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuşdur.

Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev qonaqlara prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan islahatlar, Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Nümayəndə heyəti milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş İdarənin inzibati binasında normativ hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitab portallarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olmuşdur.

Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Belarus İstintaq Komitəsinin sədri İvan Noskeviç korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir. O, korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını diqqətə çatdırmışdır.

Nümayəndə heyətinin üzvlərinin çirkli pulların yuyulması ilə mübarizə istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər və prokurorluq orqanları tərəfindən bu qəbildən olan cinayət işləri üzrə ibtidai araşdırmaların aparılması sahəsindəki fəaliyyətə dair sualları ətraflı cavablandırılmışdır.

Görüşdə korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılmışdır.

Daha sonra qonaqlar Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində olmuşdur. Nümayəndə heyətinə idarədə istintaq edilən sülh və insanlıq, şəxsiyyət, dövlət hakimiyyəti əleyhinə, iqtisadi və digər sahələrdə törədilən ağır və xüsusilə ağır cinayətlərin istintaqı ilə bağlı ətraflı məlumat verilmişdir.





İvan Noskeviç kriminalistik işinin təşkili, eləcə də “Elektron cinayət” və “Elektron sənəd dövriyyəsi” informasiya proqramlarının Azərbaycan təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını diqqətə çatdırmışdır.

**Baş Prokurorluq**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

## Baş prokuror Zakir Qaralov Şamaxı rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov yanvarın 25-də Şamaxı rayon prokurorluğunun inzibati binasında Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Kürdəmir və Göyçay rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Şamaxı rayon İcra Hakimiyyətinin başçısı xalqın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 28 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

## Baş prokuror Zakir Qaralov Salyan rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov fevralın 22-də Salyan rayon prokurorluğunun inzibati binasında Şirvan şəhər, Hacıqabul, Sabirabad, Salyan və Saatlı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Salyan rayon İcra Hakimiyyətinin başçısı xalqın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 24 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

## Baş prokuror Zakir Qaralov Biləsuvar rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov martın 29-da Biləsuvar rayon prokurorluğunun inzibati binasında Biləsuvar, İmişli, Cəlilabad, Neftçala və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı xalqın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 34 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

***

Qəbullarda vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

**Baş Prokurorluq**

# Baş Prokurorluqda könüllülərlə görüş keçirilib

**Prokurorluq orqanlarının fəaliyyətinə ictimai köməkçi qismində könüllü gənclər cəlb edilirlər**



Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarının fəaliyyətində gənclərin iştirakı müasir dövrün tələbləri səviyyəsində davam etdirilir.

Ölkədə həyata keçirilən dövlət gənclər siyasəti nəticəsində ali hüquq təhsilli gənc kadrların müsabiqə yolu ilə işə qəbulu prokurorluğun kadr tərkibinin yüksək ixtisaslı mütəxəssislər hesabına yenidən formalaşmasını təmin edərək, bu sahədə görülən tədbirlər nəticəsində mənəvi saflığı, yüksək nəzəri bilikləri və peşə hazırlığı səviyyəsi ilə seçilən, xarici dil biliklərinə mükəmməl yiyələnmiş gənclərin prokurorluqda qulluğa qəbuluna şərait yaradılmışdır. Ölkəmizdə müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər islahatlar həyata keçirilmiş, könüllülər hərəkatı geniş vüsət almışdır.

Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 6 fevral 2019-cu il tarixdə təsdiq edilmiş “Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında” Təlimata uyğun olaraq prokurorluq orqanlarının fəaliyyətində ictimai köməkçi qismində iştirak etmək arzusunda olan ali təhsil müəssisələrində hüquqşünaslıq




ixtisası üzrə təhsil alan tələbələrin prokurorluğun fəaliyyətinə cəlb edilmələri üçün zəruri tədbirlər görülür.

Prokurorluq orqanlarına ictimai köməkçi qismində fəaliyyət göstərmək məqsədi ilə 100 nəfərdən artıq könüllü gənc müraciət etmişdir.

İctimai köməkçi qismində könüllü gənclər prokurorluq orqanlarında fəaliyyət göstərdiyi müddət ərzində prokurorluğun faəliyyət istiqamətləri ilə yaxından tanış olacaq, yeni bilik və bacarıqlar qazanacaq, təhsil aldıqları müəssisələrdə hüquq sahəsi üzrə öyrəndikləri nəzəri bilikləri praktiki işdə həyata keçirmək şansı əldə edəcəklər. Onlar ayrı-ayrı rayon (şəhər) prokurorluqlarında, o cümlədən prokurorluğun digər qurumlarında təcrübə keçəcək, prokurorluq işçilərinin iş təcrübəsini öyrənəcək, prokurorluqlarda keçirilən tədris məşğələlərində və seminarda iştirak edəcəklər.

Bununla əlaqədar 19 mart 2019-cu il tarixdə Baş Prokurorluğun rəhbər heyəti ilə ictimai köməkçi qismində fəaliyyətə başlayacaq könüllü gənclərlə görüş keçirilmişdir.

Könüllülərin ictimai köməkçi qismində fəaliyyəti ilə əlaqədar sənədlərinin qəbulu hazırda davam etdirilir.

**Baş Prokurorluq**

# Xarici İşlər Nazirliyi və Baş Prokurorluğun Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanatı

Erməni millətçiləri hələ Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) mövcudluğu dövründə - 1987-1988-ci illərdən etibarən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində separatizmin təşviqi və terrorizmin açıq dəstəklənməsi siyasətini yeritməyə başladılar. SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdəbiri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Sözügedən təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi və bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı ilə əlaqədar oldu. Münaqişədən əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə 7000 insan yaşayırdı. 1991-ci ilin oktyabr ayından şəhər tamamilə Ermənistan silahlı qüvvələri tərəfindən mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər əhalisi deportasiya olunmuş, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalmış (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 8 ailə tam məhv edilmiş, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərdən hər ikisini itirmiş, 613 nəfər, o cümlədən 63 uşaq və 106 qadın işgəncə verilməklə vəhşicəsinə öldürülmüşdür. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulmuşdur.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi və Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını sadəcə azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən aparılan istintaqla bir sıra hərbi qulluqçuların və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilib və onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırımı, işgəncə, əhalini deportasiya etmə, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa və digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə müvafiq qərarlar çıxarılıb.

Xocalı soyqırımı epizodu üzrə aparılan istintaq zamanı 7000-ə yaxın istintaq hərəkəti icra edilib, o cümlədən 1771 şahid və 2699 zərərçəkmiş şəxs qismində olmaqla 4470 nəfər dindirilib, 800-dən artıq müxtəlif növ ekspertizalar keçirilib, digər istintaq hərəkətləri icra edilib.

Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı hərbi güc tətbiq etməsini və təcavüz zamanı beynəlxalq humanitar hüququ ciddi şəkildə pozmasını BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələri başda olmaqla çoxsaylı beynəlxalq təşkilatların qərar və qətnamələrində qəti şəkildə pisləyib.

Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə hücumda iştirak edənlərin davranışını müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan hərəkətlər kimi qiymətləndirərək mühüm nəticəyə gəlib.

Hazırda 16 dövlətin milli qanunvericilik orqanı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı Xocalıda dinc əhalinin qırğınının ən kəskin şəkildə pislənilməsi və Xocalı faciəsinin soyqırımı və insanlıq əleyhinə cinayət aktı kimi tanınmasına dair çoxsaylı qətnamə və qərarlar qəbul ediblər.

Lakin Ermənistan hələ ki, dünya ictimaiyyətinin mövqeyinə, xüsusilə Azərbaycanın zəbt olunmuş torpaqlarından işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam geri çəkilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymur və beləliklə, beynəlxalq hüququ kobudcasına pozmaqda davam edir. Ermənistan qəsb olunmuş ərazilərdə hərbi mövcudluğunu saxlayaraq, həmin ərazilərin demoqrafik, mədəni və fiziki xarakterini dəyişdirərək, yüz minlərlə azərbaycanlının orada yerləşən doğma yurd-yuvalarına qayıtmasının qarşısını alaraq, işğala əsaslanan mövcud status-kvonun möhkəmlənməsinə yönəlmiş səylər göstərməyə davam edir.

Ermənistan Respublikasının beynəlxalq hüquqa zidd fəaliyyətləri ilə bağlı məsuliyyətləri ilə yanaşı, beynəlxalq cinayət hüququnun adət və müqavilə normalarına əsasən, Xocalı şəhərində törədilənlər də daxil olmaqla silahlı münaqişə kontekstində törədilmiş müəyyən fəaliyyətlər beynəlxalq cinayət əməlləri hesab olunur. Bu əməllərin törədilməsində iştirak etmiş şəxslər, eləcə də onlarla əlbir olan və onlara kömək edənlər də fərdi qaydada məsuliyyət daşıyırlar.

Məlumdur ki, ötən il Ermənistan əhalisinin kütləvi etirazları nəticəsində hakimiyyətdən uzaqlaşdırılmış həmin ölkənin əvvəlki rəhbərliyinin bəzi nümayəndələri, digər çoxlu yüksək rütbəli siyasi və hərbi rəsmiləri və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin rəhbərləri ilə birlikdə, Azərbaycan torpaqlarının zəbt olunmasında və Xocalı da daxil olmaqla azərbaycanlı mülki şəxslərə və hərbçilərə qarşı zorakılıqda şəxsən iştirak ediblər.

Öz təqsirini utanmadan etiraf etmiş Ermənistanın o dövrdəki müdafiə naziri və sabiq prezidenti Serj Sarkisyan Britaniya jurnalisti Tomas de Vaala müsahibəsində deyib: “Xocalıdan qabaq azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdırlar. Biz bu stereotipi sındırdıq” (Tomas de Vaal, Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında (Nyu-York və London, Nyu-York Universiteti Nəşriyyatı, 2003), səhifə 172)).

Danılmaz faktdır ki, bu gün ən qatı beynəlxalq cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər, soyqırımı və etnik təmizləmədə adı hallandırılan heç bir şəxsə onun indiki və ya əvvəlki hər hansı statusu immunitet verə bilməz.

Bununla əlaqədar, hazırda Ermənistanda öz xalqına qarşı müxtəlif cinayətlərin törədilməsi ittihamları ilə barələrində istintaq və məhkəmə prosesləri aparılan şəxslərin Azərbaycan xalqına qarşı ən ağır cinayətlərin törədilməsinə görə də məsuliyyətə cəlb edilməsi həm beynəlxalq ədalətin bərqərar olunması, həm də Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla danışıqlar vasitəsilə nizama salınmasına mühüm töhfə verə bilər. Məhz belə olacağı təqdirdə, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin və ümumiyyətlə, dünya ictimaiyyətinin dəstəklədiyi Ermənistan və Azərbaycan əhalisinin sülhə hazırlanması və qarşılıqlı surətdə etimadın yaradılması istiqamətində gerçək irəliləyişin baş verməsinin mümkünlüyü artacaq.

Azərbaycan Respublikası əmindir ki, milli səviyyədə, eləcə də mövcud beynəlxalq hüquq çərçivəsində görülən davamlı tədbirlər cəzasızlığa son qoyulmasına və Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsinə çıxarılmasına xidmət edəcək.

**Xarici İşlər Nazirliyi və Baş Prokurorluq**

# Ali təhsil müəssisələrində hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr prokurorluq orqanlarının fəaliyyətinə ictimai köməkçi qismində cəlb ediləcəklər

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasını yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ötən illər ərzində həyata keçirilmiş ardıcıl və sistemli tədbirlər nəticəsində Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atılmış, gənclərin ictimai həyatın bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradılmışdır.

Ölkədə reallaşdırılan dövlət gənclər siyasətinin prokurorluq orqanlarında da davam etdirilməklə ali hüquq təhsilli gənc kadrların müsabiqə yolu ilə işə qəbulu prokurorluğun kadr tərkibinin yüksək ixtisaslı mütəxəssislər hesabına yenidən formalaşmasını təmin etmişdir. Məhz ümummilli lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin icrası ilə bağlı görülən tədbirlər nəticəsində mənəvi saflığı, yüksək nəzəri bilikləri və peşə hazırlığı səviyyəsi ilə seçilən, xarici dil biliklərinə mükəmməl yiyələnmiş gənclərin prokurorluqda qulluğa qəbuluna şərait yaradılmışdır.

Prokurorluq orqanlarına 2018-ci ildə müsabiqə yolu ilə 85, ümumilikdə isə 2002-ci ildən başlayaraq keçirilən 19 müsabiqə üzrə qulluğa qəbul edilmiş 873 gənc hüquqşünas hazırda prokurorluğun kadr korpusunun 67 faizini təşkil etməklə, onlardan bir çoxu yuxarı təsnifat vəzifələrə irəli çəkilmiş, o cümlədən 21 nəfəri ilk dəfə olaraq müstəqil rayon, şəhər və ərazi hərbi prokuroru vəzifələrinə təyin edilmişlər.

Son dövrlər Azərbaycan gənclərinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirməsi, könüllülər hərəkatının ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirakı istiqamətində aparılan islahatların prokurorluqda da davamlılığının təmin olunması məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 6 fevral 2019-cu il tarixdə "Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında" Təlimat təsdiq edilmişdir. Həmin təlimata əsasən hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində təhsil alan gənclərin institusional bacarıqlarının artırılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili üçün prokurorluq orqanlarının fəaliyyətinə ictimai köməkçi qismində könüllü olaraq cəlb edilmələri nəzərdə tutulmuşdur.

Prokurorluq orqanlarında ictimai köməkçi qismində fəaliyyət prokurorluqda kadr siyasətinin həyata keçirilməsi üçün ictimaiyyətlə qarşılıqlı əlaqələrin qurulması, yüksək peşə hazırlıqlı kadr ehtiyatının formalaşdırılması, prokurorluqda işləmək arzusunda olan gənclərə bu dövlət orqanının fəaliyyətinin məzmunu və iş şəraiti ilə tanışlıq imkanının yaradılması, onların bilik, bacarıq və peşə vərdişlərinin artırılması məqsədi daşıyır.

**Baş Prokurorluq**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2018-ci il ərzində görülmüş işlərə dair hesabatla çıxış edib




Yanvarın 14-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində 2018-ci il ərzində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

Mətbuat konfransını giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əvvəlki dövrlərdə olduğu kimi 2018-ci ildə də bütün sahələrdə dinamik inkişafa nail olunmuş, ölkəmizin milli təhlükəsizliyinin, iqtisadi maraqlarının və vətəndaşların rifahının yüksəlməsinə xidmət edən dövlət idarəçiliyinin məntiqi nəticəsi olaraq aprelin 11-də keçirilən demokratik, şəffaf və ədalətli seçkilər yolu ilə xalqımız növbəti dəfə qəti iradə nümayiş etdirərək ulu öndər Heydər Əliyev siyasi kursuna səs verdilər.

Hesabat dövründə Prezident cənab İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri daha intensiv xarakter almış, ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirlərinə əsaslanan ardıcıl hüquqi və institusional islahatlar həyata keçirilmişdir.

Xüsusi vurğulanmışdır ki, əvvəlki illərdə olduğu kimi hesabat dövründə də prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin başlıca xətti kimi müəyyən etmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi prokurorluq orqanlarının digər qurumları ilə əlaqəli şəkildə




bütün səylərini qarşıya qoyulmuş vəzifələrin uğurla və daha səmərəli şəkildə icra edilməsinə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə yönəltmişdir.

Həmin müddət ərzində Baş İdarə tərəfindən vətəndaşların 8058 müraciətinə baxılmış, həmçinin 310 cinayət xarakterli material araşdırılmışdır. Həmin materialların 222-si (71,7%) üzrə cinayət işi başlanmış, 88 (28,3%) material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə 61 nəfər vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilmişdir.

Korrupsiya hüquqpozmaları barədə müraciətlərin fasiləsiz rejimdə qəbulu məqsədi ilə yaradılmaqla Baş İdarə ilə vətəndaşlar arasında mühüm əhəmiyyətli dialoq vasitəsi rolunu oynayan "161-Qaynar xətt" əlaqə mərkəzinə hesabat dövründə 3854 müraciət daxil olmuş, həmin müraciətlərin 19-u üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmışdır. Həmçinin, əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir.

Hesabat dövründə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində 25 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında isə 24 cinayət işi başlanmışdır.

2018-ci il ərzində Baş İdarədə 431 şəxs barəsində 278 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işlərindən 121 şəxs barəsində 68 iş mənimsəmə və israf etmə, 86 şəxs barəsində 55 iş dələduzluq, 33 şəxs barəsində 21 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 23 şəxs barəsində 13 iş rüşvət alma (passiv rüşvətxorluq), 46 şəxs barəsində 36 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, qalanları isə digər korrupsiya cinayətləri ilə bağlı olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 120.0 milyon manat məbləğində maddi ziyandan ibtidai araşdırma mərhələsində 53.3 milyon manatın ödənilməsi təmin edilmiş, həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 34.2 milyon manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmaqla, ümumilikdə vurulmuş maddi ziyanın 73 %-nin ödənilməsi təmin edilmişdir.

Bununla yanaşı, törədilmiş və ya hazırlanan korrupsiya ilə əlaqədar hüquqpozmalara dair baxılmış məlumatlar üzrə araşdırma müddətində 2.6 milyon manat məbləğində maddi ziyanın ödənilməsi təmin edilmişdir.

Hesabat dövründə Baş İdarə rəisi, Baş İdarə rəisinin müavinləri, idarə və şöbə rəisləri, Təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən ümumilikdə 1620 vətəndaşın qəbul edilmişdir.

Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətləri və hüquqpozmalarının yayıldığı sahələrin müəyyənləşdirilməsinə diqqət artırılmaqla preventiv tədbirlərin təsir gücü məhz bu istiqamətlərə yönəldilməsi son illərin təcrübəsi ilə bir daha öz təsdiqini tapmaqdadır.

Belə ki, əvvəlki dövrlərdə olduğu kimi hesabat ilində korrupsiyaya qarşı mübarizə sahəsində bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmiş, 32 xüsusat üzrə inzibati pozuntu aşkar edildiyindən İnzibati Xətalar Məcəlləsinin 54, 192.1 və 198.0.1-ci maddələrinin tələblərinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilərək aidiyyəti üzrə məhkəmələrə göndərilmişdir. Araşdırılması üçün aidiyyəti qurumlara göndərilmiş müraciətlər üzrə aparılmış xidməti yoxlamalar nəticəsində vəzifəli şəxslərin hərəkətlərində aşkar edilmiş cinayət xarakterli olmayan hüquqpozmalar üzrə 25 vəzifəli şəxsə xəbərdarlıq, 16 vəzifəli şəxsə töhmət, 3 vəzifəli şəxs şiddətli töhmət növündə intizam məsuliyyətinə cəlb edilmiş, 17 nəfər isə vəzifəsindən azad edilmişdir. Habelə, araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə təkrarlanmaması məqsədi ilə müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə 157 təqdimat göndərilmişdir.

Hesabat dövründə Baş İdarə tərəfindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında" 28 aprel 2017-ci il tarixli Fərmana uyğun olaraq, bu sahədə vətəndaşların əmək hüquqlarının pozulmasına yönəlmiş qanunsuz hərəkətlərə qarşı Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi ilə birgə  ən ciddi mübarizə tədbirlərinin davam etdirilmişdir. Mərkəzdən  daxil olmuş 23 material əsasında aparılmış araşdırmalar zamanı bir sıra şirkət rəhbərləri tərəfindən ayrı-ayrı şəxslərin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən xidmətlərin yerinə yetirilməsinə cəlb edilmələri halları müəyyən edildiyindən 1 cinayət işi və 14 inzibati xəta haqqında iş üzrə icraatın başlanması təmin edilmiş, o cümlədən həmin şirkətlərin rəhbərlərinə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 22 və 23-cü maddələrinə əsasən gələcəkdə hər hansı bir işlərin görülməsi zamanı işlərə cəlb edilmiş işçilərin hüquqlarının pozulması hallarına yol verilməməsi, əks təqdirdə barələrində daha ciddi məsuliyyət tədbirləri görüləcəyi barədə 25 rəsmi xəbərdarlıq elan edilmiş, eləcə də bu növ qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara 50 təqdimat verilmişdir. Həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində əmək münasibətləri rəsmiləşdirilmədən tikinti şirkətlərində işə cəlb olunan 414 işçi ilə əmək müqavilələrinin bağlanması təmin edilmişdir.

Vurğulanmışdır ki, ötən ildə Baş İdarə ilə Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Qida Təhlükəsizliyi Agentliyi arasında səmərəli və işgüzar əməkdaşlıq əlaqələri intensivləşmiş, bu da öz növbəsində qabaqlayıcı əhəmiyyətə malik olmaqla, həmin sahələrdə korrupsiya cinayətlərinin və digər hüquqpozmaların vaxtında aşkar edilməsinə, onların aradan qaldırılmasına, həmin qanun pozuntularına yol vermiş şəxslərin ifşa edilərək cinayət və inzibati məsuliyyətə cəlb edilmələrinə və bununla da digər şəxslər tərəfindən qanun pozuntusuna yol verilməsinin qarşısının alınmasına böyük töhfə vermişdir.

Belə ki, 2018-ci il ərzində Dövlət Gömrük Komitəsindən 17, Vergilər Nazirliyindən 7, Ekologiya və Təbii Sərvətlər Nazirliyindən 21, Qida Təhlükəsizliyi Agentliyindən 8, Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən 6, məhkəmələrdən isə 22 material Baş İdarəyə daxil olmaqla araşdırma aparılmış, nəticədə 43 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanmışdır.

Bildirilmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın və mövcud qanunvericiliyin səmərəli tətbiqi üçün qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin zəruriliyi nəzərə alınaraq hesabat dövründə Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlar və digər ölkələrin hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmiş, ölkəmizin korrupsiyaya qarşı mübarizədə

əldə etdiyi mühüm nailiyyətlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilmişdir.

Beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlərin məntiqi nəticəsi olaraq, Avropa Şurasının MONEYVAL Komitəsinin 57-ci plenar iclası çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizin IV raund qiymətləndirilməsi üzrə növbəti tərəqqi hesabatı dinlənilməklə, Azərbaycan Respublikasında bu sahə beynəlxalq səviyyədə mövcud standartlara tam cavab verən sistem kimi qiymətləndirilmiş, MONEYVAL-ın tövsiyələrinin ölkəmiz tərəfindən müvəffəqiyyətlə yerinə yetirildiyi qənaətinə gəlinmişdir.

Həmçinin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı üzrə 19-ci monitorinq görüşündə Şəbəkənin IV Monitorinq Raundu üzrə ölkəmizə dair verilmiş tövsiyələrin böyük qismində icrası istiqamətində əsaslı nailiyyətin əldə olunması barədə yekdil fikrə gəlinmiş və dövri hesabat qənaətbəxş qiymətləndirilərək qəbul edilmişdir.

Bundan başqa, Baş prokurorun müavini - Baş İdarə rəisi tərəfindən ötən il Strasburq şəhərində Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) 81-ci Plenar İclasında korrupsiyanın qarşısının alınması və aşkar edilməsinə məsul olan dövlət qurumları arasında təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədi ilə təsis edilmiş Korrupsiyanın qarşısının alınması üzrə Orqanlar Şəbəkəsinə ölkəmizin qoşulması ilə bağlı Bəyannamə imzalanmışdır.

Son illər əhəmiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi edən əlverişli məkan olaraq tanınan Azərbaycanda keçirilən genişmiqyaslı tədbirlərdən biri kimi respublikamızın dünya prokurorlarını bir qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyasının işində fəal iştirakı, təşəbbüskarlığı və səmərəli təmsilçiliyi nəzərə alınaraq, Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclası Bakı şəhərində təşkil olunmuşdur. Təşkilata üzv olan ölkələrin prokurorluq orqanlarının yüksək səviyyəli şəxslərinin iştirak etdiyi tədbirdə Assosiyasiyanın rəsmi internet səhifəsinin anti-korrupsiya saytının fəaliyyətinin Azərbaycan prokurorluğu tərəfindən hazırlanması xüsusi qiymətləndirilmişdir.

Beynəlxalq Prokurorlar Assosiasiyasının ötən ilin sentyabrında Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilmiş 23-cü illik konfransı və ümumi yığıncağında Azərbaycan Respublikasının Prokurorluğu xüsusi mükafatla – Assosiasiyanın Fəxri Sertifikatı ilə təltif edilmişdir. Sertifikat ölkəmizdə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı həyata keçirilmiş mütərəqqi islahatlar, Azərbaycan Prokurorluğu ilə Assosiasiya arasında əməkdaşlıq, o cümlədən Assosiasiyanın İcraiyyə Komitəsinin Bakıda keçirilmiş 45-ci iclasının yüksək səviyyədə təşkil olunduğu nəzərə alınmaqla verilmişdir.

Eyni zamanda, həmin konfrans çərçivəsində Azərbaycan Prokurorluğunun nümayəndəsi Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti vəzifəsinə seçilmişdir.

Ötən il ərzində Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik olan ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində zəruri tədbirlər görülmüş, belə ki, İtaliya və Monqolustan və İran İslam Respublikası kimi xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə qurulan səmərəli əməkdaşlıq münasibətləri də uğurla davam etdirilmiş, əməkdaşlıq çərçivəsində Baş İdarə İran İslam Respublikasının Baş Təftiş Təşkilatı və Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Xidməti ilə korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə əməkdaşlıq haqqında anlaşma memorandumları imzalamışdır.

Bundan başqa, Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) aləti çərçivəsində, Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla səmərəli əməkdaşlıq aparılmışdır.

Baş İdarənin fəaliyyətində korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlar və xarici ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə yanaşı Respublikanın dövlət qurumları ilə də qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafı mühüm yer tutmuş, ötən dövründə Baş İdarə ilə Dövlət Gömrük və Dövlət Şəhərsalma və Arxitektura komitələri, Qida Təhlükəsizliyi Agentliyi, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında müvafiq olaraq gömrük işi, tikinti-şəhərsalma, qida təhlükəsizliyi və sahibkarların hüquqlarının müdafiəsi sahələrində korrupsiyaya qarşı birgə mübarizənin daha effektiv şəkildə təmin edilməsi məqsədilə anlaşma memorandumları imzalanmışdır.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmiş, Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu, Baş İdarə tərəfindən həyata keçirilən uğurlu əməliyyat tədbirləri, istintaqı aparılan cinayət işləri və digər mühüm məsələlər ilə əlaqədar kütləvi informasiya vasitələrində ictimaiyyətə mütəmadi məlumat verilməsi təmin edilmişdir.

Mətbuat konfransında çıxış edən Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov bildirmişdir ki, 2018-ci ildə dövlət idarəçiliyində səmərəliliyin artırılması, şəffaflığın gücləndirilməsi və açıq hökumət sahəsində həyata keçirilən tədbirlər davam etdirilmişdir. Vergi və gömrük sahələrində şəffaflıq daha artırılmış, sahibkarlıq və investisiya mühiti daha da yaxşılaşdırılmış və həyata keçirilən islahatlar nəticəsində Azərbaycan “Doing Business”-in 2018-ci il hesabatında 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə layiq görülmüşdür.

Kamal Cəfərov qeyd etmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən institusional, qanunvericilik və inzibati tədbirlər uğurla icra edilmişdir. Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı dövlət orqanları tərəfindən icra vəziyyəti 89% müəyyən edilmişdir. Elektron hökumət sahəsində dövlət siyasətini icra etmək, dövlət informasiya sistemlərinin səmərəli inteqrasiyasını həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən “Elektron xidmətlərin inkişafı və rəqəmsal hökumətə keçid” haqqında Fərman imzalanmış və Elektron Hökumətin İnkişafı Mərkəzi yaradılmışdır. Etik davranış qaydalarının əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar olaraq beynəlxalq təcrübəyə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinin deputatları, bələdiyyə üzvləri və bələdiyyə qulluqçularının etik davranış qaydaları ilə bağlı qanunlar qəbul edilmişdir. Korrupsiyaya qarşısının alınması sahəsində təhsillin rolunun artırılması məqsədilə “Azərbaycan Anti-Korrupsiya Akademiyası” layihəsi çərçivəsində dövlət qurumlarının 800-dən çox əməkdaşına 60-dan çox təlim keçirilmişdir.

Tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərin bir neçə şəxsə satılması kimi neqativ hallarının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər edilmişdir. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı”nın 2018-ci il üçün icrası uğurla təmin edilmişdir. Avropa Şurasının MONEYVAL Komitəsinin tövsiyələrinin icrası ilə bağlı bir sıra vacib qanunvericilik aktları qəbul edilmişdir. Bu sahədə dövlət siyasətinin vahid çərçivədə icrası məqsədilə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti yaradılmış, fəaliyyəti təmin edilmiş və Maliyyə Monitorinq Xidməti Eqmont qrupa üzv olmuşdur.

Kamal Cəfərov korrupsiyanın qarşısının alınması sahəsində Komissiyanın “Qanunverciliyinin təkmilləşdirilməsi üzrə” İşçi Qrupu tərəfindən yeni Milli Strategiya və Tədbirlər Planının layihəsinin hazırlandığını və prosesin müvafiq dövlət orqanları, beynəlxalq ekspertlər və təşkilatlar, vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə cari il ərzində yekunlaşacağını bildirmişdir.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxışlarında korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2018-ci il ərzində gördüyü işləri müsbət dəyərləndirmişdir.

Mətbuat konfransında cari il yanvarın 11-də Prezident cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində verdiyi göstərişlərə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsinin təmin ediləcəyi xüsusi vurğulanmışdır.

Sonda QHT və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

**Baş prokuror yanında Korrupsiyaya**
**Mübarizə Baş İdarəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçiləri müxtəlif təlim və digər tədbirlərdə səmərəli iştirak ediblər

Fevralın 5-6-da Bakı şəhərində Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində Ədliyyə, azadlıq, təhlükəsizlik və demokratiya üzrə Alt-komitənin 7-ci iclası keçirilmişdir.

İclasda "Korrupsiya və aktivlərin bərpası", "Terrorçuluğun maliyyələşdirilməsi", "İşgəncələr, qəddar, qeyri insani və ləyaqəti alçaldan rəftara qarşı mübarizə" və digər mövzular ətrafında müzakirələr aparılmışdır.

İclasda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Pirayə Səmədzadə-Əliyeva, Baş İdarənin İstintaq İdarəsinin mühüm işlər üzrə böyük müstəntiqi Qabil Səfərov, Baş İdarənin Əməliyyat idarəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı Ceyhun Məmmədov, Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Amirxan Hacıqayıbov iştirak etmişlər.

Baş İdarə tərəfindən aktivlərin bərpası ilə əlaqədar aparılan cinayət işlərinin istintaqı, istintaq zamanı yaranan problemlər, statistik göstəricilər və digər istiqamətlər üzrə çıxışlar edilmişdir.

***

Fevralın 5-8-də Bakı şəhərində Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə hakimlər, vəkillər və prokurorluq orqanı və Ədliyyə Akademiyasının əməkdaşlarını üçün "Çirkli pulların yuyulması" mövzusunda təlim keçirilmişdir.

Təlimdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin müstəntiqi İlqar Səfərov, Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Atakişi Pirməmmədov, Baş İdarənin Əməliyyat idarəsinin rəis müavini Emin Mürsəliyev və Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Məhəmməd Hacıyev iştirak etmişlər.

Təlim zamanı Beynəlxalq Miqrasiya Təşkilatının beynəlxalq eksperti Geert Delrue və Maliyyə Monitorinq Xidmətinin Hüquq Departamentinin direktoru Azər Abbasovun təqdimatları dinlənilmişdir.

Təlimdə çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə təlim kurrikulumu barədə

iştirakçılara məlumat verilmiş, çirkli pulların yuyulması problemi məsələsinə toxunulmuş, milli və beynəlxalq tənzimləyici tələblər və əməkdaşlıq, kriminoloji-empirik və məhkəmə yanaşması, çirkli pulların müəyyənləşdirilməsi üzrə tipologilar, çirkli pulların araşdırılması kimi məsələlər müzakirə edilmişdir.

Həmçinin, müxtəlif kazuslar ətrafında müzakirələr aparılmış, təlim iştirakçılarına müxtəlif tapşırıqlar verilmişdir.

Yekunda təlim iştirakçılarına sertifikatlar təqdim olunmuşdur.

***

Fevralın 7-8-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında TAİEX texniki yadım aləti çərçivəsində "Normativ aktların antikorrupsiya ekspertizası" mövzusunda təlim keçirilmişdir.

Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Ədliyyə Nazirliyi və vətəndaş cəmiyyəti nümayəndələrinin qatıldığı iki günlük tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev salamlama nitqi ilə çıxış edərək, korrupsiyaya qarşı mübarizənin ölkəmizdə dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulamaqla bu mübarizənin möhkəm siyasi iradəyə əsaslandığını qeyd etmiş, bu sahədə ölkə daxilində, eyni zamanda beynəlxalq səviyyədə əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirmiş və təlimin mövzusu olan antikorrupsiya ekspertizasının preventiv tədbirlər sırasında xüsusi əhəmiyyətə malik olduğunu vurğulamışdır.

Tədbirdə çıxış edən Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin təmsilçisi Məryam Hacı-İsmayılova TAİEX texniki yardım alətini çərçivəsində Azərbaycanda korrupsiyaya qarşı aparılan mübarizəyə göstərilən dəstək barədə söz açaraq, Baş Prokurorluğun alətin benefisiar qurumları sırasında xüsusi fəallığı ilə seçildiyini vurğulamış, alət çərçivəsində son illərdə təşkil olunan maarifləndirmə tədbirlərin hüquq-mühafizə orqanlarının potensialının artırılmasında olan rolunu qeyd etmişdir.

Təlim çərçivəsində İtaliya, Litva və İsveç Krallığını təmsil edən ekspertlər Françesko Clementuççi, Romualdas Gilis və Nils Haninger tərəfindən antikorrupsiya ekspertizası institutuna dair beynəlxalq standartlar, normativ aktlarda boşluqları aradan qaldırma və onlardan sui-istifadə halların qarşısını almaq üçün tətbiq olunan metodologiya, öz ölkələrin bu sahədə ən yaxşı təcrübələri və normativ aktların analizi prosesində informasiya texnologiyalarının tətbiqi kimi mövzulara dair təqdimatlar keçirilmişdir.

Tədbirdə mövzu ilə əlaqədar tədris tapşırıqları iştirakçılar tərəfindən müvəffəqiyyətlə icra edilmiş, iştirakçıları maraqlandıran suallar ətraflı müzakirə edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə təlim və seminarlar təşkil olunub

## Mülki müdafiə məsələləri üzrə təlim keçirilib



Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mülki müdafiənin təmin edilməsi haqqında" 25.09.1998-ci il tarixli 193 nömrəli Qərarına əsasən fövqəladə hadisələrin, qəza və dağıntıların nəticələrini aradan qaldırmaq, ilkin qəza-xilasetmə, tibbi yardım və digər mülki müdafiə tədbirlərinin yerinə yetirilməsini təmin etmək məqsədi ilə müvafiq dövlət orqanlarında hərbiləşdirilməmiş mülki müdafiə qüvvələrinin yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə Baş Prokurorluğun hərbiləşdirilməmiş mülki müdafiə dəstələri yaradılmışdır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun 2019-cu il üçün mülki müdafiə üzrə tədbirlər planı Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmaqla Baş prokuror tərəfindən təsdiq edilmişdir.

Tədbirlər planına müvafiq olaraq Baş prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən nəzərdə tutulmuş tədbirlərin ardıcıl həyata keçirilməsi təmin edilir.

Martın 15-də Baş Prokurorluğun Tarix muzeyində Müraciətlərə baxılması idarəsinin məxfiçilik və mülki müdafiə məsələləri üzrə prokuroru Yadiğar Aslanov tərəfindən hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə seminar keçirilmişdir.

Tədbirdə Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili baş idarəsinin əməkdaşı Elşən Yolçuyev təlimçi qismində iştirak etmişdir.

Təlim prosesində hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə geniş məlumat verilmiş, mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş funksional vəzifələrə aid nəzəri biliklərə yiyələnməsinin vəziyyəti yoxlanılmışdır.

Fikir mübadiləsi aparılmış, maraq doğuran məsələlərlə bağlı suallar cavablandırılmışdır.

## Prokurorluqda müraciətlərə baxılması işi ilə bağlı seminarlar keçirilib



Fevralın 16-da Bakı şəhər prokurorluğu və Bakı şəhərinin rayon prokurorluqları işçilərinin iştirakı ilə Baş Prokurorluqda "Prokurorluqda müraciətlərə baxılması işini tənzimləyən qanunvericiliyin və Baş Prokurorluq üzrə əmr və göstərişlərin təcrübədə düzgün tətbiqi" mövzusunda seminar keçirilmişdir.

Seminarda mühazirəçi qismində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokurorları Toğrul Əhmədov və Rəşad Əsgərov, dinləyicilər qismində Bakı şəhər prokurorluğunun struktur qurumlarının və 12 rayon prokurorluğunun işçiləri iştirak etmişlər.

Tədbirdə Toğrul Əhmədov çıxış edərək prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə danışmış, prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında müvafiq əmrin müddəalarını şərh etməklə vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin düzgün təşkili və həyata keçirilməsinə dair konkret tövsiyələr vermişdir.

Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanmış, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə məlumat verilmişdir.

Müraciətlərə baxılması sahəsində qanunvericiliyin normaları təhlil edilmişdir.

Rəşad Əsgərov çıxış edərək yeni Qanunun tətbiqi ilə əlaqədar Baş Prokurorluq üzrə müvafiq əmrdə aparılmış dəyişikliklərin mahiyyətini açıqlamış, bu dəyişikliklər nəzərə alınmaqla əmrin tələblərinin tətbiqinə dair zəruri tövsiyələr vermiş, sahibkarlıq fəaliyyəti ilə bağlı daxil olmuş mülki xarakterli müraciətlərə izahedici cavabların verilməsi əvəzində həmin müraciətlərin əsassız olaraq prokurorluq orqanlarının icraatına qəbul edilməklə araşdırılmasının qarşısının alınmasını tələb edən Baş prokurorun yanında 04.01.2019-cu il tarixdə keçirilmiş əməliyyat müşavirəsi qərarının, habelə Baş prokurorun və Baş prokurorun müavininin müvafiq rəsmi göstərişlərini seminar iştirakçılarının diqqətinə çatdırmaqla, əmr və göstərişlərin tələblərinə dönmədən riayət olunmasının zəruriliyini bildirmişdir.

Qanunvericiliyin tələbləri ilə yanaşı, Baş prokurorun və Baş prokurorun müavininin müvafiq rəsmi göstərişlərinin iqtisadi fəaliyyət sahəsində əsassız yoxlamaların və sahibkarların fəaliyyətinə müdaxilələrin qadağan edilməsi, mülki mühakimə icraatı qaydasında həll edilməli olan müraciətlərin müvafiq qanunvericik aktlarının və Baş Prokurorluq üzrə müvafiq əmrlərin tələbləri pozulmaqla icraata götürülərək əsassız yoxlamaların aparılmasının yolverilməzliyi və belə nöqsanlara yol vermiş hər bir prokurorluq əməkdaşının haqqında ciddi intizam tənbehi tədbirinin görüləcəyi barədə tələblərinin mahiyyəti ətraflı şərh edilmiş, bu tələblərə dönmədən əməl edilməsinin zəruriliyi vurğulanmışdır.

Bakı şəhər prokurorluğunda və Bakı şəhərinin rayon prokurorluqlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin vəziyyəti ilə bağlı aparılan təhlilin nəticəsi üzrə bu sahədə müşahidə

olunan müsbət dinamika ilə yanaşı, mövcud olan problemlər də qeyd edilmişdir.

Tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

***

Martın 11-də İmişli, Bərdə, Beyləqan, Zərdab, Ağcabədi, Ağdam, Füzuli, Laçın və Tərtər rayon prokurorluqları işçilərinin iştirakı ilə İmişli rayon prokurorluğunda "Prokurorluqda müraciətlərə baxılması işini tənzimləyən qanunvericiliyin və Baş Prokurorluq üzrə əmr və göstərişlərin təcrübədə düzgün tətbiqi" mövzusunda seminar keçirilmişdir.



Seminarda mühazirəçi qismində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Rəşad Əsgərov, dinləyicilər qismində İmişli, Bərdə, Beyləqan, Zərdab, Ağcabədi, Ağdam, Füzuli, Laçın və Tərtər rayon prokurorluqlarının işçiləri iştirak etmişlər.

Rəşad Əsgərov çıxış edərək edərək prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə danışmış, prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında müvafiq əmrin müddəalarını şərh etməklə vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin düzgün təşkili və həyata keçirilməsinə dair konkret tövsiyələr vermişdir.

Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanmış, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə məlumat verilmişdir.

Müraciətlərə baxılması sahəsində qanunvericiliyin normaları təhlil edilmişdir.

Qanunvericiliyin tələbləri ilə yanaşı, Baş prokurorun və Baş prokurorun müavininin müvafiq rəsmi göstərişlərinin iqtisadi fəaliyyət sahəsində əsassız yoxlamaların və sahibkarların fəaliyyətinə müdaxilələrin qadağan edilməsi, mülki mühakimə icraatı qaydasında həll edilməli olan müraciətlərin müvafiq qanunvericik aktlarının və Baş Prokurorluq üzrə müvafiq əmrlərin tələbləri pozulmaqla icraata götürülərək əsassız yoxlamaların aparılmasının yolverilməzliyi və belə nöqsanlara yol vermiş hər bir prokurorluq əməkdaşının haqqında ciddi intizam tənbehi tədbirinin görüləcəyi barədə tələblərinin mahiyyəti ətraflı şərh edilmiş, bu tələblərə dönmədən əməl edilməsinin zəruriliyi vurğulanmışdır.

Seminarda tabe rayon (şəhər) prokurorluqlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin vəziyyəti ilə bağlı aparılan təhlilin nəticəsi üzrə bu sahədə müşahidə olunan müsbət dinamika ilə yanaşı, mövcud olan problemlər də qeyd edilmişdir.

Maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqət qanunvericiliyin izahı və profilaktiki tədbirlərə yönəldilib

Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən 2018-ci ildə cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirməsi və həyata keçirilən tədbirlərin kəsərliliyinin artırılmasına yönəldilib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanların əməkdaşları cari ilin hər rüb üçün tərtib olunan tədbirlər planına uyğun olaraq yerli icra hakimiyyəti və özünüidarə orqanların əməkdaşları ilə birlikdə vətəndaşlarla görüşlər keçirilib, onlara qanunvericiliyin tələbləri izah edilərək hüquqpozmaların vaxtında qarşısının alınması üçün müvafiq profilaktiki tədbirlər həyata keçirilib, həmçinin əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına əməl edilməsi ilə bağlı Muxtar Respublika ərazisində fəaliyyət göstərən istehsalat və tikinti müəssisələrində maarifləndirmə işi aparıblar.

Əvvəllər Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "Mətbuat xidməti" və "Müraciətlər" bölməsindən ibarət rəsmi internet saytı fəaliyyət göstərirdi. Bu veb-saytın texniki imkanları isə onun informasiya yükünün artırılmasına imkan vermirdi. Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialı haqqında materiallar yerləşdirərək təbliğat işi aparmaq, Muxtar Respublika əhəmiyyətli tədbirlərin materiallarının və Muxtar Respublika Prokurorluğunun fəaliyyətinin təşkili barədə məlumatların Naxçıvan Muxtar Respublika Prokurorluğunun internet saytında yerləşdirərək veb-saytın texniki imkanlarını və informasiya yükünün artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 11 bölmədən ibarət yeni veb-saytı (www.prokurorluq.nakhchivan.az) yaradılıb.

Azərbaycan Respublikası Baş Prokurorluğunun müvafiq icmal məktubunda Baş Prokurorluq üzrə Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 2017-ci ildə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair arayışda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunub.

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

1918-ci il 1 oktyabr tarixindən fəaliyyətə başlamış milli prokurorluq orqanlarının inkişafı, dünya standartlarına uyğun, müasir tələblərə cavab verən prokurorluq sistemi kimi formalaşması ulu öndər Heydər Əliyevin adı və həyata keçirdiyi islahatlarla bağlıdır. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qayğısı nəticəsində Muxtar Respublikanın prokurorluq orqanlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb. 2018-ci ilin oktyabr ayında prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyi təntənəli şəkildə qeyd edilib. Dövlətçilik ideyalarına sadiqliyi və xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə Muxtar Respublika prokurorluğunun bir qrup əməkdaşı Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə orden və medallarla təltif edilib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 1321 halda təbliğat işi aparılıb ki, onların 86-ı prokuror məruzələrinə, 771-i mühazirə, söhbət və digər şifahi təbliğat formalarına, 464-ü isə kütləvi informasiya vasitələrinə aiddir. Həyata keçirilən təbliğatın 616-ı vətəndaşların konstitusion hüquq və azadlıqları haqqında, 169-u cinayətkarlıqla mübarizə, 147-1 hərbi vətənpərvərlik, 141-i ətraf mühitin mühafizəsi, 145-i alkoqolizm və narkomanlıqla mübarizə, 103-ü isə iqtisadi fəaliyyət sahəsində qanun pozuntuları haqqında olmuş, eyni zamanda yetkinlik yaşına çatmayanlar və gənclərlə əlaqədar 207 halda auditoriyalarda çıxışlar edilmişdir. Kütləvi informasiya

vasitələrində 464 dəfə, o cümlədən televiziyada 74, mətbuatda 240, radioda 28, internet səhifələrində isə 122 dəfə müxtəlif mövzularda çıxışlar edilmişdir. Babək və Şərur rayon prokurorluqları tərəfindən mətbuatla, Naxçıvan şəhər və Sədərək rayon prokurorluqları tərəfindən isə televiziya və radio ilə əlaqələr daha səmərəli təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatı tərəfindən prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 264 halda təbliğat işi aparılıb ki, onların 12-i prokuror məruzələrinə, 65-i mühazirə, söhbət və digər şifahi təbliğat formalarına, 187-i isə kütləvi informasiya vasitələrinə aiddir. Eyni zamanda yetkinlik yaşına çatmayanlar və gənclərlə əlaqədar 1 halda auditoriyalarda çıxışlar edilib. Kütləvi informasiya vasitələrində 187 dəfə, o cümlədən Naxçıvan Dövlət Televiziyasının "Qanunçuluq" proqramında 14, "Naxçıvanın səsi" radiosunda 1, "Şərq qapısı" qəzetində və "Azərbaycan Prokurorluğu" jurnalında 48 dəfə müxtəlif mövzularda çıxışlar edilib. www.prokurorluq.nakhchivan.az saytında isə rəsmi tədbirlər mütəmadi olaraq öz əksini tapır. Həmçinin prokurorluğun veb-saytında 53 halda xəbər və 5 məqalə yerləşdirilib. www.prokurorluq.nakhchivan.az 64 halda, www.naxçıvantv.az saytlarında və "Nuhçıxan" İnformasiya Agentlyində təşkil olunan "Hüquq guşəsi"ndə isə vətəndaşlar tərəfindən onlayn qaydada təqdim olunan suallar mütəmadi cavablandırılıb.

Muxtar Respublikanın tabe rayon (şəhər) prokurorluqları tərəfindən də bu tədbirlər davamlı olaraq həyata keçirilib. Belə ki, prokurorluğun fəaliyyətində aşkarlıq və qanunvericiliyin izahı ilə bağlı Naxçıvan şəhər prokurorluğu tərəfindən 135, Babək rayon prokurorluğu tərəfindən 173, Şərur rayon prokurorluğu tərəfindən 192, Culfa rayon prokurorluğu tərəfindən 150, Ordubad rayon prokurorluğu tərəfindən 129, Şahbuz rayon prokurorluğu tərəfindən 97, Kəngərli rayon prokurorluğu tərəfindən 79 və Sədərək rayon prokurorluğu tərəfindən isə 102 halda tədbirlər keçirilib.

Hüquqi təbliğatın zəif olması, təzadlı, düzgün olmayan tərbiyə ilə cəmiyyətdə hüquq pozuntularının sayının artması arasında səbəbli əlaqə heç kimdə şübhə yaratmır. Bu səbəbdən hüquq tərbiyəsi və hüququn təbliği cinayətkarlığın qarşısının alınmasında ən mühüm vasitə kimi Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən həmişə diqqət mərkəzində saxlanılır.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi təminat**
**və informasiya şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələrinin görüşü keçirilib

Martın 9-da Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələri əməkdaşlarının görüşü keçirilib.

Görüşdə fəaliyyətin yeni tələblər səviyyəsində qurulması məsələləri müzakirə edilib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində təkliflər verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Təhminə Babayeva muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının 2018-ci il və bu ilin ötən dövründəki fəaliyyəti barədə məlumat verərək deyib ki, qeyd olunan dövrdə mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin "Şərq qapısı" qəzetində, eləcə də şəhər və rayon qəzetlərində 2431 materialı dərc olunub. Teleradiolarda 2595 veriliş və xəbər süjeti hazırlanıb, müxtəlif sosial şəbəkələrdə 5082 material yerləşdirilib. Aparılan təhlillər onu göstərir ki, bir sıra dövlət qurumlarının mətbuatla əlaqəsi zəif qurulub.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Maliyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Dövlət Miqrasiya Xidməti, "Naxçıvanqaz" İstehsalat Birliyinin rəsmi internet saytlarında təşkilatların fəaliyyəti ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafını, tarixi-mədəni irsini və turizm potensialını əks etdirən fotoşəkillər və videolar yerləşdirilərək fəal təbliğat işi aparılır.

Naxçıvan Muxtar Respublikası Televiziya və



Radio Şurasının üzvü Sara Əzimova və Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov tədbirdə çıxış edərək mərkəzi icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya-məlumatlandırma işinin təşkili barədə aparılmış monitorinq nəticələrini və yol verilən nöqsanları diqqətə çatdırıblar.

"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli mətbuat xidmətləri ilə teleradio və qəzetlər arasında əməkdaşlığın qurulmasında yol verilən nöqsanlardan geniş bəhs ediblər.

Qarşılıqlı fəaliyyətin təşkili ilə bağlı məsələlərə toxunan Sahil Tahirli deyib ki, Ali Məclis Sədrinin tapşırığı ilə keçirilən ardıcıl tədbirlərdən sonra 2018-2019-cu illərdə mətbuat xidmətlərinin Naxçıvan teleradiosu, eləcə də "Nuhçıxan" informasiya agentliyi ilə əməkdaşlığı genişlənib. Naxçıvan televiziya və radiosunun onlayn yayımı, "Nuhçıxan" informasiya agentliyinin geniş izləyici auditoriyasına sahib olması imkan verir ki, muxtar respublikaya aid informasiyalar, tematik və tanıtım materialları, video və veb informasiyalar daha geniş auditoriyaya çatdırılsın.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tapşırığına uyğun olaraq muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin əməkdaşları ilə kütləvi informasiya vasitələri nümayəndələrinin görüşünün keçirilməsi bu sahədə fəaliyyətin gücləndirilməsi və qarşılıqlı əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Mətbuat xidmətləri ölkə Prezidenti və Ali Məclisin Sədri tərəfindən qəbul olunmuş dövlət proqramlarının icra vəziyyəti barədə məqalələr işləməli, kütləvi informasiya vasitələrindən daxil olan sorğuları operativ formada araşdırmalı və qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə cavablandırmalıdırlar. Teleradio və qəzetlərin əməkdaşları araşdırma apardıqları mövzu ilə bağlı sorğuları aydın, əhatəli və peşəkar formada təqdim etməli, həmin informasiyalar yayılarkən mətbuat xidmətlərinə istinad olunmalıdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov, Naxçıvan Dövlət Teleradiosunun baş redaktorları Ruhiyyə Rəsulova, Ariz Cəfərov, Ramal Məmişov və Aysel Əliyeva əməkdaşlıqla bağlı təkliflərini veriblər. Qarşılıqlı fikir mübadiləsi aparılıb.

Diskussiya şəraitində keçən tədbirdə mətbuat xidməti və kütləvi informasiya vasitələri əməkdaşları fəaliyyətin yeni tələblər səviyyəsində qurulması ilə əlaqədar təkliflər veriblər.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

## Etik davranış qaydalarına həsr olunan mövzu üzrə seminar keçirilib

Yanvarın 7-də Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə Şərur rayon prokurorluğunda "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi"nin tələblərindən irəli gələn vəzifələrin və Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşəkar məsuliyyət standartları, prokurorların əsas vəzifələri və hüquqları və Cinayət mühakimə icraatı sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyələrinin nəzərə alınması" mövzusunda seminar keçirilib.

Seminarda prokurorluq işçisinin öz xidməti fəaliyyətini həyata keçirərkən, eləcə də asudə vaxtında davranışından, "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi"nin tələblərindən irəli gələn vəzifələr, Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmrlərinin tələbləri, Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşə məsuliyyəti, əsas hüquq və vəzifə standartları, prokurorluq işçiləri üçün etika və davranış üzrə Avropa rəhbər prinsipləri və Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyəsinin müddəalarından danışılıb, cəmiyyətdə qəbul edilmiş etik qaydalara dönmədən əməl edilməsi bildirilib. Verilən suallar cavablandırılıb.

## "Arxiv işinin təşkili" mövzusunda seminar keçirilib

Fevralın 6-da Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqlarının məsul işçiləri və dəftətxana müdirlərinin iştirakı ilə Naxçıvan şəhər prokurorluğunda "Arxiv işinin təşkili" mövzusunda seminar keçirilib.

Müraciətlərə baxılması şöbəsinin prokuroru Pərvanə Hüseynova prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat verərək "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimatın"ın və "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair Siyahı"nın müvafiq müddəalarının, edilən dəyişikliklərin mahiyyətini izah etməklə arxiv işinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələrini qeyd edib.

Sənədlərin məhv edilməsinə dair aktlarda daha cox rastlanan nöqsanlar təhlil edilərək prokurorluq üzrə hüquqi aktların tələblərinin öyrənilməsinin və məhv edilməli olan sənədlərin vaxtında ayrılmasının zəruriliyi vurğulanıb. Bu sahədə işin düzgün təşkilinə və həyata keçirilməsinə dair konkret tövsiyələr verilərək qarşıya çıxan suallar cavablandırılıb.

## "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminar keçirilib

Fevralın 15-də Naxçıvan Muxtar Respublikası Prokurorluğun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda Naxçıvan şəhər prokurorluğunda Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqlarının məsul əməkdaşlarının iştirakı ilə seminar keçirilib.

Qeyd olunub ki, ölkəmizdə hüquq sisteminin təkmilləşdirilməsi prosesi son dövrlər daha da intensiv xarakter alaraq bu istiqamətdə ciddi işlər görülməklə mühüm tədbirlər həyata keçirilib, vacib əhəmiyyətli dövlət sənədləri qəbul edilib ki, onların da içərisində 29.12.2015-ci il tarixli Qanunla təsdiq edilərək 2016-cı ilin martın 1-dən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsi xüsusi yer tutur. İnzibati xətalar haqqında qanunvericiliyin mütəmadi olaraq yenilənməsi zərurəti, onun tənzimlədiyi ictimai münasibətlərin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə daha sıx əlaqəli olmasından irəli gəlir.

İnzibati Xətalar Məcəlləsində şəxslərin hüquq və azadlıqlarının, onların qanuni mənafelərinin qorunması inzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri içərisində ön yerdə göstərilib. Məcəllədə qeyd olunan hər bir prinsipin məzmununu açıqlayan xüsusi maddələr nəzərdə tutulub. Yeni Məcəllə qanunçuluğun təmin olunmasında prokuror nəzarətinə xüsusi önəm verərək prokuror nəzarətini qanunçuluq prinsipinin təminatı kimi müəyyən edib. Bu Məcəllədə inzibati qanunvericiliyin icrasına prokuror nəzarətinin həyata keçirilməsinə xüsusi əhəmiyyət verərək inzibati icraatda prokurorun səlahiyyətlərini gücləndirib, prokuror nəzarətinin predmetinə aid olan məsələləri daha da genişləndirməklə bu nəzarətin səmərəliliyinin və effektivliyinin artırılması üçün qanunda yeni üsul və vasitələr nəzərdə tutub və prokuror nəzarətinin həyata keçirilməsi qaydalarına 25 maddə və müddəalar həsr edilərək inzibati icraatla bağlı prokurorluq orqanlarının üzərinə bir sıra vəzifələr qoyulmaqla prokurorun

inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında ölkə Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirməsi təsbit edilib.

Məcəllənin 54.2-ci maddəsinə əsasən prokuror istənilən inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul etmək hüququna malikdir. Həmçinin qanunda müəyyən olunan bir sıra maddələr üzrə isə inzibati icraat yalnız prokuror tərəfindən başlanıla bilər və faktiki olaraq həmin maddələr üzrə inzibati icraatın tətbiqi məsuliyyəti bütövlükdə prokurorun üzərinə düşür. İnzibati icraatı yalnız prokuror tərəfindən başlanıla bilən maddələr əsasən dövlət idarəetmə sistemində çalışan müvafiq vəzifəli şəxslərin fəaliyyəti ilə bağlı olduğundan qanunverici hesab edir ki, bu sahələrdə inzibati xətaların qarşısının alınması üçün prokurorluğun təşəbbüskarlığına ehtiyac vardır və buna görə də həmin maddələr üzrə inzibati icraatın başlanmasını prokurorun müstəsna səlahiyyətinə aid edib.

Qanunun tələbinə görə, prokurorun müstəsna səlahiyyətinə aid edilən maddələr, həmçinin İnzibati Xətalar Məcəlləsinin istənilən digər maddələri üzrə prokuror tərəfindən inzibati icraatın başlanması hüququnun həyata keçirilməsi üçün Məcəllənin 99.1-ci maddəsində göstərilən səbəblərdən biri və 99.2-ci maddəsində göstərilən kifayət qədər əsaslar olmalıdır. Məcəllənin 54.2, 54.4, 54.6, 99.4.2, 102.2, və 103-cü maddələrinə müvafiq olaraq prokuror inzibati xəta haqqında iş üzrə icraata başlamaq səlahiyyəti olan vəzifəli şəxsdir, yaxud başqa sözlə desək, inzibati xəta haqqında iş üzrə icraata başlamaq hüququnun subyektidir.

İnzibati Xətalar Məcəlləsinin 54.4-cü maddəsinə müvafiq olaraq prokuror bu Məcəllənin 99.1.2 və 99.1.3-cü maddələrində nəzərdə tutulan məlumatlara (dövlət orqanlarından (qurumlarından) və ya bələdiyyələrdən, fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilən, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlara) baxaraq, on beş gün müddətində inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad qəbul edir.

Sonda Baş Prokurorluq tərəfindən hazırlanan "İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrasına prokuror nəzarətinin həyata keçirilməsinə dair Metodiki vəsait"in öyrənilməsi tövsiyə olunaraq iştirakçıların sualları cavablandırılıb.

## "Prokurorluğun normativ hüquqi aktları" informasiya sistemindən istifadə qaydaları ilə bağlı tədbir keçirilib

Martın 4-də Naxçıvan Muxtar Respublikasının Prokurorluğun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə Culfa və Ordubad rayon prokurorluqları işçilərinin iştirakı ilə Culfa rayon prokurorluğunda Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanan və xüsusi proqram təminatı ilə idarə olunan "Prokurorluğun normativ hüquqi aktları" informasiya sistemindən istifadə qaydaları ilə bağlı tədbir keçirilib.

Qeyd olununb ki, baza 2001-dən indiyədək qəbul edilmiş, dəyişdirilmiş və ya ləğv edilmiş müxtəlif növ (əmr, sərəncam, göstəriş, qayda, əsasnamə, təlimat, reqlament və digər növlü) hüquqi normativ aktın, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi plenum qərarının mətnindən ibarətdir. Aktların mətninin dəqiqliyini təmin etmək üçün hər bir aktın kağız formatlı mətni əsasında onun elektron formatı hazırlanıb, sonrakı müddətdə bu akta edilən dəyişikliklər mətnə "haşiyə" formasında əlavə edilib, bu yolla hasil edilən məlumatlar ilkin və ilkin aktı dəyişən aktların əlaqələri izlənməklə yenidən yoxlanıb, sənədlərin üzərində korrektə işi aparılıb.

Proqram təminatı Elm-Tədris Mərkəzinin "İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektoru"nun mütəxəssisləri tərəfindən hazırlanıb. Proqram bazanın yüksək istehlak göstəricilərini (axtarış, təhlil və s.) təmin etməklə yanaşı bazanın internet şəbəkəsi üzərindən operativ qaydada yenilənməsi imkanı yaradır.

Sistem informasiya təhlükəsizliyini təmin edir. İnformasiya sistemindən istifadə yalnız prokurorluq işçiləri üçün nəzərdə tutulub. İstehlakçıların sayı xüsusi "açar"la (rəqəmsal formatda) məhdudlaşdırılır. Məlumat bazasına buraxılış əldə etmək üçün hər bir istehlakçıya administrator tərəfindən fərdi "açar" (parol) verilir. Parol proqram ilk dəfə aktivləşdirdikdə təqdim edilir. Bazada aparılan yenilənmələr barədə məlumat hər bir istehlakçıya internet üzərindən avtomatik qaydada çatdırılır. İstehlakçı yenilənmələrin diskə yüklənməsi barədə sorğuya razılıq verdiyi halda bu, yenə də avtomatik şəkildə baş verir. Diskdəki məlumatları fərdi kompüterlərə yükləmək və avtonom qaydada istifadə etmək də mümkündür.

"Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" məlumat bazası Elm-Tədris Mərkəzi tərəfindən idarə olunur, ona görə də bazadan istifadə ilə bağlı ortaya çıxan suallarla bağlı Mərkəzin internet səhifəsi (www.etmprok.az) və ya elektron poçt (support@etmprok.az, stcpros@yahoo.com) ünvanları vasitəsi ilə müraciət etmək olar.

Qeyd olunub ki, sistem prokurorluq işçiləri tərəfindən prokurorluğun normativ aktlarından, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi plenum qərarınından istifadəsini və prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılmasını daha da yaxşılaşdıracaqdır.

Sonda suallar cavablandırılıb və sistemə Azərbaycan Respublikasının cinayət işlərinə dair hüquqi yardım sahəsində ikitərəfli beynəlxalq müqavilələrin də əlavə edilməsi fikri səsləndirilib.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçiləri beynəlxalq tədbirlərdə Azərbaycan Prokurorluğunu uğurla təmsil edirlər




Yanvarın 22-24-də Avstriyanın Vyana şəhərində Beynəlxalq Antikorrupsiya Qurumlarının Assosiasiyasının (IAACA) İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir.

70 dövlətdən 260-dan çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə, ixtisaslaşmış antikorrupsiya orqanlarının, habelə nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxslərinin, tanınmış hüquqşünasların və alimlərin iştirak etdiyi tədbirdə ölkəmizi Ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev daxil omaqla Ədliyyə Nazirliyi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçilərindən ibarət nümayəndə heyəti təmsil etmişdir.

Assosiasiyanın Ümumi Yığıncağında IAACA-nın yeni Konstitusiyası təsdiq edilmiş, təşkilatın gələcək fəaliyyətinə və antikorrupsiya tədrisinə dair proqramlar qəbul olunmuş, İcraiyyə Komitəsinin səlahiyyətlərinə dair məsələyə baxılmışdır.

İllik Konfransda BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının qəbul olunmasının 15 illiyi və bu müddət ərzində onun implementasiyası, BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf üzrə Gündəliyində bu sosial bəla ilə mübarizənin rolu, həmçinin antikorrupsiya tədrisi, beynəlxalq əməkdaşlıq və s. bu kimi aktual məsələlər müzakirə olunmuşdur.

Konfransda ilk məruzə ilə Azərbaycan nümayəndə heyətinin rəhbəri, IAACA-nın vitse-prezidenti Fikrət Məmmədov çıxış edərək korrupsiyaya qarşı qlobal mübarizə tədbirlərindən, Korrupsiyaya qarşı Konvensiyanın dünyada implementasiyasının nəticələrindən, bu sahədə IAACA-nın mühüm rolundan və səmərəli fəaliyyətindən məlumat vermiş, ölkəmizin Assosiasiya ilə fəal əməkdaşlığını qeyd etmişdir.

Çıxışda tədbir iştirakçılarının diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların müvafiq qətnamələrinə baxmayaraq Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğalına və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına xüsusilə cəlb olunmuşdur.

Tədbirin "Korrupsiya hüquqpozmaların qarşısının alınmasında təhsilin rolu" mövzusuna həsr olunmuş sessiyasında çıxış edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi altında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılan qanunvericilik və institusional islahatlar, Baş İdarənin və "ASAN xidmət" mərkəzlərinin korrupsiya və rüşvətxorluq hallarının qarşısının alınmasında rolu, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən maarifləndirmə tədbirləri, o cümlədən Azərbaycan Antikorrupsiya Akademiyası (AZAKA), Beynəlxalq Prokurorlar Assosiyasiyasının veb-portalında korrupsiyaya qarşı mübarizə aparan prokurorların şəbəkəsi (NACP) kimi təşəbbüslər, ölkəmizlə IACA arasında ikitərəfli münasibətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat vermiş, Azərbaycan Respublikasının bu sahədə əldə etdiyi uğurları qeyd etmişdir.

Tədbirin yekununda Azərbaycan tərəfinin təklifləri nəzərə alınmaqla korrupsiyaya qarşı mübarizədə səylərin gücləndirilməsinə və antikorrupsiya qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına dair Bəyannamə qəbul olunmuşdur.

Səfər çərçivəsində ölkəmizin nümayəndə heyəti ilə IACA-nın rəhbəri Martin Kroytner, İAACA-nın rəhbəri Al Mari, Fransa, İran və digər dövlətlərin nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Görüşlərdə Azərbaycan Respublikasının Avstriyada fövqəladə və səlahiyyətli səfiri Qalib İsrafilov iştirak etmişdir.

***

Martın 19-22-də Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı üzrə 20-ci monitorinq görüşü və Şəbəkənin Rəhbər Qrupunun 24-cü görüşü keçirilmişdir.

Görüşlərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Azərbaycan Respublikası üzrə milli koordinatoru - Azərbaycan Respublikasının Baş prokurorunun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Səbuhi Alıyev və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov iştirak etmişdir.

Martın 19-21-də keçirilmiş Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 20-ci monitorinq görüşündə ölkəmiz üzrə 2016-cı ilin sentyabr ayında İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu çərçivəsində qəbul edilmiş hesabatda nəzərdə tutulmuş tövsiyələrin icra vəziyyəti ilə bağlı Tərəqqi Hesabatı müzakirə edilərək qəbul edilmişdir. IV Monitorinq Raund hesabatı üzrə ölkəmizə cəmi 31 tövsiyə ünvanlanmışdır ki, müzakirələr zamanı onların 21-nin uğurla icra edilməsi müəyyən edilmişdir.

Bununla yanaşı, 20-ci monitorinq görüşündə Özbəkistan və Monqolustan üzrə IV Monitorinq Raundu hesabatları, Qazaxıstan, Tacikistan, Gürcüstan, Qırğızıstan və Ukrayna üzrə Tərəqqi Hesabatları müzakirə edilərək qəbul edilmiş, Azərbaycan nümayəndə heyətinin üzvü Tacikistan Respublikasının IV Monitorinq Raundu üzrə Tərəqqi Hesabatı çərçivəsində müzakirələrdə iştirak edərək qeyd edilən ölkənin korrupsiya cinayətləri ilə bağlı cinayət təqibi, prokurorluq və məhkəmə hakimiyyəti orqanlarında şəffaflığın təmin edilməsi istiqamətlərində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirləri dəyərləndirmişdir.

Martın 22-də keçirilmiş Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Rəhbər Qrupunun 24-cü görüşündə İstanbul Fəaliyyət Planı çərçivəsində hazırlanan V Monitorinq Raundunu əhatə edəcək 2020-2024-cü illər üzrə yeni İş Planının layihəsi təqdim edilmiş, həmçinin yeni dəyərləndirmə metodologiyası və Şəbəkənin maliyyə sabitliyinin təmin edilməsi məqsədilə maliyyə töhfələrinin təqdim edilmə vəziyyəti, eləcə də Şəbəkənin 2018-ci il üzrə illik hesabatı, Şəbəkənin Katibliyi tərəfindən hazırlanmış və Şəbəkəyə üzv ölkələri əhatə edən tədqiqatlar təqdim edilmişdir.

***

Yanvarın 15-24-də Yaponiyanın Xarici İşlər Nazirliyinin "Yaponiyanın Dostluq Əlaqələri Proqramı"nın Avropa regionunu əhatə edən "MİRAİ" layihəsi çərçivəsində həmin ölkəyə mübadilə proqramı baş tutmuşdur.

"Qanunun aliliyi" mövzusunda keçirilmiş tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Səbuhi Alıyev iştirak etmişdir.

Mübadilə proqramının əsas məqsədi iştirakçıların Yaponiyanın dövlət quruluşu, hüquq sistemi, iqtisadiyyatı, tarixi və mədəniyyəti ilə yaxından tanış edilməsi yolu ilə ölkələr arasında ikitərəfli əlaqələrin möhkəmləndirilməsi olmuşdur. Tədbir müddətində iştirakçılar Yaponiya Ali Məhkəməsi və Tokyo yerli məh-




kəməsinə, eləcə ali təhsil müəssisələri və yerli hüquq şirkətlərindən birinə səfər etmiş, ölkənin məhkəmə-hüquq sistemi, cinayət mühakimə icraatının xüsusiyyətləri, iqtisadi mübahisələrin məhkəmədən kənar həlli, Yaponiyanın xarici siyasəti və region ölkələri ilə əməkdaşlığı mövzularında mühazirələr dinləmiş, bu sahələrdə mövcud təcrübə ilə yaxından tanış olmuşlar.

Bununla yanaşı, tədbirdə iştirak edən nümayəndə heyətimiz tərəfindən ölkəmizdə məhkəmə-hüquq quruculuğu, korrupsiyaya qarşı mübarizə və biznes mühitinin əlverişliyinin artırılması istiqamətində həyata keçirilən islahatlar barədə geniş təqdimat həyata keçirilmiş, ölkələrimiz arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

Proqramın yekununda Səbuhi Alıyevə müvafiq sertifikat təqdim edilmişdir.

***

Yanvarın 14-15-də Belçikanın Brüssel şəhərində Avropa Komissiyası tərəfindən Avropa İttifaqına üzv dövlətlərin Aktivlərin Qaytarılması Ofisləri (ARO) Platformasının növbəti iclası keçirilmişdir.

29 ölkədən olan 50 dən çox nümayəndənin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasını Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyevdən və Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin rəisi müavini Elçin Nəsibovdan ibarət nümayəndə heyəti təmsil etmişdir.

Tədbir çərçivəsində əmlakın bərpası problematikası çərçivəsində elektron sübutların tətbiqi, məhkəmə qərarların tanıması, bank hesabların dair məlumatlara hüquq-mühafizə orqanlarının çıxışının asanlaşdırılması və sair aktual məsələlər müzakirə edilmiş, Platformaya üzv dövlətlərin bu sahədə qabaqcıl təcrübələri təqdim olunmuşdur.

Bundan əlavə, tədbirdə ARO-ların səmərəliyinin qarşılıqlı dəyərləndirməsi prosesi çərçivəsində Litva, Slovakiya, Finlandiya və Yunanıstanın dəyərləndirmə hesabtları təqdim edilmiş və müzakirə edilmişdir.

Əmir Ocaqverdiyev tədbirin plenar sessiyasında çıxış edərək ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına ardıcıl və sistemli mübarizənin aparılması istiqamətində görülən işlər, habelə korrupsiya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların fəaliyyəti, o cümlədən əmlakın bərpası sahəsində əldə edilmiş nəticələr, son ildə bu sahədə həyata keçirilmiş çoxsaylı qanunvericilik və institusional islahatlar barədə tədbir iştirakçılarına məlumat vermiş onların çoxsaylı suallarını cavablandırmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Belarus Respublikasının İstintaq Komitəsinin nümayəndə heyəti ölkəmizdə səfərdə olub



Belarus İstintaq Komitəsinin sədri İvan Noskeviçin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib. Səfərin məqsədi Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsidir.

Martın 14-15-də Azərbaycanda səfərdə olan Belarusun İstintaq Komitəsinin sədri İvan Noskeviçin rəhbərlik etdiyi nümayəndə heyəti Bakı şəhərinin mədəni və tarixi abidələri ilə tanış olmuşdur.

Heydər Əliyev Mərkəzinə gələn qonaqlara Mərkəz haqqında məlumat verilmişdir.



Bildirilmişdir ki, Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, elm, təhsil və mədəniyyətin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi, ölkəmizin tarixi və mədəniyyətinin, Azərbaycan dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği, regional və beynəlxalq konfrans və digər tədbirlərin keçirilməsi istiqamətində fəaliyyət göstərir.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq nümayəndə heyətinin üzvlərində zəngin təəssüratlar yaratmışdır.

Nümayəndə heyəti daha sonra 5 saylı Bakı “ASAN xidmət” mərkəzinin fəaliyyəti ilə də tanış olmuşdur.

Qonaqlara “ASAN xidmət” mərkəzlərinin fəaliyyəti barədə ətraflı məlumat verilmişdir.

Qeyd edilmişdir ki, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə məmur-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edən “ASAN xidmət” mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin etmək məqsədilə yaradılmışdır.

Yaradılmış şərait və iş prinsipi ilə tanış olan nümayəndə heyəti "ASAN xidmət"in kollektivinə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

**Baş Prokurorluq**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1215-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddə 2217; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883; № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1251-VQD, 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 43.1-ci maddəyə "549," rəqəmlərindən sonra "550," rəqəmləri əlavə edilsin;

**1.2.** 550-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 550. Feldyeger rabitəsi haqqında qanunvericiliyin pozulması**

**550.1.** "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.1-ci maddəsində göstərilməyən korrespondensiyaların müvafiq ünvanlara çatdırılmaq üçün feldyeger rabitəsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təhvil verilməsinə görə -

vəzifəli şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.

**550.2.** Müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən feldyeger rabitəsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının əməkdaşlarına korrespondensiyaların və digər göndərişlərin operativ və təhlükəsiz çatdırılmasında kömək göstərilməməsinə görə –

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

**550.3.** "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.1-ci maddəsində göstərilən korrespondensiyaların və digər göndərişlərin toxunulmazlığının pozulmasına, yəni açılmasına, yoxlanılmasına və ya həbs edilməsinə görə –

vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

**550.4.** Feldyeger rabitəsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının razılığı olmadan onun operativ nəqliyyat vasitələrindən istifadə edilməsinə görə –

vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

**550.5.** Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması qaydalarının pozulmasına görə –

vəzifəli şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 550.5-ci maddəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək "Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası" ilə eyni gündə qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 dekabr 2018-ci il.
№ 1382-VQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 550-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.5.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

**3.1.** "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD nömrəli Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**3.2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 550.1-ci, 550.2-ci (ikinci halda) və 550.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir;

**3.3.** həmin Məcəllənin 550.2-ci (birinci halda) maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

**4.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1613, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 331 nömrəli, 15 noyabr tarixli 343 nömrəli, 23 noyabr tarixli 360 nömrəli, 10 dekabr tarixli 384 nömrəli və 18 dekabr tarixli 409 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 4.13-cü bənddə "maddəsində və 550-ci maddənin adında və mətnində" sözləri ", 550.1-ci, 550.2-ci (ikinci halda) və 550.4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

**4.2.** aşağıdakı məzmunda 4.43-2-ci bənd əlavə edilsin:

**"4.43-2.** həmin Məcəllənin 550.2-ci (birinci halda) maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti nəzərdə tutulur.";

**4.3.** 5.62-ci bənd ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 yanvar 2019-cu il.
№ 462

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1251-VQD və 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD və 1307-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 594.0.4-1-ci maddə əlavə edilsin:

**“594.0.4-1.** inzibati orqan tərəfindən inzibati icraat üçün zəruri olan və digər inzibati orqanın sərəncamında olan sənədlərin və ya məlumatların əldə olunmasının ərizəçidən tələb edilməsinə;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 dekabr 2018-ci il
№ 1384-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1251-VQD, 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1363-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 116.1-ci maddəyə “279.0.1,” rəqəmlərindən sonra “393-1.2, 393-1.4,” rəqəmləri əlavə edilsin;

**1.2.** aşağıdakı məzmunda 393-1-ci maddə əlavə edilsin:

**“Maddə 393-1. Mənzil qanunvericiliyinin pozulması**

**393-1.1.** Kooperativ binanın tikintisi və (və ya) yenidən qurulması tam başa çatdıqdan və həmin binada mövcud olan yaşayış və qeyri-yaşayış sahələrinin ümumi sayının əlli faizindən çoxuna mülkiyyət hüququ mənzil-tikinti kooperativinin üzvlərinə keçdikdən sonra bir ay müddətində mənzil-tikinti kooperativinin qanunla müəyyən olunmuş qaydada ləğvi və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi barədə qərar qəbul edilməməsinə və ya qəbul edilmiş həmin qərarla bağlı hüquqi şəxslərin qeydiyyatı haqqında qanunvericiliyə uyğun olaraq zəruri tədbirlərin görülməməsinə görə –

vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

**393-1.2.** Çoxmənzilli binanın idarəetmə üsulunun seçilməsi məsələsinin həlli üçün həmin binanın yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən olunmuş qaydada tədbirlərin görülməməsinə görə –

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

**393-1.3.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydanı pozmaqla, çoxmənzilli binanın idarə edilməsi, habelə həmin qaydanın müddəalarının (o cümlədən, həmin qaydada edilən sonrakı dəyişikliklərin) çoxmənzilli binanın idarə edilməsi müqaviləsində əks etdirilməməsinə görə -

vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**393-1.4.** Çoxmənzilli binanın sahə mülkiyyətçisi tərəfindən ona məxsus olan sahənin saxlanması xərclərini, habelə mənzil qanunvericiliyinə uyğun olaraq çoxmənzilli binanın ümumi əmlakının saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırılmasına görə –

ödənilməli olan ödənişlərin məbləğinin yüz faizindən yüz əlli faizinədək məbləğdə cərimə edilir.

**393-1.5.** Ağır xroniki xəstəliklərə düçar olmuş şəxsin sosial kirayə müqaviləsinə əsasən yaşadığı və ya köçdüyü yaşayış sahəsinin ikinci əldən kirayəyə verilməsinə görə-

yüz manat məbləğində cərimə edilir.

**393-1.6.** Çoxmənzilli binanın sahə mülkiyyətçilərinə Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən olunmuş qaydada binanın idarə edilməsi üsulunun seçilməsində maneçilik törədilməsinə görə –

vəzifəli şəxslər üç yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.”.

**Maddə 2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 393-1.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsinə görə məsuliyyət müvafiq icra hakimiyyəti orqanının çoxmənzilli binanın idarə edilməsi ilə bağlı müəyyən etdiyi qayda qüvvəyə mindikdən sonra yaranır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 dekabr 2018-ci il
№ 1395-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddə 2217; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1251-VQD, 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1363-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 221.10-cu–221.11-ci maddələr əlavə edilsin:

**“221.10.** Dərman vasitələrinin istehsalına, daşınmasına və saxlanmasına, eləcə də topdan satışına dair tələblərin pozulmasına görə –

vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

**221.11.** Bu Məcəllənin 221.10-cu maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

vəzifəli şəxslər iki min beş yüz manatdan dörd min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.”.

**2.** 452-ci maddə üzrə:

**2.1.** adında “qaydalarının” sözündən sonra “və aptek təşkilatlarına dair tələblərin” sözləri əlavə edilsin;

**2.2.** aşağıdakı məzmunda 452.3–452.4-cü maddələr əlavə edilsin:

**“452.3.** Aptek təşkilatlarına dair tələblərin pozulmasına görə –

vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**452.4.** Bu Məcəllənin 452.3-cü maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 dekabr 2018-ci il
№ 1398-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; 2017, № 5, maddələr 696, 711, № 7, maddə 1295; 2017, № 11, maddə 1959; 2018, № 7, I kitab, maddə 1407; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1273-VQD nömrəli və 30 noyabr tarixli 1365-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 2.3-cü maddə əlavə edilsin:

**"2.3.** Ələt azad iqtisadi zonasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 dekabr 2018-ci il.
№ 1407-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 635) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 37-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 37-1. | Qabapentin. Bütün qabapentin tərkibli dərman vasitələrinə şamil olunur. (1-(Aminometil) tsikloheksansirkə turşusu) | 5 |

**2.** 79-cu hissədən "100mq-150mq-200mq və daha artıq" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 dekabr 2018-ci il
№ 1421-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009,

2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD, 1317-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1363-VQD və 1371-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 276-1-ci və 457-1-ci maddələr əlavə edilsin:

**“Maddə 276-1. Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməməsi**

Təhlükə potensiallı obyektlərin “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət reyestrində qeydiyyatdan keçirilməməsinə görə –

fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan on min manatadək məbləğdə cərimə edilir.

**Maddə 457-1. Əlvan və qara metal tullantılarının qəbulu qaydalarının pozulması**

**457-1.1.** Əlvan və qara metal tullantılarının qəbulu qaydalarının pozulmasına, yəni:

**457-1.1.1.** əldə edilmə mənbəyi məlum olmayan, qanunsuz yolla əldə edilməsi müəyyən edilən əlvan və qara metal tullantılarının qəbul olunmasına;

**457-1.1.2.** fiziki şəxslərdən şəxsiyyəti təsdiq edən sənədlər tələb olunmadan əlvan və qara metal tullantılarının qəbul edilməsinə;

**457-1.1.3.** radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilmədən əlvan və qara metal tullantılarının qəbul edilməsinə;

**457-1.1.4.** qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin alınması obyektləri təhlükə potensiallı obyektlər olaraq dövlət reyestrində qeydiyyatdan keçirilməyən sahibkarlıq subyektləri tərəfindən bu növ tullantıların qəbulu fəaliyyətinin həyata keçirilməsinə görə –

fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd yüz manatdan altı yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**457-1.2.** Bu Məcəllənin 457-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 dekabr 2018-ci il
№ 1427-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD, 1317-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1363-VQD və 1371-VQD nömrəli qanunları) 485-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** maddənin adında “məlumatın verilməsi” sözlərindən sonra “, yaxud əvvəlcədən qısa idxal bəyannaməsinin verilməməsi” sözləri əlavə edilsin;

**1.2.** maddənin mətni 485.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 485.2-ci maddə əlavə edilsin:

**“485.2.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə –

vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər min beş yüz manat məbləğində cərimə edilir.”.

**Maddə 2.** Bu Qanun 2019-cu il fevralın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 dekabr 2018-ci il
№ 1432-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında" Protokolun təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Soçi şəhərində keçirilmiş 2017-ci il 11 oktyabr tarixli iclasında imzalanmış "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında" Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 fevral 2019-cu il
№ 1499-VQ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında Protokol"un icrası ilə bağlı səlahiyyətli orqanların müəyyən edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1499-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında Protokol"un 5-ci maddəsinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Soçi şəhərində keçirilmiş 2017-ci il 11 oktyabr tarixli iclasında imzalanmış "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında Protokol"u Azərbaycan Respublikası tərəfinin həyata keçirməsi ilə bağlı səlahiyyətli orqanlar qismində Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi müəyyən edilsinlər.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Protokolun Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi üzrə səlahiyyətli orqanların müəyyən edildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 mart 2019-cu il
№ 1045

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 2 (II kitab), maddə 215, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 2, maddə 154, № 5, maddə 755, № 6, maddələr 1019, 1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli, 1406-VQD və 1451-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 11.5-ci maddə əlavə edilsin:

«**11.5.** Tikinti layihələrinin şəhərsalma sənədlərinə uyğunluğunun yoxlanılmasına, habelə siyahısını, məbləğini və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tikinti fəaliyyəti sahəsində müvafiq qurumlar tərəfindən göstərilən digər xidmətlərə görə haqq ödənilir.».

**2.** 75-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

«**75.1.** Barəsində icazə tələb olunan tikinti şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə zidd olmadığı təqdirdə, müvafiq icra hakimiyyəti orqanı (qurum) (reklam qurğularının tikintisinə istisna olmaqla) tikintiyə icazə verməlidir. Reklam qurğularının tikintisinə icazənin verilməsi

qaydası bu Məcəllənin 81-ci maddəsi ilə müəyyən edilir. Tikintiyə icazə müvafiq tikinti ərazisi üçün qüvvədə olan müfəssəl plan əsasında verilir. Belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyü bu Məcəllənin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə əsasən yoxlanılır.

**75.2.** Sifarişçi tikintiyə icazə almaq üçün müraciət etməzdən əvvəl tikinti aparmaq istədiyi ərazidə aparılacaq tikintinin icazə verilən parametrlərini (ərazinin tikinti əmsalı, ərazinin tikinti sıxlığı əmsalı, tikinti obyektlərinin hündürlüyü və s.) öyrənmək məqsədi ilə obyektin təyinatını göstərməklə, müvafiq icra hakimiyyəti orqanına (quruma) sorğu ilə müraciət edə bilər. Həmin müraciətə 10 gün müddətində əsaslandırılmış cavab verilməlidir.

**75.3.** Sifarişçi tikintiyə icazə almaq üçün müvafiq icra hakimiyyəti orqanına (quruma) ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

**75.3.1.** torpaq sahəsi üzərində tikinti aparılmasına səlahiyyət verən mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti;

**75.3.2.** tikinti layihəsi;

**75.3.3.** sifarişçi hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti fiziki şəxs olduqda, şəxsiyyətini təsdiq edən sənədin surəti.

**75.4.** Müvafiq icra hakimiyyəti orqanı (qurum) tikintiyə dair ərizənin və tikinti layihəsinin təqdim edildiyi vaxtdan 3 iş günü, ekspertizadan keçirilməsi tələb olunmayan tikinti layihələrinə münasibətdə isə 2 iş günü ərzində bu Məcəllənin 75.3-cü maddəsində nəzərdə tutulmuş sənədlərin tamlığını yoxlayır. Sənədlər tam təqdim olunmadıqda, müvafiq icra hakimiyyəti orqanı (qurum) onların tamamlanması üçün zəruri hərəkətlər barədə ərizəçiyə dərhal məlumat verir və bu məqsədlə 10 gün müddət təyin edir. Sənədlərin tamlığının təmin edilməməsinin hüquqi nəticələri ərizəçiyə izah olunur.

**75.5.** Tikintiyə dair sənədlərin tamlığı təmin edildikdən sonra, müvafiq icra hakimiyyəti orqanı (qurum) aşağıdakıları təmin edir:

**75.5.1.** tikinti layihəsinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğun olub-olmaması barədə rəy verilməsini;

**75.5.2.** bu Məcəllənin 75.5.1-ci maddəsinə müvafiq olaraq tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə rəy müsbət olduğu təqdirdə – bu Məcəllənin 75.6-cı maddəsində qeyd edilən tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan digər aidiyyəti qurumlara rəy bildirilməsi üçün sorğu göndərilməsini.

**75.6.** Tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan qurumları tikintinin təyinatına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**75.7.** Bu Məcəllənin 75.5.1-ci maddəsində göstərilən rəy 5 iş günü müddətində, 75.5.2-ci maddəsində göstərilən sorğuya isə layihəsi ekspertizadan keçirilməsi tələb olunan obyektlərə münasibətdə 15 gün, layihəsi ekspertizadan keçirilməsi tələb olunmayan obyektlərə münasibətdə 5 gün müddətində bildirilməlidir. Bu müddətlər ərzində göstərilən rəylər bildirilmədikdə, müvafiq icra hakimiyyəti orqanı (qurum) iradların olmaması prezumpsiyasından çıxış edir. Tikinti layihəsinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğun olmaması barədə rəy tikintiyə icazə verilməsindən imtina üçün əsasdır.

**75.8.** Müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunmayan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla 15 iş günü müddətində baxır və tikintiyə icazə verilməsi və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir.

**75.9.** Tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə rəy müsbət olduğu təqdirdə, müvafiq icra hakimiyyəti orqanı (qurum) layihəsi ekspertizadan keçirilməsi tələb olunan tikintiyə icazə icraatı çərçivəsində tikinti layihələrini ekspertizadan keçirmək üçün ekspertiza müəssisəsinə göndərir.

**75.10.** Müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla, 1 ay (bu Məcəllənin 90.2-ci maddəsində ekspertiza müddətinin uzadılması üçün nəzərdə tutulan hallar istisna olmaqla) müddətində baxır və tikintiyə icazə verilməsi və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir. Şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunmasını təmin etmək məqsədilə tikintiyə icazədə siyahısını və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əlavə şərtlər də nəzərdə tutulur.

**75.11.** Tikintiyə icazə verildiyi halda tikintiyə icazənin surəti, habelə tikinti layihəsinin bir nüsxəsi ərizəçiyə təqdim edilir və belə icazə tikinti işlərinə başlanması üçün əsas hesab olunur. Tikintiyə icazədə tikintiyə başlanılması üçün siyahısını və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əlavə şərtlər nəzərdə tutulduğu hallarda həmin əlavə şərtlərin yerinə yetirilməsindən sonra ərizəçiyə xüsusi nişan təqdim edilir və bu halda xüsusi nişan tikinti işlərinin başlanmasına əsas hesab edilir. Tikinti işlərinin başlanması üçün əlavə şərtlər olduqda, tikintiyə icazədə mütləq göstərilməlidir. Tikintiyə icazənin, xüsusi nişanın formasını və məzmununu müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Bu Məcəllənin 75.4-cü maddəsinə uyğun olaraq sənədlərin tamamlanması üçün zəruri hərəkətlər barədə ərizəçiyə məlumat verildiyi gündən sənədlərin tamlığı təmin edildiyi günədək olan müddət tikintiyə icazə icraatı üçün nəzərdə tutulmuş müddətə daxil edilmir.

**75.12.** Tikintiyə icazədən irəli gələn hüquq və vəzifələr sifarişçinin hüquqi varislərinə də şamil olunur.

**75.13.** Tikintiyə icazə barədə qərarın əsli və tikinti layihəsinin bir nüsxəsi müvafiq icra hakimiyyəti orqanında (qurumda) saxlanılır. Bu qayda barəsində məlumatlandırma icraatının aparıldığı obyektlərin tikinti layihəsinə də şamil edilir.

**75.14.** Tikintiyə icazə verən müvafiq icra hakimiyyəti orqanı (qurum) icazədə nəzərdə tutulmuş məlumatları 3 iş günü müddətində vahid informasiya təminatı sisteminin tərkib hissəsi olan Tikintilərin Dövlət Reyestrinə təqdim edir. Həmin məlumatlar 3 iş günü ərzində Tikintilərin Dövlət Reyestrinin internet saytında yerləşdirilir.

**75.15.** Tikintiyə və tikinti obyektinin istismarına icazə verilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.».

**3.** 81.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«81.2.** Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum reklam qurğularının tikintisinə icazənin verilməsi ilə bağlı bu Məcəllənin 75.4-cü, 75.5-ci, 75.8-ci, 75.11-ci, 75.14-cü və 82.1-ci maddələrində nəzərdə tutulmuş tədbirləri görür.».

**4.** 86.1.5-ci maddədə «75.7-ci» sözləri «75.11-ci» sözləri ilə əvəz edilsin.

**5.** 106-cı maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

«Bu Məcəllənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi, həmçinin bu Məcəllənin 11.5-ci maddəsinə əsasən toplanan haqqın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hissəsi müvafiq icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanlarının hesablarına köçürülür. Bu vəsaitin bölgüsü və ondan istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 2019-cu il
№ 1525-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12, I kitab, maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1417-VQD nömrəli Qanunu) 56-cı maddəsinə aşağıdakı məzmunda 10-cu bənd əlavə edilsin:

**«10.** Tikinti məqsədləri üçün dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahəsi ayrılarkən (məlumatlandırma icraatı qaydasında yaşayış evlərinin tikintisi üçün ayrılan torpaq sahələri istisna olmaqla) həmin torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin müvafiq ərazinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğunluğu barədə rəy verilməsinə görə xeyrinə torpaq sahəsinin ayrılması ilə bağlı müraciət etmiş şəxs müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və məbləğdə xidmət haqqı ödəyir. Bu bəndin birinci cümləsində nəzərdə tutulmuş xidmət haqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hissəsi müvafiq icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanlarının hesablarına köçürülür. Bu vəsaitin bölgüsü və ondan istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 2019-cu il
№ 1526-VQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 383 nömrəli, 21 dekabr tarixli 430 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 19-cu hissəsinə “229,” rəqəmlərindən sonra “253-1.1.1 (yaşıllıqların uçota alınmamasına münasibətdə), 253-1.1.2 (yaşıllıqların uçotu məlumatlarının təhrif edilməsinə münasibətdə), 253-1.1.3,” rəqəmləri və sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 fevral 2019-cu il.
№ 517

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ
## Q Ə R A R
## № 96

Bakı şəhəri, 14 mart 2019-cu il

**«Haqqı ödənilən ictimai işlərin təşkili Qaydalarının təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 may tarixli 84 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında**

«Məşğulluq haqqında» Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 may tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 321; 2008, № 2, maddə 130; 2011, № 2, maddə 157, № 5, maddə 449; 2017, № 12 (II kitab), maddə 2550; 2018, № 10, maddə 2164) ilə təsdiq edilmiş «Haqqı ödənilən ictimai işlərin təşkili Qaydaları»nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bənddə «Qanununa» sözü «Qanununun 21.5-ci maddəsinə» sözləri ilə əvəz edilsin.

**2.** 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**«1.2.** Haqqı ödənilən ictimai işlər (bundan sonra – ictimai işlər) – işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə «Məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil edilən ilkin peşə hazırlığının olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyan iş yerləridir.».

**3.** 1.3-cü bənd ləğv edilsin.

**4.** 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**«2.1.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin şəhər, rayon, məşğulluq orqanları (bundan sonra – məşğulluq mərkəzləri) «Məşğulluq haqqında» Azərbaycan Respublikası Qanununun 21.1-ci maddəsinə uyğun olaraq mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrdə işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə onların müqavilələr üzrə ödənişli ictimai işlərə cəlb olunmasını təşkil edir.».

**5.** 2.2-ci bəndin birinci abzası üzrə:

**5.1.** «İşaxtaranların» sözü «İşsizlərin» sözü ilə, «mülkiyyət və təsərrüfat» sözləri «mülkiyyət növündən və təşkilati-hüquqi» sözləri ilə əvəz edilsin;

**5.2.** «şəhər, rayon» sözləri çıxarılsın;

**5.3.** «yerli» sözündən əvvəl «məşğulluğa kömək göstərən» sözləri əlavə edilsin.

**6.** 2.3-cü bənd üzrə:

**6.1.** birinci abzasdan «şəhər, rayon» sözləri çıxarılsın;

**6.2.** ikinci abzasda «işaxtaran vətəndaşların» sözləri «işsiz şəxslərin» sözləri ilə əvəz edilsin və həmin abzasdan «şəhər, rayon» sözləri çıxarılsın.

**7.** 2.5-ci bənd üzrə:

**7.1.** birinci cümlədə «İşaxtaran vətəndaşların» sözləri «İşsiz şəxslərin» sözləri ilə əvəz edilsin və həmin abzasdan «şəhər, rayon» sözləri çıxarılsın;

**7.2.** ikinci cümlədə «Vətəndaşın» sözü «İşsiz şəxsin» sözləri ilə əvəz edilsin.

**8.** 2.6-cı bəndin ikinci cümləsindən «şəhər, rayon» sözləri çıxarılsın.

**9.** 2.7-ci bəndin birinci abzası üzrə:

**9.1.** birinci cümlədə «İctimai işlərə cəlb olunan vətəndaşlarla» sözləri «İctimai işlərdə iştirak etmək istəyən işsiz şəxslərlə» sözləri ilə əvəz edilsin və həmin cümləyə «arasında» sözündən sonra «Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq» sözləri əlavə edilsin;

**9.2.** ikinci cümlədə «Şəhər, rayon məşğulluq mərkəzlərində işsiz kimi qeydə alınmış, lakin işsizlikdən sığorta ödənişi almayan işsiz vətəndaşlar» sözləri «İşsizlikdən sığorta ödənişi almayan işsiz şəxslər» sözləri ilə əvəz edilsin.

**10.** 2.8-ci bənddə «vətəndaş» sözü «işsiz şəxs» sözləri ilə, «vətəndaşı» sözü «işsiz şəxsi» sözləri ilə əvəz edilsin və həmin bənddən «şəhər, rayon» sözləri çıxarılsın.

**11.** 3.1-ci bənddə «21-ci maddəsində göstərilən mənbələr» sözləri «19.0.2.3-cü maddəsinə uyğun olaraq işsizlikdən sığorta vəsaiti» sözləri ilə əvəz edilsin.

**12.** 3.3-cü bənd üzrə:

**12.1.** birinci abzasda «21-ci maddəsində göstərilən mənbələr» sözləri «19.0.2.3-cü maddəsinə uyğun olaraq işsizlikdən sığorta vəsaiti» sözləri ilə əvəz edilsin və həmin abzasdan «şəhər, rayon» sözləri çıxarılsın;

**12.2.** ikinci və üçüncü abzaslardan «şəhər, rayon» sözləri çıxarılsın;

**12.3.** dördüncü abzasda «vətəndaşların» sözü «işsiz şəxslərin» sözləri ilə əvəz edilsin və həmin abzasdan «şəhər, rayon» sözləri çıxarılsın.

**13.** 3.4-cü bənddə «vətəndaşların» sözü «işsiz şəxslərin» sözləri ilə əvəz edilsin və həmin bənddən «şəhər, rayon» sözləri çıxarılsın.

**14.** Aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

**«3.5.** «Məşğulluq haqqında» Azərbaycan Respublikası Qanununun 16.1.1-ci maddəsinə uyğun olaraq, yerli özünüidarəetmə orqanları öz vəsaiti hesabına işaxtaran və işsiz şəxslər üçün haqqı ödənilən ictimai işlər təşkil edə bilərlər.».

**15.** Qaydalara əlavə — «Ərazi məşğulluq proqramına uyğun rayonu (şəhəri) üzrə görülmüş haqqı ödənilən ictimai işlər barədə aylıq arayış»da hər iki halda «Şəhər (rayon) məşğulluq» sözləri «Məşğulluq» sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz MƏMMƏDOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ
# Q Ə R A R
# № 101

Bakı şəhəri, 15 mart 2019-cu il

**"Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları"nın təsdiq edilməsi haqqında**

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları" təsdiq edilsin *(əlavə olunur)*.

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz Məmmədov**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 101 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları

### 1. Ümumi müddəalar

**1.1.** "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları" (bundan sonra – standartlar) Azərbaycan Respublikasının "Təhsil haqqında", "Peşə təhsili haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" qanunlarına və Cəzaların İcrası Məcəlləsinə əsasən hazırlanmışdır.

**1.2.** Bu standartlar aşağıdakıları müəyyənləşdirir:

**1.2.1.** cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində peşə təhsilinin məzmununu;

**1.2.2.** cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində peşə təhsilinin idarə olunmasını;

**1.2.3.** cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin və xüsusi peşə təhsili müəssisələrinin maddi-texniki bazasını;

**1.2.4.** cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin və xüsusi peşə təhsili müəssisələrinin infrastrukturunu;

**1.2.5.** təhsilverənlərin keyfiyyət göstəricilərini;

**1.2.6.** təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini.

**1.3.** Bu standartlar Azərbaycan Respublikasının ərazisində cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən bütün peşə təhsili müəssisələrinə və xüsusi peşə təhsili müəssisələrinə şamil olunur və peşə təhsili sahəsində ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasında və tətbiqində əsas tutulur. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə əsasən peşəsi və ixtisası olmayan məhkumlar üçün cəzaçəkmə müəssisələrində peşə təhsili və peşə hazırlığı həyata keçirilir.

**1.4.** Peşə təhsili pilləsində tədris nəticəyönlü, səriştə əsaslı və modul strukturlu təhsil proqramları (bundan sonra – kurikulum) əsasında həyata keçirilir və varislik təmin olunur.

**1.5.** Bu standartlar 5 ildən bir yenilənir.

### 2. Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində peşə təhsilinin məzmunu

**2.1.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində peşə təhsilinin məzmunu peşə təhsilinin dövlət standartlarına uyğun olaraq təşkil edilir.

**2.2.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tədris ili 2 yarımildən ibarətdir. Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində hər tədris ilində təlim müddəti 15 sentyabr tarixindən başlanır və nümunəvi tədris planına müvafiq olaraq yekunlaşır. Xüsusi peşə təhsili müəssisələrində təhsilalanların komplektləşdirilməsindən asılı olaraq, tədris prosesi ilin istənilən vaxtında başlana bilər. Dərs ili ərzində qış tətili 8 gündür.

**2.3.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində təlim məşğələləri 45 dəqiqə, məşğələlərarası fasilə isə 5-10 dəqiqə müəyyənləşdirilir. Tədris emalatxanalarında praktik məşğələlər zamanı təlimin birinci ilində hər 45 dəqiqədən, təlimin ikinci və sonrakı illərində hər 90 dəqiqədən sonra 10 dəqiqə fasilə verilir.

### 3. Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin və xüsusi peşə təhsili müəssisələrinin idarə olunması

**3.1.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsi və xüsusi peşə təhsili müəssisəsi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa, digər normativ hüquqi aktlara və öz Nizamnaməsinə uyğun idarə olunur.

**3.2.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən

peşə təhsili müəssisələrinin və xüsusi peşə təhsili müəssisələrinin ali idarəetmə orqanı Pedaqoji Şuradır. Pedaqoji Şuranın yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Pedaqoji Şura haqqında Əsasnamə və təhsil müəssisəsinin Nizamnaməsi ilə tənzimlənir.

**3.3.** Pedaqoji Şuranın iclaslarında təhsil sahəsində dövlət siyasətinə uyğun olaraq təlim-tərbiyə, tədris prosesinin təşkili və həyata keçirilməsi, işəgötürənlərlə qarşılıqlı əlaqələr, innovativ pedaqoji ideyaların və istehsalat yeniliklərinin tətbiqi, sağlam psixoloji mühit və təhlükəsiz şəraitin yaradılması, maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, maliyyələşmə ilə bağlı məsələlər, ümumi fəaliyyətin yaxşılaşdırılması, həvəsləndirmə, mükafatlandırma istiqamətində təkliflər və hesabatlar müzakirə olunaraq müvafiq qərarlar qəbul edilir.

**3.4.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsi və xüsusi peşə təhsili müəssisəsi hər növbəti tədris ili üçün tərtib edilmiş və Pedaqoji Şurada təsdiq olunmuş planlar əsasında idarə edilir.

**3.5.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsinə və xüsusi peşə təhsili müəssisəsinə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən vəzifəyə təyin edilən şəxs rəhbərlik edir.

**3.6.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

**3.7.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsi öz fəaliyyətinə görə vətəndaşlar, cəmiyyət, dövlət qarşısında məsuliyyət daşıyır.

**4. Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsinin və xüsusi peşə təhsili müəssisəsinin maddi-texniki bazası**

**4.1.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsinin və xüsusi peşə təhsili müəssisəsinin maddi-texniki bazası daşınan və daşınmaz əmlakdan ibarətdir.

**4.2.** Peşə təhsili müəssisəsinin maddi-texniki bazası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nə uyğun olmalıdır.

**4.3.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsinin maddi-texniki bazasına mövcud ixtisasların tələblərinə uyğun olaraq tədris laboratoriyaları, emalatxanalar, təhsilalan və təhsilverənlər üçün mebel avadanlıqları, informasiya kommunikasiya texnologiyası avadanlıqları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitlər, təlimin texniki vasitələri, dərslik və elmi-bədii ədəbiyyat fondu daxildir.

**5. Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin və xüsusi peşə təhsili müəssisələrinin infrastrukturu**

**5.1.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində peşə təhsilinin infrastrukturuna qoyulan minimum tələblər ömürboyu təhsili təmin edən təhlükəsiz və rahat təhsil şəraitinin, pedaqoji kadrlarla təminatın, təhsil fəaliyyəti üçün zəruri imkanlara malik təmirli binaların, yardımçı bina və qurğuların, kitabxananın, su, istilik, elektrik sistemlərinin, sanitar qovşaqların olmasından ibarətdir.

**5.2.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində təhsilalanların ixtisasları nəzərə alınmaqla, onların nəzəri dərs, istehsalat təlim və təcrübə keçmələri üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən xüsusi sahə ayrılmalıdır.

**6. Təhsilverənlərin keyfiyyət göstəriciləri**

**6.1.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində təhsilverənlərin keyfiyyət göstəricilərinə aşağıdakılar daxildir:

**6.1.1.** ixtisası üzrə dövrün tələbatına uyğun elmi-nəzəri biliklər və praktik səriştə;

**6.1.2.** təhsilalanlarla ünsiyyət qurma və iş bacarığı;

**6.1.3.** əxlaqi-mənəvi keyfiyyətlər, pedaqoji etika və mədəniyyət;

**6.1.4.** əməkdaşlıq, tədqiqatçılıq, özünü təhsil və idarəçilik bacarıqları;

**6.1.5.** yaradıcılıq və sağlam rəqabət tələb edən layihələrdə, müsabiqə və innovativ proqramlarda iştirak etmək qabiliyyəti;

**6.1.6.** öz fəaliyyətini təqdim etmək və qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnmək bacarığı;

**6.1.7.** ədalətlilik, məsuliyyətlilik və cavabdehlik;

**6.1.8.** işlədiyi təhsil müəssisəsində və ictimaiyyətdə hörmət və nüfuz qazanmaq bacarığı.

**6.2.** Peşə təhsili müəssisəsində təhsilverənlərin attestasiyası (sertifikatlaşdırılması) "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirilir.

**6.3.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində çalışan təhsilverənlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi "Peşə təhsili müəssisələrində müəllim-pedaqoji heyətin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması qaydaları"na uyğun olaraq həyata keçirilir.

**6.4.** Peşə təhsili sisteminə yeni işə qəbul edilən pedaqoji təhsili olmayan rəhbər və mühəndis-pedaqoji işçilərin pedaqogikaya və psixologiyaya dair biliklərə, həmçinin fənlərin tədrisi metodikası üzrə bacarıqlara malik olmalarını təmin edən təhsil proqramları (kurikulumlar) üzrə təlimlərdən 3 ay müddətində keçmələri təmin edilir.

**6.5.** Peşə-ixtisas fənn müəllimlərinin və istehsalat təlimi ustalarının peşələrinə uyğun 3 ildən bir müəssisə və təşkilatlarda yeni texnika və texnologiyalar üzrə istehsalat təcrübəsi keçmələri təmin olunur.

**7. Təhsilalanların səriştə səviyyəsi**

**7.1.** Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası"na uyğun olaraq həyata keçirilir.

**7.2.** Peşə təhsili pilləsində təhsilalanların səriştə səviyyəsi Milli Kvalifikasiyalar Çərçivəsinə uyğun olaraq, ixtisasın kvalifikasiya standartları əsasında hazırlanmış kurikulumlarda və ayrı-ayrı modullarda bilik, bacarıq və məsuliyyət (yanaşma) xüsusiyyətləri qeyd edilən təlim nəticələrinə əsasən müəyyən edilir.

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ
## Q Ə R A R
## № 110

Bakı şəhəri, 18 mart 2019-cu il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" 2001-ci il 1 fevral tarixli 31 nömrəli, "Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1343-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 814 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli 31 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 110, № 7, maddə 512; 2002, № 9, maddə 580; 2005, № 6, maddə 559; 2006, № 8, maddə 730; 2009, № 9, maddə 755; 2010, № 1, maddə 67; 2016, № 12, maddə 2230; 2018, № 2, maddə 362, № 5, maddə 1112) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci hissədə "və 193.4-cü" sözləri ",193.4-cü və 194-cü" sözləri ilə əvəz edilsin və həmin hissəyə "müdafiəçiyə" sözündən sonra "(vəkilə)" sözü əlavə edilsin;

**1.2.** 4-cü hissəyə "müdafiəçinin" sözündən sonra "(vəkilin)" sözü əlavə edilsin.

**2.** "Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 866; 2006, № 3, maddə 303, № 5, maddələr 463, 468, № 8, maddə 731, № 9, maddə 822, № 11, maddə 994; 2007, № 1, maddə 50, № 10, maddə 1021, № 12, maddələr 1343, 1352; 2008, № 2, maddə 130, № 4, maddə 308, № 10, maddə 936; 2009, № 1, maddələr 22, 32, № 2, maddələr 144, 150, № 9, maddələr 736, 753; 2010, № 4, maddə 369, № 11, maddə 1048; 2011, № 1, maddə 66, № 4, maddə 365; 2012, № 9, maddə 934; 2013, № 8, maddə 1000, № 10, maddə 1202; 2014, № 1, maddələr 59, 69, № 2, maddə 201, № 5, maddə 557, № 6, maddələr 745, 747, № 9, maddə 1130; 2015, № 2, maddə 227, № 3, maddələr 328, 337, № 6, maddələr 774, 781, № 7, maddə 890, № 11, maddə 1412; 2016, № 3, maddə 595, № 4, maddələr 806, 831, № 5, maddələr 941, 955, № 8, maddə 1450, № 9, maddə 1561, № 12, maddələr 2220, 2241; 2017, № 4, maddə 643, № 6, maddə 1244, № 9, maddələr 1722, 1745, № 10, maddə 1896; 2018, № 1, maddə 122, № 3, maddə 630, № 4, maddələr 785, 831, № 6, maddə 1356, № 7 (II kitab), maddə 1628, № 8, maddə 1799, № 10, maddələr 2142, 2155, № 11, maddə 2428) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Büdcə xərclərinin funksional təsnifatı"na Əlavənin 14.3.0-cı və 14.3.2-ci yarımbəndlərinə "göstərilməsi," sözündən sonra "ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi," sözləri əlavə edilsin.

**2.2.** həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Büdcə xərclərinin iqtisadi təsnifatına" Əlavənin "282100. "Sair xərclər" paraqrafına "yardımın göstərilməsi," sözlərindən sonra "ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi," sözləri əlavə edilsin.

**3.** "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə"nin "3.5.0. "Hüquqi yardım" köməkçi bölməsinə "təqsirləndirilən şəxslərə" sözlərindən sonra ", ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkilə" sözləri əlavə edilsin;

**3.2.** həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "222990. "Sair xərclər" maddəsinə "göstərilməsi," sözündən sonra "ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi ilə bağlı xərclər," sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz Məmmədov**

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

### AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

# Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışına dair

Bakı şəhəri, 14 fevral 2019-cu il

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov (məruzəçi hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri İlqar Cəfərov, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaqa nəzarət şöbəsinin prokuroru, ədliyyə mayoru Fərəc Sayılov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Paşayevanın,

ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Kəmalə Nəzərovanın,

mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İnqilab Nəsirovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışının hansı müddəti ehtiva etməsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 333-cü maddəsində nəzərdə tutulmuş cinayətin subyektlərinin hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmələri və ya üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında gəlməmələri halları üzrə həmin maddədə göstərilən "gün" anlayışının hansı müddəti ehtiva etməsinin şərh edilməsini xahiş etmişdir.

Sorğu onunla əsaslandırılmışdır ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulan cinayətin subyektlərinin hərbi hissəni özbaşına tərk etmə və ya xidmət yerinə vaxtında gəlməmələrinin günlərlə hesablandığı hallarda onların əməllərinə cinayət hüquqi qiymət verilməsi ilə bağlı məhkəmə təcrübəsində ziddiyyətlər yaranmışdır. Belə ki, məhkəmələr tərəfindən əksər hallarda Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 2005-ci il 18 iyul tarixli Qərarına istinad edilərək hərbi qulluqçular hərbi hissəni və ya xidmət yerini tərk etdikləri və xidmət yerinə gəlmədikləri andan növbəti gün eyni saatadək olan müddət 1 gün kimi hesablanmaqla Cinayət Məcəlləsinin 333-cü maddəsi ilə təqsirli bilinərək məhkum edilirlər.

Lakin bəzi məhkəmələr bu müddətin hesablanması ilə bağlı fərqli mövqeyə əsaslanaraq göstərmişlər ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində müddətlər saatlarla deyil, günlərlə göstərildiyinə görə, həmin maddədə nəzərdə tutulmayan vaxt ölçüsü kimi saata istinad edilməsi və şəxsin cinayət məsuliyyətinə günün deyil, saatın keçməsi ilə bağlı cəlb edilməsi hüquqi müəyyənlik prinsipinin tələblərinə ziddir. Bu halda məhkəmələr Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 202.1-ci maddəsinə istinad edərək belə nəticəyə gəlirlər ki, cinayət mühakimə icraatı zamanı həmin Məcəllə ilə müəyyən edilmiş müddətlər saatlar, günlər, aylar, illərlə hesablanır və Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən müddət günün bitməsi və növbəti günün başlaması kimi gecə saat 12:00-dan sonra hesablanmalıdır.

Göstərilənlərə əsasən sorğuverən hesab edir ki, məhkəmələr tərəfindən Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışına cinayət-prosessual qanunvericiliyinə istinad olunmaqla cinayət hüquqi qiymət verilməsi həmin maddənin tətbiqi sahəsində ziddiyyətlər yaradır.

Sorğu ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Cinayət Məcəlləsinin 333.1-ci maddəsinə əsasən, çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmadıqda və ya üç gündən az olsa belə, eyni əməllər altı ay ərzində təkrar törədildikdə bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin qeyd olunan maddəsində nəzərdə tutulan cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, həmin əməlin törədilməsi ilə hərbi qulluq keçmənin qanunla müəyyən edilmiş qaydalarına qəsd edilməsi Azərbaycan Respublikasının Silahlı Qüvvələrində intizamın aşağı səviyyəyə düşməsinə, ordunun döyüş qabiliyyətinin zəifləməsinə səbəb olur. Qeyd olunan cinayətin obyekti hərbi xidmət

keçmənin qanunvericiliklə müəyyən edilmiş qaydasıdır. Cinayət Məcəlləsinin 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhəti aşağıdakı əlamətlərdən ibarətdir:

– hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və üzrlü səbəb olmadan öz xidməti yerinə vaxtında gəlməmə;

– həmin əməlin 3 gündən artıq, lakin 10 gündən çox olmamaqla davam etməsi, yaxud həmin əməllərin 3 gündən az olsa da, 6 ay ərzində təkrar törədilməsi.

Göstərilən cinayətin obyektiv cəhətinin zəruri əlamətlərindən biri özbaşına tərk etmənin və ya vaxtında gəlməmənin müddətləridir. Qeyd olunan əməllərin cinayət məsuliyyətinə səbəb olması üçün özbaşına tərk etmə və ya vaxtında gəlməmə 3 gündən 10 günədək olmalı, yaxud 3 gündən az olsa belə, 6 ay ərzində təkrar törədilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən cinayətin subyektlərinin hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmələri və ya üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında gəlməmələri halları üzrə həmin maddədə göstərilən "gün" anlayışının hansı müddətləri ehtiva etməsinin dəqiq müəyyən edilməsi həmin cinayətin obyektiv cəhətinin müəyyənləşdirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Bunun düzgün müəyyən olunmaması həmin əməlin cinayət məsuliyyətinə səbəb olub-olmamasının araşdırılmasında səhv nəticələrə gətirib çıxara bilər.

Qeyd olunmalıdır ki, Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsi ilə bağlı bir neçə qərar qəbul edərək mühüm hüquqi mövqelər formalaşdırmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair" 2001-ci il 26 oktyabr tarixli Qərarında göstərmişdir ki, "Hərbi qulluqçuların statusu haqqında" Qanunun 2-ci maddəsinin birinci hissəsində göstərilən şəxslər öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsinə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsinə görə Cinayət Məcəlləsinin 333-cü maddəsi ilə cinayət məsuliyyəti daşıyırlar.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 2005-ci il 18 iyul tarixli Qərarında bu maddənin obyektiv cəhətini nəzərə alaraq belə qənaətə gəlmişdir ki, həmin maddədə göstərilən müddətlərin əvvəli hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi andan və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə müəyyən edilmiş müddətdə gəlmədiyi vaxtdan hesablanır.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair" 2017-ci il 2 iyun tarixli Qərarında da göstərildiyi kimi, həmin maddələrin dispozisiyasında əməlin müəyyən müddət ərzində təkrar törədilməsi hərbi hissəni özbaşına tərk etmə cinayətinin obyektiv cəhətinin tərkib əlaməti kimi nəzərdə tutulmuşdur. Belə ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə görə Cinayət Məcəlləsinin 333.1-ci maddəsi ilə cinayət məsuliyyəti o zaman yaranır ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməmə müddəti üç gündən artıq, lakin on gündən çox olmasın, yaxud üç gündən az olsa da, eyni əməllər altı ay ərzində təkrar törədilmiş olsun.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən "gün" anlayışı şərh edilərkən məhz həmin Məcəllənin vəzifə və prinsipləri, hüquqi müəyyənlik prinsipi, eləcə də Konstitusiya Məhkəməsi Plenumunun bu maddə ilə bağlı Qərarlarında formalaşdırdığı hüquqi mövqelər əsas götürülməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi müəyyənlik prinsipi ilə bağlı formalaşdırdığı hüquqi mövqeyə görə, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir ("Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 2008-ci il 22 sentyabr tarixli Qərar).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bir çox qərarlarında göstərmişdir ki, əsas hüquqların məhdudlaşdırılması yalnız o halda qanunla müəyyən olunmuş hesab edilə bilər ki, şüurlu şəxs norma ilə tanış olaraq və hüquqşünasın yardımına və ya məhkəmə təcrübəsinə müraciət etmədən öz hərəkətlərinin nəticələrini kifayət qədər dəqiq dəyərləndirə bilsin. Məhkəmə, həmçinin hesab etmişdir ki, baxılan aspektdə hüquqi müəyyənlik üçün əsas təhlükəni hədsiz ümumi ifadələr, əsas terminlərin açıqlanmaması və ya eyni terminlərin müxtəlif qanunlarda müxtəlif şərhlərinin mövcudluğu yaradır (Landvreugd Hollandiyaya qarşı iş üzrə 2002-ci il 4 iyun tarixli; Brumarescu Rumıniyaya qarşı iş üzrə 1999-cu il 28 oktyabr tarixli Qərarlar).

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu bir daha vurğulayır ki, cinayət hüquq normalarının dəqiqliyi, aydınlığı, birmənalılığının ümumhüquqi meyarları hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipindən irəli gəlir və bu meyarlar Cinayət Məcəlləsinin qanunçuluq prinsipinin təmin edilməsinə xidmət edir. Belə ki, hamının qanun və məhkəmə qarşısında bərabərlik və qanunçuluq prinsiplərinin təmin edilməsi yalnız cinayət hüquq normalarının bütün hüquq tətbiq edən orqanlar tərəfindən vahid anlaşılması və şərhi nəticəsində mümkündür. Əksinə, qanunçuluq prinsipi baxımından hüquq normalarının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmə prosesində hədsiz mülahizələrə və özbaşınalığa gətirib çıxarmaqla bərabərlik, qanunun aliliyi prinsiplərini pozmuş olar.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsində "gün" anlayışına açıqlama verilmədiyi üçün bu anlayışa izah vermək məqsədi ilə həmin qanunvericiliyə daha yaxın olan və cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinin hüquqi prosedurlarını müəyyən edən Cinayət-Prosessual Məcəlləsinə müraciət olunmalıdır.

Bununla bağlı qeyd olunmalıdır ki, cinayət qanunvericiliyi onun qarşısında duran üç vəzifəni müəyyən edir. Bu, ilk növbədə, cinayət qanunvericiliyində göstərilən obyektləri cinayətkar qəsdlərdən qorumaq; sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etmək; cinayətlərin qarşısını almaqdır. Həmin vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsinin cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət,

cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cinayət-prosessual qanunvericiliyi isə cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin prosedurlarını müəyyən edir (Cinayət-Prosessual Məcəlləsinin 1.1-ci maddəsi).

Cinayət-Prosessual Məcəlləsinin təyinatı cinayət hesab edilən hər bir hadisənin açılmasına, cinayət törətmiş şəxslərin ifşa və məhkum edilməsinə, təqsirsiz şəxslərin təqib və məhkum edilməsinin qarşısının alınmasına xidmət edir. Başqa sözlə, Cinayət-Prosessual Məcəlləsi cinayət hüquq normalarının tətbiq edilməsi üçün prosessual vasitələri müəyyən edir.

Cinayət-Prosessual Məcəlləsinin normaları Cinayət Məcəlləsinin normalarına dəyişikliklər və ya düzəlişlər edə bilməz, onlar yalnız Cinayət Məcəlləsinin normalarının reallaşdırılmasına istiqamətlənməlidir. Buna görə, normalar arasında kolliziyalar müəyyən edildikdə, ilk növbədə, Cinayət Məcəlləsinin müvafiq normalarının müddəaları aydınlaşdırılmalı, daha sonra isə Cinayət-Prosessual Məcəlləsinə müraciət edilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18 və 83.1-ci maddələrinin şərh edilməsinə dair" 2010-cu il 6 sentyabr tarixli Qərarı).

Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarındakı yanaşma belə nəticəyə gəlməyə imkan verir ki, Cinayət Məcəlləsində nəzərdə tutulmayan hər hansı anlayışın cinayət-prosessual qanunvericiliyində müəyyən edilmiş açıqlaması Cinayət Məcəlləsinin məqsəd və vəzifələrinə, prinsiplərinə, eləcə də hüquqi müəyyənlik prinsipinə uyğun gəldiyi halda cinayət hüquq normasının tətbiqi zamanı nəzərə alına bilər.

Cinayət-Prosessual Məcəlləsinin 202-ci maddəsində prosessual müddətlərin hesablanması qaydasından bəhs olunur. Həmin maddəyə əsasən, cinayət mühakimə icraatı zamanı bu Məcəllə ilə müəyyən olunmuş müddətlər saatlar, günlər, aylar və illərlə hesablanır. Cinayət mühakimə icraatı zamanı müddətlər günlərlə hesablanarkən müddət birinci gün gecə saat 12-də başlayır və müddətin sonuncu günü gecə saat 12-də qurtarır.

Göründüyü kimi, qanunverici bu maddədə gün anlayışının başlanğıcını və qurtarmasını 24 saat (sutka) çərçivəsində müəyyən etmişdir.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsində "gün" anlayışının izahı verilmədiyi üçün həmin Məcəllənin 333-cü maddəsində göstərilən "gün" anlayışı məhz cinayət-prosessual qanunvericiliyində işlədilən 24 saatlıq müddət (sutka) mənasında başa düşülməlidir. Bu baxımdan qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanmalıdır (məsələn, hərbi qulluqçu öz hərbi hissəsini səhər saat 9:00-da tərk etdikdə tərk etmənin bir günü növbəti gün səhər saat 9:00-da bitir). Belə yanaşma Cinayət Məcəlləsinin məqsəd və vəzifələri, prinsipləri ilə ziddiyyət təşkil etmir, hüquqi müəyyənlik prinsipindən irəli gəlir və Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan hüquqi mövqelərinə uyğundur.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın Preambulasını rəhbər tutaraq qeyd edir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində qeyd olunan "gün" anlayışına belə şərh verilməsi ölkəmizin suverenliyini və ərazi bütövlüyünü qorumaq və hərbi intizamı möhkəmləndirmək, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş hazırlığını yüksəltmək məqsədinə xidmət etmiş olur.

Konstitusiyanın Preambulasında Azərbaycan xalqının Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti bəyan edilmişdir. Bu niyyətin həyata keçirilməsi məqsədi ilə dövlət vətəndaşlara münasibətdə vəzifələr müəyyən etmişdir.

Konstitusiyanın IV fəslində nəzərdə tutulan vətəndaşların əsas vəzifələrindən biri də vətəni müdafiədir. Konstitusiyanın 76-cı maddəsinin I hissəsinə görə, vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

Hərbi xidmət keçmənin qaydaları "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunları, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi və digər qanunvericilik aktları ilə müəyyən olunur. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunlarında və hərbi nizamnamələrdə müəyyən olunmuş hərbi intizama ciddi riayət etməlidirlər. Hərbi intizama ciddi riayət olunmaması cinayət qanunu ilə mühafizə olunan ictimai münasibətlərin pozulması ilə nəticələnir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışı 24 saatlıq müddəti ehtiva edir.

Həmin maddədə göstərilmiş müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışı 24 saatlıq müddəti ehtiva edir.

Həmin maddədə göstərilmiş müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanır.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:** **Fərhad ABDULLAYEV**

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

## ƏMR

## № 10/04

Bakı şəhəri 30 yanvar 2019-cu il

**"Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarına giriş-çıxışa nəzarət Qaydaları"nın təsdiq edilməsi haqqında**

Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarının mühafizəsini və insanların təhlükəsizliyini təmin etmək, binaya giriş və çıxışa əməl olunmasına nəzarəti təkmilləşdirmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarının giriş-çıxışa nəzarət Qaydaları" (bundan sonra – Qaydalar) təsdiq edilsin *(əlavə olunur).*

**2.** Tabe rayon (şəhər) prokurorluqlarının əməkdaşları bu Qaydaların tələblərinə dönmədən əməl olunmasını təmin etsinlər.

**3.** Qaydaların surəti icra üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə idarəsinə göndərilsin.

**4.** Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsi tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarına daxil olmaq və çıxmaq üçün əsas verən sənədlərin müəyyən olunmuş formada hazırlanmasını təmin etsin.

**5.** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) prokurorluqlarının inzibati binalarına buraxılışı müəyyənləşdirən müvafiq qaydaların hazırlanması Naxçıvan Muxtar Respublikasının Prokurorluğu tərəfindən təmin edilsin.

**6.** Qaydalara riayət olunması vəziyyəti Baş Prokurorluğun Təşkilat-analitik idarəsi tərəfindən nəzarət qaydasında mütəmadi təhlil edilsin, müəyyən olunmuş pozuntular barədə Baş Prokurorluğun rəhbərliyinə məruzə edilməsi təmin olunsun.

**7.** Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələri tərəfindən zəruri hallarda həmin Qaydaların kobud pozuntusuna yol verən prokurorluq əməkdaşlarının intizam məsuliyyətinə cəlb olunmaları üçün müvafiq tədbirlərin görülməsi təmin edilsin.

**8.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat-analitik idarəsinə tapşırılsın.

**9.** Əmr elan və icra olunması üçün bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ aktları" informasiya sisteminə daxil edilsin.

**Zakir Qaralov**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

*Azərbaycan Respublikası Baş prokurorunun 30.01.2019-cu il tarixli 10/04 nömrəli əmri ilə təsdiq edilmişdir*

## Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarına giriş-çıxışa nəzarət

## QAYDALARI

### 1. Ümumi müddəalar

**1.1.** Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarına giriş-çıxışa nəzarət olunması "Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarına giriş-çıxışa nəzarət Qaydaları" ilə (bundan sonra – Qaydalar) nizama salınır.

**1.2.** Bu Qaydaların tələblərinə əməl edilməsi inzibati binaya daxil olan bütün şəxslər – prokurorluğun əməkdaşları, mühafizəni təmin edən polis işçiləri, binada təmir-tikinti və müxtəlif avadanlıqların quraşdırılması üzrə müvafiq işlər aparan, eləcə də prokurorluğun fəaliyyəti ilə əlaqədar olaraq digər şəxslər (bundan sonra – Şəxslər) üçün məcburidir.

**1.3.** Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarının (bundan sonra – İnzibati bina) mühafizəsinin təmin olunması Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin əməkdaşları (bundan sonra – mühafizə əməkdaşları) tərəfindən həyata keçirilir.

**1.4.** İnzibati binaya daxil olmaq üçün əsas verən buraxılış vərəqəsi və digər sənədlər Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsi tərəfindən müvafiq formada hazırlanır.

**1.5.** İnzibati binada nəzarətin təmin olunması üçün təhlükəsizlik qurğularının (bundan sonra – Nəzarət qurğularının) fasiləsiz və qüsursuz vəziyyətdə saxlanılmasına texniki nəzarət Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsi və Maddi-texniki təminat şöbəsi tərəfindən həyata keçirilir.

**1.6.** Nəzarət qurğuları dedikdə metaldetektor, xarici, daxili videonəzarət və sair nəzərdə tutulur.

**2. Giriş-çıxışın tətbiqi qaydaları**

**2.1.** Bu Qaydaların tətbiqinin məqsədi İnzibati binaya giriş və çıxışın qeydiyyatının aparılması, nəzarətsiz daxil olma, müvafiq icazə olmadan qadağan edilmiş avadanlığın və əşyaların gətirilməsi və çıxarılması, bu Qaydalarda nəzərdə tutulmuş şəxlərdən başqa digər şəxslərin silahla binaya daxil olma hallarının qarşısının alınması, eləcə də təhlükəsiz iş rejiminin təmin edilməsidir.

**2.2.** Azərbaycan Respublikası Prokurorluğunun, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının aşağıda qeyd edilən vəzifəli şəxsləri İnzibati binaya xidməti vəsiqələrini təqdim etməklə daxil olmaq hüququna malikdirlər:

**2.2.1.** Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları;

**2.2.2.** Azərbaycan Respublikasının rayon (şəhər) icra hakimiyyəti başçıları və digər məsul vəzifəli şəxsləri;

**2.2.3.** Azərbaycan Respublikası Milli Məclisinin deputatları;

**2.2.4.** Məhkəmə sədrləri və hakimlər;

**2.2.5.** Mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarının rəhbər heyəti;

**2.2.6.** rayon (şəhər) ərazisində fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən idarə (şöbə və bölmə) rəisləri, təhqiqatçıları, müstəntiqləri, əməliyyatçıları və digər əməkdaşları;

**2.2.7.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin mühafizə xidmətinə nəzarəti həyata keçirən əməkdaşları;

**2.2.8.** kuryer, poçt, xüsusi rabitə və feldyeger xidmətlərinin əməkdaşları.

**2.3.** Digər şəxslərin İnzibati binaya daxil olması müəyyən edilmiş qaydada tərtib olunmuş buraxılış vərəqələri əsasında həyata keçirilir.

**2.4.** İnzibati binaya xidməti silahla daxil olmağa icazə yalnız aşağıdakı şəxslərə verilir:

**2.4.1.** Azərbaycan Respublikasının prokurorluq işçilərinə;

**2.4.2.** rayon (şəhər) prokurorluqlarında İnzibati binanın təhlükəsizliyini təmin edən mühafizə əməkdaşlarına;

**2.4.3.** xüsusi rabitə və feldyeger xidmətinin əməkdaşlarına.

**2.5.** Qaydaların 2.4-cü bəndində qeyd olunan şəxslər istisna olmaqla, digər şəxslərin İnzibati binaya silahla daxil olması qəti qadağandır. Həmin şəxslər silahlarını müəyyən edilmiş qaydada növbətçi polis nəfərinə təhvil verir, əvəzində müəyyən olunmuş formada qəbz alır (1 nömrəli əlavə), silah polis postunun seyfində mühafizə olunmuş şəraitdə saxlanılır, qəbz qaytarıldıqda sahibinə verilir və bu barədə xüsusi jurnalda qeydiyyat aparılır (2 nömrəli əlavə).

**2.6.** İnzibati binaya daxil olan şəxslərdə silah və digər qadağan olunmuş texniki qurğu və əşyaların olubolmamasını müəyyən etmək üçün postda olan polis nəfəri texniki vasitələrdən (detektor və s.) istifadə edir.

**2.7.** Polis postunda şəxslərə məxsus şübhəli, o cümlədən qablaşdırılmış halda olan əşyaların saxlanması qadağandır.

**2.8.** Buraxılış vərəqəsi əsasında İnzibati binaya daxil olma, bir qayda olaraq iş günləri və saatlarında həyata keçirilir.

Xidməti zərurət yarandıqda, müəyyən olunmuş qaydalar əsasında iş vaxtından sonra, istirahət və iş günü hesab edilməyən bayram günlərində İnzibati binaya şəxslərin daxil olması həmin rayon (şəhər) prokurorluğunun rəhbərliyinin icazəsi ilə həyata keçirilir.

Tabe rayon (şəhər) prokurorluqlarına dəvət olunmuş və ya şəxsi qəbula gəlmiş vətəndaşlar İnzibati binaya daxil olarkən üzərlərində olan mobil telefon, foto, audio-video, eləcə də, digər elektron və texniki qurğular söndürülmüş vəziyyətdə polis postunun nəzarətində xüsusi ayrılmış, açarla açılıb bağlanılan və nömrələnmiş qapalı dolaba qoyulur və onların sahiblərinə müvafiq nişan verilir.

**2.9.** İnzibati binaya aşağıdakı şəxslərin daxil olmalarına yol verilmir:

**2.9.1.** alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən, onların prekursorlarından və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə olan şəxslər;

**2.9.2.** şəxsiyyətlərini təsdiq edən sənədləri olmayan və ya bu sənədləri təqdim etməkdən imtina edən şəxslər;

**2.9.3.** özünə məxsus olmayan, istifadə vaxtı keçmiş, digər əlamətlərinə görə şübhə doğuran xidməti vəsiqə və şəxsiyyəti təsdiq edən başqa sənədləri təqdim edən şəxslər;

**2.9.4.** Bu Qaydalara riayət etməyən şəxslər.

**3. Mühafizəni həyata keçirən şəxsin vəzifələri**

**3.1.** İnzibati binanın girişlərindəki postda xidmət aparan mühafizə əməkdaşları:

**3.1.1.** İnzibati binanın qorunması və buraxılış rejiminin etibarlı fəaliyyətini təmin etməli;

**3.1.2.** təsdiq olunmuş post cədvəli və müəyyən olunmuş xidmət yerləri üzrə üzərlərinə qoyulmuş vəzifələri həyata keçirməli;

**3.1.3.** müşahidə kameraları və monitor nəzarəti vasitəsilə İnzibati binanın fasiləsiz mühafizəsini və təhlükəsizliyini təmin etməli;

**3.1.4.** Qaydaların pozulması halları ilə əlaqədar rayon (şəhər) prokurorluğunun rəhbərliyinə və növbətçisinə, habelə tabeçilik qaydasında öz rəisinə dərhal məlumat verməli;

**3.1.5.** Qaydaların 2.9-cu bəndində qeyd olunan şəxslərin binaya daxil olmalarının qarşısını səlahiyyətləri çərçivəsində almalı;

**3.1.6.** İnzibati binadan çıxan şəxslərin birdəfəlik buraxılış vərəqələrini yoxlamalı;

**3.1.7.** İnzibati binaya daxil olan şəxslərdə olan bağlama, çanta və başqa əşyaları texniki vasitələrdən istifadə etməklə yoxlamalı;

**3.1.8.** tabe rayon (şəhər) prokurorluqlarına dəvət olunmuş və ya şəxsi qəbula gəlmiş vətəndaşların İnzibati binaya mobil telefon, foto, audio-video eləcə də, digər elektron və texniki qurğularla daxil olmasına icazə verməməli;

**3.1.9.** tabe rayon (şəhər) prokurorluğuna daxil olan şəxslərdə silah və digər qadağan olunmuş texniki qurğular və əşyaların olub-olmamasını müəyyən etmək üçün texniki vasitələrdən (detektor və s.) istifadə etməli;

**3.1.10.** İnzibati binanın giriş və çıxış sahələrində şəxslərin toplanmasının, müvafiq qaydada təşkil olunmamış kütləvi tədbirlərinin qarşısını almaq üçün səlahiyyətləri çərçivəsində tədbirlər görməli;

**3.1.11.** kənar şəxslərin polis postuna, nəzarət qurğularının quraşdırıldığı sahələrə və növbətçi otağa daxil olmalarına, xidməti telefonlardan istifadə etmələrinə yol verməməli;

**3.1.12.** iş vaxtı qurtardıqdan sonra verilmiş buraxılış vərəqələrini üzləşdirib İnzibati binada kənar şəxslərin qalıb-qalmadığını müəyyən etməli və toplanmış vərəqələri prokurorluğun dəftərxanasına təhvil verməli;

**3.1.13.** iş vaxtı qurtardıqdan sonra, istirahət və iş günləri hesab edilməyən bayram günlərində gətirilən xidməti sənədləri qəbul edib, sonradan aidiyyəti üzrə prokurorluğun dəftərxanasına təhvil verməli;

**3.1.14.** İnzibati binada yanğın və digər fövqəladə hadisələr baş verdikdə Baş Prokurorluq üzrə 21 oktyabr 2011-ci il tarixli 10/89 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarının İnzibati bina və qurğularında (digər sahələrdə) yanğın təhlükəsizliyinə dair" Təlimatın tələblərinə əməl etməli;

**3.1.15.** vətəndaşlarla ünsiyyətdə nəzakətli və diqqətli olmalı, qəbula gələn şəxslər barədə dərhal bu sahəyə məsul olan şəxsə məlumat verməlidir.

**Baş Prokurorluğun Təşkilat-analitik idarəsi**

*Azərbaycan Respublikası Baş prokurorunun 30.01.2019-cu il tarixli 10/04 nömrəli əmri ilə təsdiq edilmiş Qaydalara 1 nömrəli əlavə*

**QƏBZ №___**

Həmin qəbz verilir________________________________________
(vəzifəsi, rütbəsi, soyadı, adı və atasının adı)

ona görə ki, tabe rayon (şəhər) prokurorluqlarının inzibati binasına daxil olarkən saxlamaq üçün ondan________________________________
(silahın markası, seriya və nömrəsi, istehsal ili)

və______________________ ədəd patron,_________________ ədəd daraq qəbul edilmişdir.

Silahı qəbul edən polis işçisi________________________________
(rütbəsi, soyadı və imzası)

"_____" __________ 20____-cu il

*Azərbaycan Respublikası Baş prokurorunun 30.01.2019-cu il tarixli 10/04 nömrəli əmri ilə təsdiq edilmiş Qaydalara 2 nömrəli əlavə*

**Tabe rayon (şəhər) prokurorluqlarının inzibati binasına daxil olarkən saxlanmaq üçün qəbul edilmiş silahların qeydiyyatı**

**JURNALI**
**(20_______il)**

| Soyadı, adı, atasının adı | Vəzifəsi | Hansı vəzifəli şəxsin yanına gəlmişdir | Silahın markası, seriya və nömrəsi, istehsal ili | Patron və darağın sayı | Silahın alınma vaxtı | Silahın qaytarılma vaxtı | Silahın təhvil alınması haqqında imza |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

## Ə M R

## № 11/46

Bakı şəhəri 6 fevral 2019-cu il

### "Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında Təlimat"ın təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin seçilməsi qaydasını, hüquq və vəzifələrini müəyyən etmək və onların fəaliyyətinin düzgün təşkili məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin tələblərini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında Təlimat" təsdiq edilsin *(əlavə olunur).*

**2.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi, Azərbaycan Respublikası Baş Prokurorluğunun müvafiq struktur qurumunun rəhbərləri, Bakı şəhər, bütün rayon (şəhər) və ərazi hərbi prokurorları tərəfindən ictimai köməkçilərin fəaliyyətinin düzgün təşkil olunması və onlara lazımi təcrübə və metodiki köməklik göstərilməsi təmin edilsin.

**3.** Təlimatın icrasına nəzarət Azərbaycan Respublikası Baş Prokurorluğunun Kadrlar idarəsinə həvalə olunsun.

**4.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun bütün struktur qurumlarına və tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ aktları" informasiya sisteminə daxil edilsin.

**Zakir Qaralov**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

*Azərbaycan Respublikası Baş prokurorunun 06 fevral 2019-cu il tarixli 11/46-k nömrəli əmri ilə təsdiq edilmişdir.*

## Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında

## T Ə L İ M A T

### I. Ümumi müddəalar

**1.1.** Bu Təlimat Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin (bundan sonra ictimai köməkçi) seçilməsi qaydasını, hüquq və vəzifələrini və onların fəaliyyətinin təşkilini müəyyən edir.

**1.2.** İctimai köməkçi qismində fəaliyyət prokurorluq orqanlarında kadr siyasətinin həyata keçirilməsi üçün ictimaiyyətlə qarşılıqlı əlaqələrin qurulması, yüksək peşə hazırlıqlı kadr ehtiyatının formalaşdırılması üçün prokurorluqda işləmək arzusunda olan şəxslərə prokurorluq orqanlarının fəaliyyətinin məzmunu və iş şəraiti ilə tanışlıq imkanının yaradılması, işə qəbulla bağlı müsabiqələrdə iştirak edən namizədlərin şəxsi və işgüzar keyfiyyətlərinin əvvəlcədən öyrənilməsi, həmçinin onların bilik, bacarıq və peşə vərdişlərinin artırılması, habelə prokurorluq orqanlarının səmərəli fəaliyyəti üçün təşkilati və texniki yardımın göstərilməsi məqsədi daşıyır.

**1.3.** İctimai köməkçinin prokurorluq orqanlarında fəaliyyəti ödənişsizdir və könüllülük əsasında həyata keçirilir. İctimai köməkçilərin fəaliyyəti təşkil edilərkən onlarda bu sahədə işləmək həvəsinin formalaşmasına şərait yaradılmalıdır.

**1.4.** İctimai köməkçinin fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunları, digər qanunvericilik və normativ hüquqi aktları, "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi", Azərbaycan Respublikası Baş prokurorunun əmr və göstərişləri, habelə bu Təlimatın tələblərinə uyğun təşkil edilir.

**1.5.** İctimai köməkçi şəxsi həyatın toxunulmazlığına, ailə və qanunla qorunan digər sirlərə toxunan hallar barədə, habelə fəaliyyəti ilə əlaqədar ona məlum olan digər məlumatları yaymamalıdır.

**II. İctimai köməkçinin fəaliyyətinin təşkili**

**2.1.** İctimai köməkçi qismində fəaliyyətə qəbul olunması üçün müraciət etmiş şəxsin (bundan sonra namizəd) seçimi ilə bağlı onun barəsində sənədlərin toplanması və yoxlanılması Azərbaycan Respublikası Baş Prokurorluğunun Kadrlar idarəsi ilə (bundan sonra Kadrlar idarəsi) razılaşdırılmaqla prokurorluğun müvafiq qurumu (bundan sonra müvafiq prokurorluq) tərəfindən həyata keçirilir.

**2.2.** İctimai köməkçilərin sayı müvafiq prokurorluqların iş yükü və şəraiti nəzərə alınmaqla Kadrlar idarəsi tərəfindən müəyyən edilir.

**2.3.** İctimai köməkçilərin fəaliyyətə qəbul edilməsi ilə bağlı kütləvi informasiya vasitələrində və Baş Prokurorluğun rəsmi internet səhifəsində məlumat verilə bilər.

**2.4.** İctimai köməkçi qismində fəaliyyətə zəruri peşə biliklərinə və mənəvi keyfiyyətlərə malik, hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində bakalavriat (ikinci kursu bitirmiş), habelə magistratura səviyyələrində təhsil alan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən, bu fəaliyyətdə iştirakı üçün müraciət etmiş Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

**2.5.** Aşağıdakı şəxslər ictimai köməkçi qismində fəaliyyətə qəbul edilmirlər:

– bu Təlimatın 2.4-cü bəndində nəzərdə tutulmuş tələblərə cavab verməyənlər;

– ikili vətəndaşlığı olan şəxslər;

– digər dövlətlər qarşısında öhdəlikləri olanlar;

– din xadimləri;

– fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə ictimai köməkçinin vəzifələrini yerinə yetirməyə qadir olmayan şəxslər;

– alkoqolizm, narkomaniya, toksikomaniya və digər ağır xəstəliklərə tutulmuş şəxslər (bu barədə həkim rəyi olduqda);

– əvvəllər məhkum olunmuş, habelə bəraətverici əsaslar olmadan barəsində cinayət işinin icraatına (cinayət təqibinə) xitam verilmiş şəxslər.

**2.6.** İctimai köməkçi qismində fəaliyyətə qəbul olunması məsələsinə baxılması üçün şəxs aşağıdakı sənədləri təqdim etməlidir:

– ərizə;

– şəxsiyyət vəsiqəsinin surəti;

– kadrların uçotuna dair anket, tərcümeyi-hal, iki ədəd ağ fonda 4x6 sm ölçüdə fotoşəkil;

– ali təhsil müəssisəsində təhsil alması haqqında arayış.

Zəruri olduğu halda aşağıdakı sənədlər də tələb oluna bilər:

– ali təhsil müəssisəsindən xasiyyətnamə;

– əmək kitabçasının notariat qaydasında təsdiq edilmiş surəti (olduğu halda);

– hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti (olduğu halda);

– sağlamlıq haqqında arayış;

– narkoloji və psixi xəstəliklərlə bağlı qeydiyyatda olmaması haqqında arayışlar;

– yaşadığı ünvan və ailə tərkibi haqqında arayış.

**2.7.** Namizədin təhsil aldığı ali təhsil müəssisəsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən tanınmalıdır.

**2.8.** Tələb olunan sənədlər təqdim edildikdən sonra müvafiq prokurorluq tərəfindən yoxlama aparılır. Zərurət olduğu halda yoxlama bilavasitə Kadrlar idarəsi tərəfindən aparıla bilər.

**2.9.** Yoxlama başa çatdıqdan sonra toplanmış sənədlər namizədin fəaliyyətə qəbul edilməsi məsələsinin razılaşdırılması üçün Kadrlar idarəsinə təqdim edilir. Namizəd Kadrlar idarəsinə dəvət olunaraq onunla fərdi söhbət aparılır. Namizədin fəaliyyətə qəbul edilməsinə dair razılıq verildikdə sənədlərin əsli Kadrlar idarəsində saxlanılmaqla surəti müvafiq prokurorluğa göndərilir.

**2.10.** İctimai köməkçinin fəaliyyəti müvafiq prokurorun əmri ilə rəsmiləşdirildikdən sonra o, təcrübəli prokurorluq işçisinə təhkim olunur. İctimai köməkçi fəaliyyətini həmin prokurorluq işçisinin nəzarət və rəhbərliyi altında həyata keçirir. İctimai köməkçiyə xidməti vəsiqə verilmir.

**2.11.** Prokurorluğun müvafiq qurumunun fəaliyyət sahələri nəzərə alınmaqla ictimai köməkçinin fəaliyyət istiqamətlərini özündə əks etdirən plan (bundan sonra fəaliyyət planı) tərtib olunur. Fəaliyyət planı ictimai köməkçinin təhkim olunduğu prokurorluq işçisi tərəfindən hazırlanır və ictimai köməkçi tanış olduqdan sonra müvafiq prokuror tərəfindən təsdiq edilir.

**2.12.** İctimai köməkçi təhkim edildiyi prokurorluq işçisi tərəfindən fəaliyyəti ilə əlaqədar təlimatlandırılır və ona prokurorluğun fəaliyyət istiqamətlərini dərindən öyrənməsi üçün şərait yaradılır. İctimai köməkçi həmçinin prokurorluq orqanlarında kargüzarlığın aparılması qaydaları, xidməti və prosessual sənədlərin layihəsinin tərtibinə dair təlimatlarla tanış olur və fəaliyyəti ilə əlaqədar işlərin icrasına cəlb edilir.

**2.13.** Prokurorluq işçisinin səlahiyyətinə aid funksiyaların həyata keçirilməsinin ictimai köməkçiyə həvalə edilməsi qadağandır. İctimai köməkçi cinayət prosesində ekspert, mütəxəssis, tərcüməçi, hal şahidi və s. qismində iştirak edə bilməz. Həmçinin o, həyat və sağlamlığı üçün təhlükə yaradan, habelə dövlət sirrini və ya qanunla nəzərdə tutulmuş digər sirri özündə əks etdirən sənədlərlə işə cəlb oluna bilməz. İctimai köməkçiyə təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılmaması barədə yazılı xəbərdarlıq edilir.

**2.14.** İctimai köməkçinin prokurorluğun fəaliyyəti ilə tanış olmasına, metodiki ədəbiyyatdan, kriminalistika texnikasından, elektron məlumat bazasından istifadə etməsinə bu Təlimatın 2.13-cü bəndinin tələbləri nəzərə alınmaqla şərait yaradılır.

**2.15.** İctimai köməkçi icrası ona həvalə edilmiş xidməti sənədlərin layihəsinin hazırlanmasını, həmin sənədlərlə əlaqədar digər texniki işlərin görülməsini bir qayda olaraq fəaliyyət göstərdiyi prokurorluğun inzibati binasında həyata keçirməlidir. Qeyd edilən sənədlərin inzibati binadan kənara çıxarılması qadağandır.

**2.16.** İctimai köməkçinin müsbət fəaliyyət göstəriciləri gələcəkdə onun prokurorluq orqanlarına işə qəbulu zamanı nəzərə alına bilər.

**2.17.** İctimai köməkçinin fəaliyyət müddəti bir ildir. Həmin müddət tərəflərin qarşılıqlı razılığı əsasında müvafiq prokurorun əmri ilə uzadıla bilər. İctimai köməkçinin fəaliyyət müddəti onun bakalavr və ya magistr təhsili aldığı müddətlə məhdudlaşır. Onun fəaliyyətinə bu Təlimatın 2.19-cu bəndində nəzərdə tutulan hallarda müvafiq prokurorun əmri ilə xitam verilir.

**2.18.** İctimai köməkçinin şəxsi işinin aparılması və saxlanması Kadrlar idarəsi tərəfindən həyata keçirilir.

**2.19.** İctimai köməkçinin fəaliyyətinə Kadrlar idarəsi ilə razılaşdırılmaqla aşağıdakı hallarda xitam verilir:

– fəaliyyət müddəti başa çatdıqda;

– fəaliyyətinə vaxtından əvvəl xitam verilməsi barədə müraciət etdikdə;

– ali təhsil müəssisəsindən xaric edildikdə;

– üzrsüz səbəbdən uzun müddət gəlmədikdə;

– üzərinə qoyulmuş vəzifələri icra etmədikdə və ya lazımi qaydada icra etmədikdə, öz hüquqlarından sui-istifadə etdikdə;

– bu Təlimatın 2.5-ci bəndində göstərilənlər sonradan müəyyən edildikdə;

– cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edildikdə və ya fəaliyyətinə mane olan digər əsaslar olduqda.

**III. İctimai köməkçinin hüquq və vəzifələri**

3.1. İctimai köməkçinin hüquqları aşağıdakılardır:

– prokurorluğun fəaliyyəti ilə tanış olmaq, nəzəri biliklərini təcrübədə tətbiq etmək;

– qanunvericiliklə qadağan olunmayan hallarda təhkim olunduğu prokurorluq işçisi ilə birlikdə prokurorluğun funksiyalarının həyata keçirilməsi ilə əlaqədar fəaliyyətdə iştirak etmək;

– fəaliyyət istiqamətlərini özündə əks etdirən planla tanış olmaq;

– fəaliyyəti ilə əlaqədar təlimat almaq;

– qanunvericiliyin tətbiqi üsullarını öyrənmək;

– bu Təlimatda nəzərdə tutulmuş hallarda müvafiq sənədlərlə tanış olmaq, metodiki ədəbiyyatdan, kriminalistika texnikasından, eləcə də bu Təlimatın 2.13-cü bəndinin tələbləri nəzərə alınmaqla elektron məlumat bazasından istifadə etmək;

– fəaliyyət müddətinin uzadılması və ya vaxtından əvvəl fəaliyyətinə xitam verilməsi ilə bağlı müraciət etmək.

**3.2.** İctimai köməkçi prokurorluqda ştatdan kənar fəaliyyət göstərir. Bu fəaliyyət ona hər hansı güzəşt və ya üstünlük vermir, qanunla müəyyən edilmiş vəzifə və öhdəliklərin icrasından azad etmir.

**3.3.** İctimai köməkçi yalnız təhkim olunduğu prokurorluq işçisinin və həmin prokurorluğun rəhbərinin tapşırığı ilə fəaliyyət göstərməli, prokurorluğun adına xələl gətirməməli, insan hüquq və azadlıqlarını pozmamalıdır.

**3.4.** İctimai köməkçi fəaliyyətini həyata keçirərkən yaranan çətinliklər, habelə buna imkan verməyən hallar barədə dərhal təhkim olunduğu prokurorluq işçisinə və müvafiq prokurorluğun rəhbərinə məlumat verməlidir.

**3.5.** İctimai köməkçi ona həvalə olunmuş işin vaxtında və tam yerinə yetirilməsinə, qanunsuz hərəkətləri nəticəsində vurduğu zərərə, həmçinin dövlət sirrini təşkil edən məlumatların qanunsuz əldə edilməsinə, eləcə də təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılmasına görə qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

**3.6.** İctimai köməkçiyə qadağandır:

– prokurorluqda fəaliyyəti ilə bağlı ona məlum olmuş məlumatları yaymaq;

– hüquqlarından öz şəxsi məqsədləri üçün istifadə etmək;

– prokurorluqda aparılan araşdırmanın nəticəsində marağı olan fiziki, hüquqi və ya vəzifəli şəxslərdən mükafat qismində hər hansı bir maddi nemət, maddi xarakterli imtiyazlar almaq.

**IV. İctimai köməkçinin fəaliyyətinə nəzarət və həmin fəaliyyətin əlaqələndirilməsi**

**4.1.** İctimai köməkçinin fəaliyyətinə bilavasitə nəzarət təhkim olunduğu prokurorluq işçisi, onun işinin əlaqələndirilməsi, təhlili və fəaliyyətinə ümumi nəzarət isə müvafiq prokuror tərəfindən həyata keçirilir.

**4.2.** İctimai köməkçinin qanunvericiliyin tətbiqi üsullarını mənimsəməsi üçün müvafiq prokuror və təhkim olunduğu prokurorluq işçisi tərəfindən köməklik göstərilir.

**4.3.** İctimai köməkçinin yarımillik və illik dövr üzrə gördüyü işlər təhlil edilir və bu barədə Kadrlar idarəsinə məlumat verilir.

**4.4.** Fəaliyyətində fərqlənən ictimai köməkçiyə Kadrlar idarəsi ilə razılaşdırılmaqla müvafiq prokuror tərəfindən xasiyyətnamə verilə bilər.

**4.5.** İctimai köməkçi tərəfindən hər hansı qanun pozuntusuna yol verildiyi halda bu barədə müvafiq prokuror Kadrlar idarəsinə yazılı məlumat verir.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

## ƏMR

## № 10/06

Bakı şəhəri 21 fevral 2019-cu il

**Azərbaycan Respublikası Baş prokurorunun 01.03.2017-ci il tarixli 10/13 nömrəli Əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"da dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Baş prokurorun 01.03.2017-ci il tarixli 10/13 nömrəli Əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın "Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimaf'da dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2019-cu il tarixli 510 nömrəli Fərmanına uyğunlaşdırılınası məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun 01.03.2017-ci il tarixli 10/13 nömrəli Əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimaf'da aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 5.1.3.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Dövlət Gerbi ("Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanunu ilə müəyyən edilmiş təsvirə uyğun olaraq)

**1.2.** 12.4.6-cı yarımbənddə "birləşdirilməli" sözü "birləşdirilməlidir" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "və həmin sənədi təsdiq etmək səlahiyyəti olan şəxsin elektron və ya gücləndirilmiş elektron imzası ilə təsdiqlənməlidir" sözləri çıxarılsın;

**1.3.** 12.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"12.5.** Elektron sənədin əsli və surəti "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanır və təsdiq edilir." ;

**1.4.** 12.5.1-12.5.3-cü yarımbəndlər ləğv edilsin;

**1.5.** 12.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"12.14.** Elektron sənəd dövriyyəsi sistemi ilə alınan və göndərilən elektron sənədlərin hərəkəti, həmçinin daxili yazışmalar sistem vasitəsilə qeydə alınır. Sistem iştirakçılarına sənədlərin təhvil verilməsi sistem vasitəsilə təsdiq olunur. Elektron sənəd dövriyyəsi zamanı yalnız dərkənarların və göndərilən sənədlərin elektron imza ilə təsdiq edilməsi tələb olunur.";

**1.6.** 22 (hər iki halda), 23, 25 və 27 Ns-li Əlavələrdə "Azərbaycan Respublikası Dövlət gerbinin təsviri ("Azərbaycan Respublikasının Dövlət gerbi haqqında" Əsasnamə ilə müəyyən edilmiş təsvirə uyğun olaraq)" sözləri "Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri ("Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilmiş təsvirə uyğun olaraq)" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Prokurorluğunun normativ aktları" informasiya sisteminə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**